

Ölkəmiz bütün dünya üçün açıqdır. Bizim dövlətimiz, ölkəmiz öz milli, mənəvi, dini dayaqları üzərində qurulub və bundan sonra da yaşayacaqdır. Amma bunların hamısını təmin etmək üçün gərək hər bir vətəndaşımız öz vətəndaşlıq borcunu yerinə yetirsin, öz vətəndaşlıq məsuliyyətini dərk etsin. Əgər hər bir vətəndaş, hər bir azərbaycanlı dərk edə bilsə ki, müstəqil Azərbaycanın yaşaması, qalib gəlməsi və gələcəyə uğurla getməsi onun kiçik fəaliyyətindən də asılıdır, o bunu edəcəkdir.

**Heydər Əliyev**

# DÖVLƏT VƏ DİN

İCTİMAİ FİKİR TOPLUSU

№ 03 (70) 2021



## REDAKSİYA HEYƏTİ:

| | |
|---|---|
| **Allahşükür Paşazadə** | Tarix elmləri doktoru, professor |
| **Bəxtiyar Əliyev** | Psixologiya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü |
| **Etibar Nəcəfov** | Fəlsəfə elmləri doktoru, professor |
| **Əli Əhmədov** | Fəlsəfə elmləri doktoru, professor |
| **Fazil Mustafa** | Fəlsəfə üzrə fəlsəfə doktoru |
| **Gövhər Baxşəliyeva** | Filologiya üzrə elmlər doktoru, professor, AMEA-nın həqiqi üzvü |
| **Gülçöhrə Məmmədova** | Memarlıq doktoru, professor |
| **İlham Məmmədzadə** | Fəlsəfə elmləri doktoru, professor |
| **Mübariz Qurbanlı** | Tarix elmləri üzrə fəlsəfə doktoru, dosent |
| **Nizami Cəfərov** | Filologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü |
| **Sabir Həsənli** | İlahiyyat üzrə fəlsəfə doktoru |
| **Sakit Hüseynov** | Fəlsəfə elmləri doktoru, professor |
| **Səlahəddin Xəlilov** | Fəlsəfə elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü |
| **Teymur Kərimli** | Filologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü |
| **Urxan Ələkbərov** | Biologiya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü |
| **Yaqub Mahmudov** | Tarix elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü |

**Redaktor: Sadiq Mirzəyev**
**İxtisas redaktoru:** Güney Namazova
**Məsul katib:** Saleh Aslanov
**Tərcüməçi-redaktor:** Günel Yusifi
**Texniki redaktor:** Raman Dadaşov



**REDAKSİYANIN ÜNVANI:**
AZ1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi, 5.
Telefon: (+99412) 505-78-19
Qeydiyyat № 1674 / Tiraj: 800 / www.scwra.gov.az

Toplunun "Rəsmi guşə"sində AzərTAc-ın materiallarından istifadə edilib.
Toplunun materiallarından istifadə edərkən istinad zəruridir.
Jurnal "Universal Poligraf" nəşriyyatında çap olunub.

**İSSN 2220-8542**

# BU SAYIMIZDA


## RƏSMİ GUŞƏ

Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik........................................................5

## GERÇƏKLİK

*Mübariz Qurbanlı* – Dini sahədə dövlət siyasəti: reallıqlar və hədəflər....................................7

## CƏMİYYƏT VƏ DİN

*Elnurə Əzizova* – Didaktik xüsusiyyətinə görə türkdilli məqtəllər:
"Məqtəli-Hüseyn"lərdə ideal müsəlman qadın kimi Həzrət Fatimə.........................................14
*Həsənağa Məmmədli* – Dinin teoloji (konfessional) şərhləri..................................................26
*Sevinc Aslanova* – Rus Ortodoks Kilisesi'nde ibadet ve bayramlar.........................................34
*Yeganə Mirzəyeva* – İslam təsəvvüründə əxlaq anlayışı.........................................................40
*Nigar Həsənli* – Quba şəhər məscidləri...................................................................................49

## ARAŞDIRMA

*Nailə Süleymanova* – Mir Möhsün Nəvvabın Şuşa çapxanası və nəşrləri...............................55
*Fəxrəddin Quliyev* – Xalq poeziyasında insan və gerçəklik münasibətləri.............................60
*Sabir Behbudov* – Maarifçilik ideologiyasının formalaşmasında Avropa dəyərlərinin rolu
*(Mirzə Fətəli Axundzadə və Şeyx Cəmaləddin Əfqaninin fəlsəfi görüşləri əsasında)*...............67
*Səbuhi İbrahimov* – Hacı Molla Məhəmməd Naxçıvaninin
"Kəşkülün-Nur" əsərində müxtəlif fəlsəfi nəsihətlər.............................................................75

## TARİXƏ PƏNCƏRƏ

*Məhəbbət Paşayeva* – XIX əsrdə udilərin etnokonfessional vəziyyəti..................................85
*Anar Ağalarzadə* – Qarabağın İslam dini memorial kompleksləri..........................................94
*Ş.Nəcəfov, Ə.Əbdürəhmanov, G.Hacıyeva* – Qarxun orta əsr yaşayış yerində
arxeoloji qazıntılar...................................................................................................................99
*Tarix Dostiyev* – Paleometal dövrü etnik-mədəni proseslərin tədqiqində qəbir abidələri
mənbə kimi *(Seyidli kurqanının materialları əsasında)*.........................................................105
*Tərxan Paşazadə* – Qubanın ən qədim məscidləri - Əbu Müslim məscidlərinin
tarixinə dair mülahizələr.........................................................................................................113



*www.scwra.gov.az*
*e-mail: redaksiya@scwra.gov.az*

# QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK



Hörmətli həmvətənlər!

Sizi və ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımızı dünya müsəlmanlarının birlik, həmrəylik və qardaşlıq rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

İnsanları humanizmə, mərhəmətə və vəhdətə dəvət edən Qurban bayramında müsəlmanlar Haqq yolunda, nəcib amallar uğrunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirir, Ulu Yaradana yaxınlığın sevincini yaşayırlar.

Bəşər mədəniyyətinin möhtəşəm mərhələsini təşkil edən İslam sivilizasiyası xalqımızın dünyagörüşünün formalaşmasında və milli-mədəni inkişafında müstəsna rol oynamış, mütərəqqi İslam adət-ənənələri və mənəvi-əxlaqi dəyərləri Azərbaycanda hər zaman uca tutulmuşdur. İslam dünyasının tarixi-mədəni mərkəzlərindən biri kimi Azərbaycan dünya mədəniyyətinə və elmi-fəlsəfi fikrinin inkişafına misilsiz töhfələr bəxş etmişdir.

Əziz bacı və qardaşlarım!

Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəman övladlarımızın nurlu xatirəsini bu mübarək bayram günlərində dərin ehtiramla yad edirik. Xalqımız şəhidlərimizin şərəfli adını heç zaman unutmayacaq, onların ailələri və qazilərimiz dövlətin daimi diqqət və qayğısı ilə əhatə olunacaqdır. Əminəm ki, ölkəmizin rifahı, firavanlığı üçün edilən dualar, torpaqlarımızın işğaldan azad olunmasının doğurduğu Qələbə ovqatı və Allaha şükranlıq hissi ilə kəsilən qurbanlar cəmiyyətimizdə milli-mənəvi həmrəylik ruhunu daha da gücləndirəcək, xeyirxah əməllərin, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevriləcəkdir.

Dua və niyyətlərinizin Tanrı dərgahında qəbul olunması diləyi ilə bir daha hamınıza xoşbəxtlik, ailələrinizə əmin-amanlıq, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 17 iyul 2021-ci il

# DİNİ SAHƏDƏ DÖVLƏT SİYASƏTİ: REALLIQLAR VƏ HƏDƏFLƏR

***Mübariz QURBANLI*** **,**
*Dini Qurumlarla İş üzrə*
*Dövlət Komitəsinin sədri*

***Azərbaycanda dövlət-din münasibətləri yüksək səviyyədə tənzimlənir, həll olunur. Cəmiyyətimizin, ölkəmizin dayanıqlı inkişafı üçün dövlət-din münasibətlərinin çox böyük əhəmiyyəti var.***

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Azərbaycan dünyada zəngin milli-mənəvi dəyərlərə malik olan dünyəvi dövlət kimi tanınır. Xalqımız tarixin ən keşməkeşli, siyasi-ideoloji qadağaların mövcud olduğu dövrlərində belə mütərəqqi dini ənənələri qoruyaraq onlara sadiq olmuşdur. Azərbaycanın yenidən dövlət müstəqilliyini bərpa etməsi milli-mənəvi dəyərlərin tərkib hissələrindən biri olan dinin cəmiyyətdə özünə mühüm yer tutması üçün əlverişli şərait yaratdı. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda yenidən hakimiyyətə qayıdışından sonra cəmiyyətin bütün sahələrində olduğu kimi, dövlət-din münasibətlərində də inkişaf mərhələsinin bünövrəsi qoyuldu.

Azərbaycan Respublikasının dini sahədə dövlət siyasətinin əsas məqsədi vicdan və dini etiqad azadlığının təmin olunması, dünyəvi dövlət modelinin möhkəmlənməsi, dini müxtəlifliyin və dinlərarası dialoqun qorunması, dövlət orqanları ilə dini qurumlar arasında əməkdaşlığın tənzimlənməsi, dini təhlükəsizliyin təmin edilməsi və s. ibarətdir. Dini sahədə dövlət siyasəti ***dövlətin dünyəviliyi, vicdan və dini etiqad azadlığı, dinlərin bərabərliyi kimi prinsiplərə əsaslanır.***

*Dünyəvi dövlət-din modelini möhkəmləndirən uğurlar*

Azərbaycanın dövlət-din münasibətləri modelinin möhkəmləndirilməsi istiqamətində aparılan dövlət siyasətinin vəzifələri aşağıdakılardır:

- dövlət maraqlarının müdafiəsi;
- vicdan və dini etiqad azadlığına dair konstitusion normaların təmin olunması;
- dövlət orqanları ilə dini qurumlar arasında münasibətlərin hüquqi tənzimlənməsi;
- dini konfessiyalar arasında qarşılıqlı etimad mühitinin yaradılması;
- dini fanatizmə və ekstremizmə qarşı mübarizədə dini maarifləndirə işinin təşkili;
- dini müxtəlifliyin qorunması və dinlərarası dialoqun inkişaf etdirilməsi;
- ölkədə dinlərarası düşmənçilik və nifrət yaratmaq məqsədi güdən, çoxəsrlik dini adət-ənənələrə və mütərəqqi dini dəyərlərə zidd olan materialların yayılmasının qarşısının alınması;

- dini sahədə gedən proseslərin təhlili və proqnozlaşdırılması;
- dini fəaliyyət sahəsində qanunvericiliyin təkmilləşdirilməsi;
- dini qurumların əsaslandırılmış təklif və tövsiyələrinin nəzərə alınması;
- dini qurumların fəaliyyətinin qanunun tələblərinə uyğun təşkilinə nəzarət olunması;
- dini qurumların dünyəvi dövlətçilik prinsipinə hörmətlə yanaşmasının təşviqi və s.

Yuxarıda göstərdiyimiz vəzifələrin uğurla yerinə yetirilməsi Azərbaycana dünya birliyində multikulturalizmin və tolerantlığın inkişaf etdiyi dünyəvi dövlət kimi böyük etimad qazandırır. Ölkəmizdəki dini dözümlülük mühiti müxtəlif millətlər və dini konfessiyalar arasında həmrəyliyi, dinc yanaşı yaşamanı təmin edir. Azərbaycançılıq məfkurəsi milli-dini kimliyi, tolerantlığı və vətəndaş həmrəyliyini təşviq edən ideoloji baxışlar sistemi kimi çıxış edir.

Azərbaycanda multikultural və tolerant dəyərlərin, dini müxtəlifliyin qorunması sahəsində məqsədyönlü dövlət siyasəti aparılır. Ölkəmizdə 970 dini qurum qeydiyyatdan keçmişdir ki, onların 933-ü İslam, 37-si isə qeyri-islam təmayüllüdür. Respublika ərazisində 2253 məscid mövcuddur, 16 kilsə, 7 sinaqoq, 748 pir və ziyarətgah fəaliyyət göstərir. Ölkəmizdə yaşayan əhalinin 96 faizi müsəlman, 4 faizi isə qeyri-müsəlman olsa da, Azərbaycan dövləti bütün dinlərin nümayəndələrinə eyni mövqedən yanaşır.

Azərbaycanın dövlət-din münasibətləri modelini möhkəmləndirən amillər içərisində dini müxtəlifliyin və mütərəqqi dini dəyərlərin qorunması, dinlərarası dialoqun inkişafı mühüm yer tutur. Prezident İlham Əliyevin dediyi kimi: **"Çoxmillətli və çoxkonfessiyalı dövlət kimi, Azərbaycan Respublikası bu gün dünya birliyinə hərtərəfli inteqrasiya siyasəti həyata keçirir, beynəlxalq aləmlə qarşılıqlı münasibətlərin, ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələrinin inkişafına mühüm əhəmiyyət verir. Azərbaycan hökumətinin din siyasəti demokratik dövlət quruculuğu kursuna, eləcə də dövlət-din münasibətlərinin milli-mənəvi və hüquqi müstəvidə tənzimlənməsi prinsipinə əsaslanır. Ölkədə mövcud ictimai-siyasi sabitlik, vətəndaş həmrəyliyi və etnik-dini dözümlülük mühiti mütərəqqi tarixi ənənələrdən bəhrələnən milli siyasətin məntiqi nəticəsidir".**

Qeyd edək ki, dövlət-din münasibətləri modelinin və mütərəqqi dini dəyərlərin əhəmiyyətinin ictimai fikrə çatdırılması üçün dini maarifləndirmə işinin səmərəli şəkildə təşkili vacib məsələlərdən biridir. Prezident İlham Əliyevin 10 oktyabr 2017-ci il tarixli Sərəncamı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması Azərbaycanın dövlət-din münasibətləri modelini təşviq edən dini maarifləndirmə işinin aparılması, mənəvi dəyərlərin qorunması, dövlət-din münasibətlərinin inkişafına dair proqramların hazırlanaraq həyata keçirilməsi və s. baxımından böyük əhəmiyyət daşıyır. Bundan əlavə, Prezident İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan İlahiyyat İnstitutunun yaradılması dini-mənəvi dəyərlərin qorunub saxlanılması və inkişaf etdirilməsi, dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı kadrların hazırlanması istiqamətində atılmış mühüm addımlardan biridir.

Prezident İlham Əliyevin sərəncamları ilə ölkəmizdəki dini qurumlara maliyyə

yardımının göstərilməsi dini konfessiyaların fəaliyyətinin dəstəklənməsi məqsədini daşıyır ki, bu da dövlət-din münasibətlərinin davamlı olaraq təkmilləşməsinə, dini müxtəlifliyin qorunmasına və dinlərarası qarşılıqlı etimadın möhkəmlənməsinə xidmət edir. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Azərbaycandakı dini konfessiyalarla sıx əməkdaşlıq edir, müxtəlif dini etiqad mənsubları arasında qarşılıqlı hörmət və birgəyaşayışın möhkəmlənməsi, eyni zamanda dini xurafat, fanatizm, radikalizm və ekstremizmin, dini zəmində qarşıdurma və ayrı-seçkilik hallarının, digər mənfi təzahürlərin qarşısının alınması istiqamətində dini maarifləndirmə işi aparır. Dövlət Komitəsinin rəsmi mətbu orqanı olan "Dövlət və Din" ictimai fikir toplusu, "Cəmiyyət və Din" qəzeti nəşr olunur. Qurumun xətti ilə dini maarifləndirmə xarakterli müxtəlif ədəbiyyat çap edilir və televiziya kanallarında yayımlanan dinlə bağlı verilişlərdə (İTV-də "Cəmiyyət və Din", SPACE TV-də "İnam" və Mədəniyyət televiziya kanalında "Haqqın dərgahı") dini maarifləndirmə işi həyata keçirilir. Komitənin rəsmi saytı vasitəsilə (scwra.gov.az) məlumatların açıqlığı və əlçatanlığı təmin edilir, sosial şəbəkələrdəki rəsmi hesablar üzərindən film və videoçarxlar nümayiş olunur.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ölkədəki dini durumla bağlı təhlillər aparır, dini duruma mənfi təsir edən daxili və xarici faktorları öyrənərək mümkün təhdidlər barədə proqnozlar və təkliflər hazırlayır. Azərbaycanın dövlət-din münasibətləri modeli, tolerantlıq təcrübəsi, dövlət orqanları ilə dini qurumlar arasındakı münasibətlər, dini təhlükəsizlik və s. məsələlərlə bağlı Dövlət Komitəsinin hazırladığı materiallar yerli və xarici KİV-də dərc edilir. Bundan əlavə, Azərbaycan İlahiyyat İnstitutunda çalışan alimlər dünya dinləri, dövlət-din münasibətləri, dinin sosiologiyası və s. haqqında elmi araşdırmalar aparır, yerli və xarici elmi nəşrlərdə çoxsaylı məqalələrlə çıxış edirlər.

*Milli-dini kimliyin qorunması*

Azərbaycan xalqının milli-dini kimliyini qorumaq dini sahədə dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Tarixən milli-dini kimliyin formalaşmasına və möhkəmlənməsinə ölkəmizin yerləşdiyi coğrafi ərazi, xalqımızın milli-mənəvi dəyərləri və adət-ənənələri, dini-etnik tərkibi və s. mühüm təsir göstərmişdir. Məlumdur ki, milli-dini kimlik müxtəlif komponentlərdən ibarətdir. Onun birinci komponentinə keçmiş, indi və gələcək arasındakı varislik prinsipi daxildir. İkinci komponenti mənəvi-əxlaqi dəyərlər təşkil edir. Üçüncü komponent isə özündə milli-dini inkişafa dair baxışları ehtiva edir.

Müasir dövrdə qloballaşmanın milli-dini kimliyə təsirinin öyrənilməsi aktualıq kəsb edir və bu məsələyə dair müxtəlif yanaşmalar mövcuddur. Bir qrup mütəxəssis hesab edir ki, qloballaşma milli-dini kimliyə və yaxud özünəməxsusluğa mənfi təsir göstərir. Digər mövqeyə görə, qloballaşma milli-dini kimliyə siyasi-ideoloji, dini xarakterli çətinliklər törətməyə çalışsa da, bu əks nəticə verir – xarici təsirlərə müdafiə reaksiyası kimi milli-dini özünüdərk güclənir.

Qloballaşma tərəfdarlarının fikrincə, milli-dini kimliyin müxtəlif təsirlərə məruz qalması qaçılmazdır. Çünki mili-dini kimlik keçmiş dəyərləri qoruyub saxlamağa çalışmaqla, qlobal kimliyin formalaşmasına çətinliklər yaradır və cəmiyyətdə mənəvi yeniləşmələrin qarşısını

alır. Qloballaşmaya əks mövqe tutanlar isə bildirirlər ki, qloballaşma milli-dini kimliyə və özünüdərkə mənfi təsir göstərir. Qeyd edilir ki, müxtəlif xalqların milli-dini kimliyini süni şəkildə eyni çərçivəyə salmaq milli-mədəni və dini-etnik problemlərə gətirib çıxara bilər. Mütəxəssislərin fikrincə, qloballaşmanın dünyada yaratdığı paradoksallıq bundan ibarətdir ki, o, nə qədər güclüdürsə, milli ideyaya bağlılıq möhkəmlənir və milli-mədəni ənənələrə qayıdış sürətlənir. Qloballaşma milli-mənəvi dəyərlərin qorunması üçün müəyyən çətinliklər yaratsa da, dolayısı yolla milli-dini kimliklə bağlı dərketməni fəallaşdırır.

Ümumdünya tarixindən məlumdur ki, milli-dini kimliklə uzlaşmayan, hətta bəzən ona zidd olan mənfi təsirlər dini-etnik zəmində problemlərin yaranmasına gətirib çıxarır. Dünya xalqlarının milli-dini kimliyini, mənəvi irsini, adət-ənənələrini süni şəkildə standartlaşdırmaq tolerantlığın və multikulturalizmin mahiyyəti ilə ziddiyyət təşkil edir. Dini-mədəni müxtəlifliyin əhəmiyyətinin azaldılması və hansısa mücərrəd ümumi dəyərlər şablonun yaradılması cəhdləri dünyada birmənalı qarşılanmır ki, bu da təsadüfi deyil. Çünki multikulturalizmin və tolerantlığın əsas xüsusiyyəti xalqların milli-dini kimliyinə hörmət etməkdən və dini-etnik müxtəlifliyə dözümlü yanaşmaqdan ibarədir.

Prezident İlham Əliyevin siyasətində müasir dövrün çağırışları ilə xalqımızın milli-dini kimliyinin mahiyyətindən irəli gələn tələblərin uzlaşdırılması mühüm yer tutur. Bu sahədə siyasət aparılarkən qloballaşma ilə milli-dini kimlik arasındakı qarşılıqlı təsirə mühüm diqqət yetirilir. Belə ki, milli-dini kimlik ölkəmizin davamlı inkişafında və onun dünya birliyində böyük nüfuz qazanmasında əhəmiyyətli rol oynamaqla yanaşı, həm də dini şüurun məzmununa ciddi təsir göstərir, özündə dünyəvi dövlət-din münasibətləri modeli ilə bağlı baxışları ehtiva edir.

*Tolerant mühit və dinlərarası həmrəylik*

Dini dözümlülük tarixən Azərbaycanda inkişaf edərək xalqımızın həyat tərzinə çevrilmişdir. Şərqlə Qərbin qovuşağında yerləşən ölkəmiz tolerantlığın inkişafına böyük töhfələr verir. Azərbaycandakı dini müxtəliflik və dinlərarası dialoq tolerantlığı səciyyələndirən əsas xüsusiyyətlərdəndir. Ölkəmizin ərazisində yaşayan müxtəlif millətlər dini dözümlülük şəraitində özlərinin dini dəyərlərini qoruyub saxlayır. Dinlərarası həmrəyliyik dini konfessiyalar arasında qarşılıqlı eimadı gücləndirir.

Azərbaycan Respublikasının Konstitusiyası, "Dini etiqad azadlığı haqqında" Qanun və digər normativ hüquqi aktlar dini müxtəlifliyin və tolerantlığın təmin edilməsinin hüquqi əsaslarını müəyyənləşdirir. Müxtəlif millətlərin, etnik qrupların və dini konfessiyaların dini-mədəni dəyərlərinin qorunub saxlanılması dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Ölkəmizdəki tolerant mühit dini münasibətlərin demokratik prinsiplər əsasında inkişafı üçün böyük əhəmiyyət daşıyır. Prezident İlham Əliyev ölkəmizin təşəbbüsü ilə multikulturalizmin inkişafına və tolerant dəyərlərin qorunmasına həsr olunan beynəlxalq tədbirlərin Azərbaycanda keçirilməsini yüksək qiymətləndirmişdir: "**Bu təşəbbüs nəticəsində müxtəlif görüşlər, tədbirlər keçirilibdir ki, bütün bunların bir məqsədi var – sivilizasiyalararası, dinlərarası**

**dialoq dərinləşsin, güclənsin, dünyada risklər azalsın, ayrı-seçkilik, ksenofobiya hallarına düzgün qiymət verilsin və bu təhlükəli meyllərin qarşısı alınsın".**

Azərbaycanda dini dözümlülük mədəniyyətinin inkişafında Heydər Əliyev Fondunun fəaliyyəti böyük əhəmiyyət daşıyır. Fond həyata keçirdiyi layihələrlə humanizm, dini həmrəylik və dözümlülük kimi bəşəri dəyərlərin təşviqi istiqamətində mühüm işlər görür. Fondun uğurla reallaşdırdığı "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində ölkədəki məscidlər, kilsələr və sinaqoqlarda təmir-bərpa işləri aparılır. Bu sahədə Heydər Əliyev Fondunun gördüyü işlər yalnız Azərbaycanı deyil, xarici ölkələri də əhatə edir.

Dini dözümlülük dini müxtəlifliyi qoruyan və dinlərarası dialoqu genişləndirən mühüm vasitələrdən biridir. Bununla bağlı olaraq Prezident İlham Əliyev bildirib: **"Azərbaycanda bütün xalqların, dinlərin nümayəndələri çox rahat, bir ailə kimi yaşayırlar. Bu siyasət dünyaya lazımdır. Çünki bu gün dinlərarası məsələlər getdikcə narahatlıq doğurur. Toqquşmalar, anlaşılmazlıq, ayrı-seçkilik, ksenofobiya – bütün bunları biz dünyada görürük. Biz öz siyasətimizi ortaya qoyuruq, öz nümunəmizi göstəririk".** Azərbaycanda mövcud olan tolerant mühitin və dini həmrəyliyin əhəmiyyəti özünü 44 günlük Vətən müharibəsində bir daha sübut etdi. Həmin dövrdə müxtəlif dinlərə etiqad edən ölkə vətəndaşları vahid amal uğrunda birləşib, Azərbaycanın ərazi bütövlüyünün bərpası yolunda həmrəylik nümayiş etdirdilər. Onların Vətən müharibəsində döyüşlərdə fəal şəkildə iştirakı ölkəmizdə yaşayan müxtəlif dini etiqadların nümayəndələrinin azərbaycançılıq məfkurəsi ətrafında sıx birləşdiyinin ifadəsidir.

*Dinlərarası dialoqun inkişafı*

Dinlərarası dialoq cəmiyyətdə sabitləşdirici faktor rolunu oynayır. Bu dialoq zamanı insanlar özlərinin dini-mədəni təcrübəsini, tələbatlarını və arzularını bölüşür, mənəvi-əxlaqi dəyərlər zənginləşir. Dinlərarası dialoq müxtəlif dinlərin nümayəndələri arasında dini həmrəylik yaradan mühüm vasitələrdən biridir. Elmi nəşrlərdə və beynəlxalq təşkilatların materiallarında "dinlərarası dialoq" ifadəsi müxtəlif aspektlərdən izah edilir. Hesab olunur ki, bu dialoq öz mahiyyətinə görə: dinlərarası əlaqələrin açıqlığına, dini müxtəlifliyə, tolerant dəyərlərə əsaslanan sosial prosesdir; tolerant şəraitdə dini-mədəni qarşılıqlı təsiri ifadə edən sosio-mədəni praktikadır; dərk edilmiş və məqsədyönlü fəaliyyətə söykənən, müxtəlif dini dünyagörüşü olan insanlar arasında tolerant münasibətləri təmin edən strategiyadır; dini ünsiyyət formasıdır və s.

Dinlərarası dialoq mütərəqqi xarakter daşıyan bütün dini dəyərlərə hörmətlə yanaşmaq deməkdir. Azərbaycan dünyada dinlərarası dialoqun inkişaf etdiyi məkan kimi tanınır. Prezident İlham Əliyevin dinlərarası dialoqla bağlı apardığı siyasətə görə, müxtəlif dini ənənələrə bir-birindən təcrid olunmuş şəkildə baxıla bilməz. Ona görə də dini konfessiyalar dövlət qurumları və vətəndaş cəmiyyəti institutları ilə yanaşı, bir-birləri ilə sıx əməkdaşlıq etməlidir. Müasir dövrdə bəşəriyyəti narahat edən qlobal problemlərin aradan qaldırılması üçün dinlərarası dialoqun genişləndirilməsi xüsusi əhəmiyyət daşıyır. Bu dialoqun möhkəmlənməsində ölkəmizin maddi-mədəni potensialı, əlverişli coğrafi mövqeyi və dini-etnik mühiti vacib rol oynayır.

Prezident İlham Əliyev xalqımızın dinlərarası dialoqa daim böyük dəyər verdiyini bildirərək deyib: **"Bu gün ölkəmizdə yaşayan bütün xalqlar, bütün konfessiyaların nümayəndələri özlərini rahat, ölkəmizin layiqli vətəndaşları kimi hiss edir və həqiqətən də belədir. Mən dəfələrlə demişəm, bizim müxtəlifliyimiz bizim sərvətimizdir. Azərbaycanın etnik və dini müxtəlifliyi bizim böyük sərvətimizdir, biz onu çox yüksək qiymətləndiririk və bu müsbət meyllərin möhkəmlənməsi üçün nə lazımdırsa edirik".**

Müasir dövrdə dinlərarası dialoq həm də beynəlxalq münasibətlərə təsir göstərən ciddi faktorlardan biridir. Ona görə də Azərbaycan dövlətinin siyasətində dinlərarası dialoqun yalnız milli çərçivədə deyil, həm də beynəlxalq səviyyədə genişləndirilməsi nəzərdə tutulur. Bu siyasətə əsasən, dünyada sülhün və təhlükəsizliyin təmin olunmasını dinlərarası dialoqdan kənar təsəvvür etmək mümkün deyil. Azərbaycan dövlətinin təşəbbüsü ilə keçirilən beynəlxalq tədbirlərdə (Bakı Humanitar Forumu, Dünya Mədəniyyətlərarası Dialoq Forumu, BMT Sivilizasiyalar Alyansının Qlobal Forumu, Dünya dini liderlərinin Sammiti və s.) çıxış edən dünyanın tanınmış dövlət xadimləri, Nobel mükafatı laureatları, nüfuzlu beynəlxalq təşkilatların rəhbərləri, dini liderlər və b. Azərbaycanın dövlət-din münasibətləri modelini, dinlərarası və mədəniyyətlərarası dialoqa verdiyi töhfələri yüksək qiymətləndirir, bunun dünya ölkələri üçün böyük örnək olduğunu bildirirlər.

*Dini fanatizmə və ekstremizmə qarşı mübarizə: keçilmiş yol və mövcud vəziyyət*

Dini sahədə dövlət siyasətində fanatizmə və radikalizmə, onların bütün təzahürlərinə qarşı mübarizə mühüm yer tutur. Vicdan və dini etiqad azadlığının, dini təhlükəsizliyin təmin edilməsi və dünyəvi dövlət-din münasibətləri modelinin möhkəmlənməsi istiqamətində aparılan dövlət siyasətinin uğurlu nəticəsidir ki, Azərbaycanda dini durum sabitdir. Dövlətin konstitusiya quruluşunun, o cümlədən onun dünyəvi xarakterinin zorla dəyişdirilməsini təbliğ edən radikal dini ideologiyaların ölkəmizdə təbliği qanunla qadağandır. Dini fanatizmə və ekstremizmə qarşı mübarizədə dövlət siyasətinin məqsədləri aşağıdakılardır:

- dini sahədə təhlükəsizliyin təmin edilməsi;
- dini ekstremist fəaliyyətin aşkarlanması, qarşısının alınması və dini ekstremizm nəticəsində gözlənilən zərərin minimuma endirilməsi;
- dini ekstremizmin yaranması və dini ekstremist fəaliyyətin həyata keçirilməsi səbəblərinin və şəraitinin, habelə dini ekstremizmin maliyyələşdirilməsi hallarının aşkar və ləğv edilməsi və s.

Dini fanatizmə və ekstremizmə qarşı daha effektiv mübarizə məqsədilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə müvafiq dövlət hakimiyyəti orqanları birgə tədbirlər planları hazırlayaraq həyata keçirirlər. Ötən illər ərzində dindən siyasi məqsədlərə nail olmaq vasitəsi kimi istifadə etmək cəhdlərinin, habelə din pərdəsi altında dövlətin dünyəviliyinə zidd olan əməllərin qarşısı qətiyyətlə alınmışdır. Hazırda ölkədə dini sabitliyin qorunub saxlanılması və dini təhlükəsizliyə təhdidlərin qarşısının alınması Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və digər dövlət orqanlarının qarşısında dayanan əsas vəzifələrdən biridir.

2010-cu və 2019-cu illərdə Dünya dini liderlərinin Bakı şəhərində keçirilmiş sammitlərində müzakirələr zamanı belə bir ümumi rəy ifadə olunmuşdur ki, Azərbaycanın dövlət-din münasibətləri modeli vicdan və dini etiqad azadlığının təmin edilməsi, dini müxtəlifliyin qorunması və dinlərarası dialoqun möhkəmlənməsində böyük əhəmiyyət daşıyır. Dini müxtəliflik Azərbaycan cəmiyyətinin harmonik inkişafını təmin edən mənəvi dəyərlərdən biridir. Bu sahədə dövlət siyasəti aparılarkən Azərbaycan Respublikasının Konstitusiyasında və digər normativ-hüquqi aktlarında, müvafiq beynəlxalq konvensiyalarda öz əksini tapmış prinsiplər və dəyərlər əsas götürülür. Bu isə dini fanatizm və ekstremizm kimi zərərli meyllərin Azərbaycanda özünə yer tapmasının qarşısını alır. Qeyd edək ki, həmin tədbirlərin Bakı şəhərində təşkili heç də təsadüfi deyildi. Çünki əsrlərdir ki, Azərbaycanda müxtəlif millətlərin və dinlərin nümayəndələri həmrəylik şəraitində yaşayırlar. Sammitlərdə çıxış edən dünya dini liderləri bildirmişlər ki, Azərbaycanın bu cür mötəbər tədbirlərə ev sahibliyi etməsi onun qlobal səviyyədə dinlərarası həmrəyliyə böyük töhfələr verdiyinin ifadəsidir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi dini fanatizmə və ekstremizmə qarşı mübarizə çərçivəsində zərərli dini-ideoloji təsirlərin, dinlərarası düşmənçilik və nifaq yaratmaq meyllərinin qarşısını almaq məqsədilə dini təyinatlı ədəbiyyatın (kağız və elektron daşıyıcılarında), audio və video materialların, dini məzmunlu başqa məlumat materiallarının yayılmasına nəzarəti həyata keçirir. Eyni zamanda, dini təyinatlı ədəbiyyatın (kağız və elektron daşıyıcılarında), audio və video materialların, dini məzmunlu başqa məlumat materiallarının nəzarət markası ilə markalanmasını təmin edir.

Yuxarıda göstərilənlərdən bir daha aydın olur ki, Azərbaycan Respublikasının din sahəsində dövlət siyasəti mükəmməl elmi-nəzəri bazaya söykənir. Bu siyasətin prinsipləri və vəzifələri, dövlət-din münasibətləri modelinin əsasları və dini münasibətlərin tənzimlənməsi Azərbaycan Respublikasının Konstitusiyasına və digər qanunvericilik aktlarına uyğun olaraq müəyyən edilir. Milli maraqlara əsaslanmaq, rasionallıq və məqsədyönlülük dini sahədə dövlət siyasətini səciyyələndirən əsas xüsusiyyətlərdir. Azərbaycanda vicdan azadlığının və dini müxtəlifliyin təmin olunması, dövlət-din münasibətləri modelinin möhkəmlənməsi, dinlərarası dialoqun inkişafı və dini təhlükəsizliyə təhdidlərin qarşısının alınması nəticəsində dini sabitlik qorunur.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

# DİDAKTİK XÜSUSİYYƏTİNƏ GÖRƏ TÜRKDİLLİ MƏQTƏLLƏR: "MƏQTƏLİ-HÜSEYN"LƏRDƏ İDEAL MÜSƏLMAN QADIN KİMİ HƏZRƏT FATİMƏ

***Elnurə ƏZİZOVA,***
*Azərbaycan İlahiyyat İnstitutu,*
*Dinşünaslıq kafedrası, i.f.d., dos.,*
*elnuraazizova@ait.edu.az*

***AÇAR SÖZLƏR:*** *dini-ədəbi əsərlər, Məqtəli-Hüseyn, türkcə məqtəllər, İslamda qadın, Həzrət Fatimə.*

***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Религиозно-литературные произведения, Мактал аль-Хусейны, Турецкие магталы, женщина в исламе, Фатима Захра.*

***KEY WORDS:*** *Religious-literary works, Maqtal-i Husain, Turkish maqtals, woman in Islam, Fatimah al-Zahra.*

## Giriş

Hicri 61-ci (miladi 680-ci) ildə baş vermiş Kərbəla hadisəsinin tarixi perspektivdən təsvirinə həsr olunmuş ilk ərəbcə əsərlər olan "Məqtəlül-Hüseyn"lərin tədqiqi göstərir ki, haqqında danışılan tarixi şəxsiyyətlər, əsasən, sözügedən hadisədə iştirak etmiş şəxslərdən ibarətdir. Həmin şəxsiyyətlər arasında Əhli-beyt qadınlarından, xüsusilə Zeynəb, Ruqiyyə, Ümmü Külsüm, Sükeynənin adlarına rast gəlinir [1, s.129-133, 154-155; 2, c.5, s.446-447, 452, 456-457; 3, s.115-116; 4, s.140-141, 147, 151, 167-169, 181, 220; 5, s.49, 69 vd.]. Ərəbcə nümunələrindən fərqli olaraq, bəzi türkdilli məqtəllərdə isə sadəcə Kərbəla hadisəsində iştirak edənlər deyil, sözügedən hadisədən çox əvvəl vəfat etmiş Əhli-beyt qadınları da əsərin məzmununa daxil edilmişdir. Həmin məqtəllərdə haqqında ən geniş məlumat verilən Əhli-beyt qadını Həzrət Fatimədir.

Kərbəla hadisəsindən təqribən yarım əsr əvvəl vəfat etməsinə baxmayaraq, Həzrət Fatimə ilə əlaqəli türkdilli məqtəllərdə geniş məlumata rast gəlinməsinin əsas səbəbi sözügedən məqtəllərdəki üslub fərqliliyidir. Belə ki, ilk nümunələri İslam tarixçiliyi metodologiyası əsas götürülərək Kərbəla hadisəsinin təsvirinə həsr olunmuş ərəbcə məqtəllərdən fərqli olaraq, həmin türkdilli məqtəllərin məzmunu zaman və məkan cəhətdən çox genişləndirilib. Bu nöqteyi-nəzərdən baxdıqda, türkdilli məqtəllərin məzmun və üslubuna görə əsasən iki kateqoriyaya ayrıldığını demək mümkündür. Birinci kateqoriyaya türkdilli məqtəllərin bilinən ilk nümunəsi hesab edilən Yusifi-Məddahın (XIV əsr) "Məqtəli-Hüseyn"i nümunəsində yazılan məqtəlləri aid

etmək olar. İkinci qrupu isə iranlı sufi şair Hüseyn Vaizi-Kaşifinin (v. 910/1504-1505) "Rövzətüş-şühəda" adlı farsca məqtəlini mənbə götürərək, onun tərcüməsi və yaxud təsirində yazılmış məqtəllərin təşkil etdiyini deyə bilərik [6, s.274]. Öz növbəsində, Yusifi-Məddahın məqtəlinin ərəbdilli məqtəl ədəbiyyatının ən məşhur nümunəsi olan Əməvi-Abbasi dövrü tarixçisi Əbu Mixnəf Lut ibn Yəhyanın (v. 157/773-74) "Məqtəlül-Hüseyn"i nümunəsində yazıldığını qeyd etmək lazımdır. Beləliklə, bəzi istisnaları mövcud olmaqla birlikdə, türksoylu xalqların məqtəl ədəbiyyatının üslub və məzmun baxımından əsasən iki mənbədən - Əbu Mixnəfin və Hüseyn Vaizi-Kaşifinin məqtəlindən təsirləndiyi irəli sürülə bilər. Birinci qrupa Yusifi-Məddah, Yəhya ibn Bəxşi, Novruz ibn İsa, Hacı Nurəddin Əfəndi və s. müəlliflərin məqtəllərini, ikinci qrupa isə Məhəmməd ibn Hüseyn Nişatinin, Məhəmməd Füzulinin, Aşiq Çələbinin, Sabir Sayqalinin məqtəllərini aid etmək olar.

Bir qayda olaraq "qisəsi-ənbiya"ya (peyğəmbərlər tarixinə) aid mövzularla başlayan ikinci qrup məqtəllərdə İslam tarixinin Kərbəlaya qədərki müxtəlif hadisələrindən də bəhs olunur. Həmin məqtəllərdə "bəlanın ən ağırının ilk növbədə peyğəmbərlərə, sonra övliyalara, daha sonra isə dərəcələrinə görə onlara yaxın olanlara baş verdiyi" [7, s.106-107; 8, s.31-32; 9, s.26-27; 10, s.145; 11, s.29-30] ideyası ətrafında Adəm peyğəmbərdən (ə) Həzrət Məhəmmədə (s) qədər Allahın seçilmiş bəndələri olaraq peyğəmbərlərin müxtəlif bəla və müsibətlərlə qarşılaşdıqlarına dair nümunələr verilir [8, s.39-189; 9, s.33-99; 10, s.156-211; 12, s.24-182]. Sözügedən məqtəllərdə Məhəmməd peyğəmbərin (s) Əhli-beytindən qızı Fatimə, kürəkəni Əli ibn Əbu Talib, nəvələri Həsən və Hüseynə həsr olunmuş müstəqil fəsilləri isə onların avtobioqrafiyasından daha çox, qarşılaşdıqları çətinliklərin təsviri kimi dəyərləndirmək mümkündür. Anadan olmasından vəfatına qədər həyatının müxtəlif mərhələlərinə müstəqil bir fəsildə toxunulan Həzrət Fatimə məqtəllərdə haqqında ən geniş məlumat verilən Əhli-beyt qadınıdır. Həzrət Fatimə nümunəvi müsəlman qadın, xüsusilə, Həzrət Peyğəmbərin (s) sevimli qızı və cənnət qadınlarının seyyidəsi kimi mövludlar başda olmaq üzrə [13, s.227-246], klassik türk-İslam ədəbiyyatında geniş təsvir olunub [14, s.203-226]. Həzrət Fatimədən danışan əsərlər arasında məqtəllər xüsusi əhəmiyyət kəsb etməklə yanaşı, bu mövzu kifayət qədər tədqiq olunmayıb.

Yuxarıda qeyd olunduğu kimi, məqtəlin əsas mövzusu olan Kərbəla hadisəsindən təqribən əlli il əvvəl vəfat edən Həzrət Fatimə sözügedən hadisənin iştirakçıları tərəfindən də tez-tez anılan şəxslərdəndir. Həm Həzrət Hüseyn, həm onun oğlu imam Zeynəlabidin, həm də hadisənin digər iştirakçılarının dilindən Həzrət Peyğəmbərin həyat yoldaşı Xədicə bint Xüveylid, qızı Fatimə və kürəkəni Əli ibn Əbu Talibin adı qürur mənbəyi kimi çəkilir [15, s.484, 500; 16, s.263, 295, 352, 386, 415-416; 17, s.249; 8, s.279, 591; 9, s.179-180, 365; 10, s.296, 502]. İslamaqədərki ərəb cəmiyyətində qadınların ictimai mövqeyi diqqətə alındıqda, Həzrət Fatimənin iftixar mənbəyi kimi qeyd olunması onun timsalında cəmiyyətdə qadının dəyişdirilən mövqeyini göstərməsi baxımından mühümdür.

Məqtəllərdə Həzrət Fatimə vəfatından illər sonra baş vermiş bir hadisədə evlilik namizədləri arasından Həzrət Hüseynin seçilməsinin səbəbi kimi göstərilir. "Rövzətüş-şühəda" təsirindəki türkdilli məqtəllərdə Həzrət Hüseyn-Yezid arasındakı ədavətin şəxsi səbəbi kimi

göstərilən bu hadisəyə görə, Əbu Musa əl-Əşəri (v. 42/662-663) Abdullah ibn Zübeyrin gözəlliyi ilə məşhur sabiq həyat yoldaşına Yezid ibn Müaviyə, Abdullah ibn Ömər və Hüseyn ibn Əlinin evlilik təklifini çatdırır. Namizədlərin üstünlüklərini vurğulayan Əbu Musa Yezidin mal-mülkünə, İbn Ömərin xarici görünüşünə, Həzrət Hüseynin isə axirətdə qurtuluşa, eyni zamanda Fatimeyi-Zəhranın (və Xədiceyi-Kübranın) gəlini olma şərəfinə yaxınlaşdırdığna görə üstün olduğunu bildirir. Beləliklə, sözügedən qadın üçün dünyəvi üstünlükləri deyil, üxrəvi səadətə yaxınlaşdırıcı kimliyi və Həzrət Fatimə ilə qohumluğu Həzrət Hüseynin seçilməsini təyin edən əsas amillər olur [8, s.322-324; 9, s.215-216; 10, s.323; 15, s.261-263].

Məqtəllərdə Kərbəla hadisəsində qarşı tərəfi təmsil edən Yezid ibn Müaviyənin yaxın ətrafındakıların da Həzrət Fatiməyə xüsusi hörmət göstərdiyindən danışılır. Əlaqədar qissəyə görə, Əhli-beyt qadınları Dəməşqdə Yezidin sarayına gətirildikləri zaman saray təlxəyi müharibə qəniməti hesab etdiyi qadınlardan birini, Ümmü Külsümü ona bağışlamasını Yeziddən istəyir. Ümmü Külsümün əlindən tutarkən onun Həzrət Fatimənin ailəsinin üzvü olduğunu öyrənən təlxək, öz hərəkətindən çox peşman olur, Ümmü Külsümə toxunan əlini xəncərlə kəsərək əfv diləyir və insanlardan qaçaraq qeybə çəkilir [17, s.301-304; 18, s.173-174; 16, s.405-406].

Həzrət Fatimənin həyatı məqtəllərdə sadəcə tarixi-bioqrafik məlumatlar əsasında təqdim olunmur. Onun doğumu [8, s.191; 9, s.121-122; 10, s.245-246], kiçik yaşlarında Qüreyş qadınlarının dəvəti ilə Məkkədə toy şənliyində iştirak etməsi [8, s.199-204; 9, s.127-130; 10, s.250-252], nikahlanması [8, s.205-206; 9, s.131-133; 10, s.253-254], ailə həyatında [8, s.212-215; 9, s.134-137; 10, s.257] və vəfatı əsnasında baş verən digər hadisələr [8, s.225-226; 9, s.144; 10, s.262] fonunda həyatının mühüm mərhələləri metafizik aləmlə əlaqələndirilir. Bundan əlavə, məqtəllərdə Həzrət Fatimənin adı İslam təsəvvüf düşüncəsinə görə Allahın razı olduğu, "nəfsi-mərziyə" mövqeyinə yüksəlmiş Həzrət Məryəm, Asiyə və Xədicə kimi kamil qadınlarla birlikdə qeyd olunur. Bu təsvirə görə, sözügedən kamil qadınlar ruhani varlıqlar olaraq Kufədə Şimrin/Xəvlinin evində oğlunun mübarək başını ziyarətə gələn Həzrət Fatiməni müşayiət edirlər [17, s.270-271; 8, s.548-550; 9, s.344-345; 10, s.485-486; 16, s.375-376].

Daha əvvəl qeyd olunduğu kimi, xüsusilə "Rövzətüş-şühəda" təsirindəki türkdilli məqtəllərdə müstəqil bir fəsil ayrılmış yeganə Əhli-beyt qadını kimi Həzrət Fatimənin həyatı və nümunəvi şəxsiyyəti ilə əlaqəli məlumatlar geniş və təfsilatlıdır. Bu məlumatlar bir tərəfdən Orta Asiyadan Anadoluya qədər "Məqtəli-Hüseyn"lərin oxunduğu türksoylu xalqlar arasında "ata-qız", "ər-arvad" və "ana-övlad" münasibətləri çərçivəsində Həzrət Fatimə təsəvvürünün, digər tərəfdən isə Həzrət Fatimənin timsalında sözügedən sosial rollarda müsəlman qadının mövqeyinin formalaşmasında mühüm rol oynamışdır.

### 1. Bir qız övladı olaraq Həzrət Fatimə

Həzrət Fatimə Məhəmməd peyğəmbərin məqtəllərdə haqqında geniş məlumat verilən yeganə övladıdır. Həzrət Peyğəmbərin Xədicə bint Xüveyliddən dünyaya gələn digər övladlarının məqtəllərdə sadəcə adları qeyd olunur [9, s.121; 10, s.245], qıbti mənşəli Mariyadan dünyaya gəlib qısa müddət sonra vəfat edən oğlu İbahimlə əlaqəli çox qısa məlumat verilir [8,

s.157-158; 9, s.98-99; 10, s.229]. Bu da xüsusilə ata-qız münasibətləri çərçivəsində Həzrət Peyğəmbər (s) təsəvvürünün formalaşmasında onun Həzrət Fatimə ilə olan münasibətlərinə dair məlumatların böyük önəm daşıdığını göstərir. Ana bətninə düşdüyü andan etibarən metafizik aləmlə əlaqələndirilən Həzrət Fatimənin doğumu öncədən Həzrət Peyğəmbərə (s) bildirilir. Məqtəllərdəki bu qissəyə görə, Məhəmməd peyğəmbər (s) həyat yoldaşı Xədicəyə Fatimə adlı bir qız övladı dünyaya gətirəcəyinin, onun pak nəslinin qiyamətədək davam edəcəyinin müjdəsini verir [8, s.191; 9, s.121; 10, s.245]. Qissə metafizik aləmdən göndərilən yardımçılarla Həzrət Xədicənin övladını dünyaya gətirməsinin təsviri ilə davam edir. Belə ki, Fatimənin dünyaya gəlişi ərəfəsində öz qohumlarının köməklik göstərməkdən imtina etdiyi Xədicə ilahi lütf olaraq fövqəltəbii güclər tərəfindən dəstəklənir və cənnət qadınlarının ən fəzilətliləri – İsa peyğəmbərin (ə) anası Məryəm, Musa peyğəmbərin (ə) bacısı Ümmü Külsüm, İbrahim peyğəmbərin (ə) həyat yoldaşı Sara və Fironun həyat yoldaşı Asiyə – onun köməyinə göndərilir. Doğumundan sonra cənnət huriləri tərəfindən yuyularaq qundaqlanan Həzrət Fatimə Həzrət Peyğəmbərə (s) təqdim olunur. Qızına Fatimə adını verən peyğəmbər ona olan sevgisinə görə "Ümmü əbihi" (Atasının anası) deyə müraciət edir. Bundan əlavə, məqtəllərdə Həzrət Fatimə "Raziyə", "Mərziyə", "Meymunə", "Zəkiyyə", "Bətül", "Əzra", "Zəhra" adları ilə də ucaldılır [8, s.191-192; 9, s.121-122; 10, s.245-246].

Həzrət Fatimə məqtəllərdə Məhəmməd peyğəmbərə (s) ən çox bənzəyən və onun ən çox sevdiyi şəxs olaraq qeyd olunur. Həzrət Peyğəmbərin (s) həyat yoldaşı Aişənin təsvir etdiyinə görə, görünüşünə, oturuşuna-duruşuna və daxili aləminə görə Həzrət Fatimə qədər Allah Rəsuluna (s) bənzəyən başqa bir şəxs yox idi [8, s.173; 10, s.246]. Məqtəllərdə keçən rəvayətə əsasən, Allah Rəsulunun (s) ən çox kimi sevdiyini soruşanlara Həzrət Aişənin cavabı: "kişilərdən Əli, qadınlardan Fatimə" olmuşdur [8, s.192; 9, s.122; 10, s.246].

Məqtəllərdə Həzrət Fatimənin erkən yaşlarında itirdiyi anasının vəsiyyətində xüsusi şəkildə vurğuladığı kimi [8, s.135-137; 12, s.193-196] atasının qayğı və sevgisi ilə böyüdüyü qeyd olunur. Həzrət Peyğəmbərin (s) "atasının canı" [8, s.201], "göz nuru", "ciyərguşə" [9, s. 127-128] deyə xitab etdiyi qızına olan sevgi və qayğısı içində yaşadığı cəmiyyətin qadına baxışı əks etdirən ictimai şüurunu alt-üst edəcək qədər böyükdür. Azyaşlı Fatimə atasının həmşəhərliləri tərəfindən məruz qaldığı təqib və təzyiqlərin şahidi, eyni zamanda həmin çətin günlərində onun mənəvi dəstəyi olur. Həzrət Peyğəmbər (s) hicrətdən əvvəl Kəbə ətrafında ibadət etmək istədiyi zaman Qüreyşin maneəsi ilə qarşılaşarkən [8, s.128; 9, s.84; 10, s.217], Uhud döyüşündə onun öldürüldüyü xəbəri Mədinəyə çatarkən [8, s.145-147; 9, s.93-94; 10, s.224-225; 12, s.171] Həzrət Fatimə atasının adlandırdığı kimi, "atasının anası" qədər narahatlıq keçirən, atasını qayğı və şəfqətilə əhatə edən qız övladı kimi təqdim olunur.

Həzrət Fatimənin atasına olan bağlılığı məqtəllərdə müxtəlif hadisələr fonunda təsvir olunur. Məsələn, Həzrət Əli ilə nikahı bağlanıb, ata evini tərk etdiyi zaman ağlayan Həzrət Fatiməni "Ey ciyərguşə, ağlama, səni ən dəyərli və ən elmli bir insanla, ən böyük dəstəkçim və ən dəyərli ənsarımla, dünyanın sultanı, axirətin seyyidi ilə evləndirmişəm" sözləri ilə təsəlli edən Həzrət Peyğəmbərə (s) "ey Allah Rəsulu, mənim Əli barəsində bir qayğım yoxdur, sənin

xidmətindən ayrıldığım üçün ağlayıram" sözləri ilə bir qız övladı kimi atasına bağlılığını nümayiş etdirir [8, s.208-209; 9, s.132]. Həzrət Fatimənin atasına olan sevgi və bağlılığını göstərən ən təsirli səhnə Allah Rəsulunun (s) vəfatı hadisəsidir. Məqtəllərə görə, ölüm yatağındakı Həzrət Peyğəmbərin (s) yanından ayrılmayan Həzrət Fatimə yaxınlaşan ayrılıq səbəbilə daim ağlayır. Xəstəliyinin şiddətinə baxmayaraq, Həzrət Peyğəmbər (s) son anlarında qızına təsəlli verməyi bir ata borcu olaraq görür. Həzrət Aişədən nəql olunan rəvayətə görə, xəstə yatağında ağlayan Həzrət Fatimə atasının sözlərilə təsəlli tapır, üzü gülür. Həzrət Fatimə əhval-ruhiyyəsindəki ani dəyişikliyin səbəbini həmin an bildirməsə də, daha sonra Həzrət Peyğəmbərin (s) bu ayrılığın uzun sürməyəcəyini, ailəsindən ən erkən qovuşacaq şəxsin qızı olacağını xəbər verərək ona təsəlli verdiyini nəql edir [8, s.173-174; 9, s.110; 10, s.238-239]. Məqtəllərdə verilən məlumata görə, Həzrət Peyğəmbərin (s) vəfatından bir neçə ay sonra vəfat edən Həzrət Fatimə qısa sürən bu ayrılıq günlərini də ağlayaraq keçirir. Həzrət Əli həyat yoldaşının başqalarının eşitməyəcəyi qədər astadan ağlamasını xahiş edir. Həzrət Fatimənin gecə-gündüz ağlaması ümumilikdə Mədinə sakinlərinin də dincliyini pozur. Onlar şəhər əhalisinin dincələ bilməsi üçün Həzrət Fatimədən ya gecələr, ya da gündüzlər ağlamasını xahiş edirlər [8, s.217-218; 9, s.137-139; 10, s.259-260]. Sevdiyinin həsrətindən aramsız ağlayan Həzrət Fatimənin vəziyyəti məqtəllərdə üç peyğəmbər və bir Əhli-beyt mənsubu ilə müqayisə olunur: Adəm, Yaqub və Yusif peyğəmbərlər; Həzrət Hüseynin Kərbəladan qurtulan tək oğul övladı Əli ibn Hüseyn Zeynəlabidin [8, s.218; 9,s. 139; 10, s.260].

Yekun olaraq, məqtəllərdə erkən dövr İslam cəmiyyətində "ata-qız" münasibətlərinin fövqündə atasından diqqət və sevgi görən, eyni zamanda erkən yaşlarından tək valideyni kimi atasına dərin məhəbbətlə bağlanan, məşəqqətli zamanlarında onu qayğı və şəfqətlə əhatə edən bir qız övladı olaraq Həzrət Fatimə təsəvvürü yaradılır.

## 2. Bir həyat yoldaşı olaraq Həzrət Fatimə

Həzrət Fatimənin məqtəllərdə ön plana çıxarılan sosial rollarından biri də həyat yoldaşı olmasıdır. Evliliyindən vəfatına qədər ər-arvad münasibətləri çərçivəsində Həzrət Fatimənin nümunəvi müsəlman qadın kimi təqdim olunduğu məqtəllər oxunduğu türk-müsəlman toplumlarında ideal ailə münasibətləri anlayışının formalaşmasında da mühüm rol oynamışdır. Təsadüfi deyil ki, türksoylu toplumlarda ailənin böyükləri evlənən cütlüklərə Əli-Fatimə xoşbəxtliyi arzulayaraq xeyir-dua vermiş, qadınlar yoğurduqları xəmirin, bişirdikləri yeməyin bərəkətli olması, xəstələrin şəfa tapması üçün "əl mənim əlim deyil, Fatimə ananın əlidir" şəklində dualar etmişlər [19, s.479-495; 20, c.12, s.224; 21, s.300; 22, s.28-30].

Yuxarıda qeyd olunduğu kimi, həyatının mühüm mərhələləri metafizik aləmlə əlaqələndirilən Həzrət Fatimənin evliliyi də bu hadisələrdən biridir. Məqtəllərə görə, "ənsar" və "mühacir"lərin məşhur simalarının evlilik təklif etdiyi Həzrət Fatimənin Həzrət Əli ilə nikahı ilahi mənbədən buyurulmuş və mələklərin xeyir-duasıyla bağlanmışdır [8, s.205-207; 9, s.130-131; 10, s.253-254]. Həzrət Fatimə öz dövrünün şərtlərində də mütəvazi sayılan cehizlə ərə getmiş, peyğəmbər qızı olaraq sadə bir həyat yaşamışdır [8, s.208-212; 9, s.132-134; 10, s.255-257].

Məqtəllərdə təsvir olunur ki, Həzrət Fatimənin bir neçə əşyadan ibarət cehizinə görə Qüreyşin nüfuzlu simaları Həzrət Əliyə tənə etmiş, "bizdən qız alsaydın, ömrünün sonuna qədər çatacaq mal-mülk sahibi ola bilərdin" şəklindəki sözlərlə onu qınamışlar [8, s.209; 9, s.132; 10, s.255-256]. Həzrət Fatimənin sadə cehizi nümunəsində məqtəllərdə müsəlman qadının dünya-axirət nemətinə qarşı münasibəti də əks olunur. Hadisə ilə əlaqəli məqtəllərdə Məhəmməd peyğəmbərə (s) aid edilən bir rəvayətdən və qızına böyük bir cehiz, kürəkəninə üzərində qiymətli daşlarla bəzənmiş möhtəşəm bir tac hədiyyə edən Həzrət Süleyman (ə) qissəsindən bəhs olunaraq iki peyğəmbər qarşılaşdırılır. Həmin rəvayətə görə, Həzrət Peyğəmbərin (s) anlatdığı bu qissəni həyat yoldaşından eşidən Həzrət Fatimə yaşadığı müddətcə onu qəlbində niskilə çevirir, ərinin bu xəbəri eşitməyini özünə dərd edir. Həzrət Fatimənin vəfatından sonra Həzrət Əli yuxusunda onu misli-bərabəri görünməmiş, hər cür nemətlərlə bəzədilmiş bir məqamda görür. Həmin məqamda Həzrət Fatimənin xidmətində dayanan isə Süleyman peyğəmbərin (ə) qızıdır [8, s.210-211; 9, s.133-134; 10, s.256]. Bu qissədə qızına verdiyi cehiz və kürəkəninə verdiyi toy hədiyyəsi ilə dastana dönmüş kral-peyğəmbər Həzrət Süleymanla (ə) bir peyğəmbər-dövlət başçısı olaraq qızını sadə bir cehizlə evləndirən Həzrət Məhəmməd (s) müqayisə edilir. Bununla da qəlbində nifaq olanların dedi-qodusuna səbəb olan müvəqqəti dünyəvi nemətlərin yerinə Həzrət Fatimənin axirətin sərhədsiz nemətləri ilə mükafatlandırıldığı təsvir edilir. Beləliklə, məqtəlin oxunduğu cəmiyyətlərdə dünya və axirət nemətləri ilə əlaqəli müsəlman qadınlara mesaj verilir.

Hicrətdən sonra məkkəli müsəlmanların Mədinədə maddi çətinlik çəkməsi Həzrət Fatimənin evlilik həyatı nümunəsində məqtəllərdə də əks olunur. Qızına baş çəkən Allah Rəsulu (s) onun məişət çətinliyi ilə üzləşdiyini müşahidə edir. Bu nümunədə də Həzrət Fatimə halından şikayətçi olmur, əksinə, atasından nümunə götürdüyü sadə həyat tərzini, şükür və qənaətlə bəzədilmiş mənəvi keyfiyyətlərini nümayiş etdirir [8, s.212-215; 9, s.134-136 ; 10, s.256-257]. Əlaqədar rəvayətlərdə Həzrət Peyğəmbərin (s) duası ilə qızı Fatimənin və ailəsinin də ruzi-bərəkətinin artdığından bəhs olunur. Bu rəvayətlər vasitəsilə, eyni zamanda Həzrət Fatimə və Qurani-Kərimdə Tanrının lütfü ilə doydurulan Həzrət Məryəm arasında paralellik qurulur [8, s.215; 9, s.135 ; 10, s.257].

Ailədaxili münasibətlər çərçivəsində məqtəllərdə Həzrət Fatimənin nümunəvi şəxsiyyətinin vurğulandığı başqa bir hadisə isə onun vəfatı ərəfəsində yaşananlardır. Mövzu ilə bağlı rəvayətlərə görə, gördüyü yuxunu yaxında vəfat edəcəyi şəklində yozan Həzrət Fatimə ailəsinin son tədarükünü görür. Həzrət Əli evə gələrək onun xəmir yoğurduğunu, övladlarını yuyundurmaq və paltarları yumaq üçün hazırlaşdığını görür. Həzrət Fatimə bu qədər işi eyni zamanda görməsinin səbəbini soruşan Həzrət Əliyə ayrılıq zamanının gəldiyini, övladlarının bir neçə gün olsa da, çətinlik çəkməmələri üçün hazırlıq görmək istədiyini bildirir [8, s.219-221; 9, s.139-140; 10, s.261]. Bu çərçivədə onun həyat yoldaşına vəsiyyəti də məqtəllərdə Həzrət Fatimə təsəvvürünü formalaşdıran əsas amillərdən biridir.

Həzrət Fatimənin vəfat anı yaxınlaşarkən ərinə vəsiyyət etməsi türkdilli məqtəllər arasında Məhəmməd ibn Hüseyn Nişatinin "Şühədanamə"sində digər məqtəllərlə müqayisədə daha təfsilatlı və canlı təsvir olunur. Ər-arvad münasibətlərinin əsasını meydana gətirən dəyər

və prinsiplərin məcmusu olan bu təsvirə görə, Həzrət Fatimə Həyat yoldaşından xətalarını bağışlamasını, övladlarına yaxşı baxmasını, gecə heç kim görmədən dəfn olunmasını və tez-tez ziyarətinə gəlməsini xahiş edir [8, s.223-224; 9, s.142-143; 10, s.262]. Məqtəllərdə təsvir olunduğuna görə, Həzrət Xədicə də vəfat edərkən Məhəmməd peyğəmbərə (s) buna bənzər bir vəsiyyət etmiş, vəsiyyətində xətalarını bağışlamasını, övladı Fatiməyə yaxşı baxmasını, vəhy aldığı zaman geyindiyi üst geyimi ilə onu kəfənləməsini rica etmişdir [8, s.135-137; 12, s.193-196]. Beləliklə, məqtəllərdə Həzrət Xədicə və Həzrət Fatimənin timsalında bir qadının ömrünün son anlarında ən böyük dünyəvi narahatlığının qüsurlarını bağışlaması üçün əri ilə halallaşması və övladları sarıdan keçirdiyi narahatlıq hissi olduğu anlatılır. Vəsiyyətini yerinə yetirəcəyini vəd edərək halallaşan Həzrət Əlinin Həzrət Fatimənin vəfatından sonra söylədiyi sözlər həyat yoldaşının onun nəzərindəki yerini göstərməsi baxımından mühümdür: “Əhməddən (Həzrət Peyğəmbər) sonra Fatimənin yoxluğunu çəkməyim dostun qalıcı olmadığını göstərir” [8, s.227-228; 9, s.145-146; 10, s.263]. Əsma bint Ümeysdən nəql olunan rəvayətə görə, dünyəvi işlərini tamamladıqdan sonra otağında tənhalığa çəkilən Həzrət Fatimə son dəqiqələrində Peyğəmbər ümmətinə rəhmət etməsi və onlara şəfaətçi olması üçün Allaha dua edir [8, s.226; 9, s.144; 10, s.262]. Beləliklə, məqtəllərdə Həzrət Fatimə öz ailəsindən nigaran qalan bir həyat yoldaşı və ana olmaqla yanaşı, bütün müsəlman ümməti üçün də narahatlıq keçirən, son anlarını onların bağışlanması üçün duaya həsr edən ideal bir müsəlman kimi təsvir olunur.

### 3. Bir ana olaraq Həzrət Fatimə

Həzrət Fatimənin məqtəllərdə ön plana çıxarılan digər bir cəhəti onun ana kimliyidir. Qeyd etmək lazımdır ki, erkən dövr İslam mənbələrində Həzrət Fatimənin analıq xüsusiyyətləri ilə əlaqəli məlumatlar qənaətbəxş deyil [23, s.36]. Bununla yanaşı, məqtəllərdə, xüsusilə, Həzrət Həsən və Həzrət Hüseynin anadan olması və uşaqlıqlarının ilk dövrləri ilə əlaqəli məlumatlarla əsası qoyulan bu təsəvvürün [8, s.193-197, 278; 9, s.122-125, 179; 10, s.246-250, 296] Kərbəla hadisəsindən sonrakı dövrlə əlaqələndirilən fövqəltəbii hadisələr vasitəsilə gücləndirildiyini demək mümkündür. Həzrət Fatimənin ana kimliyi Həzrət Hüseynlə əlaqəli məqtəllərdə keçən bir hadisədə xüsusilə vurğulanır. Bu qissədə Həzrət Peyğəmbərlə Həzrət Əlinin qəzvə səbəbilə Mədinə xaricində olduğu bir vaxtda şəhərin xurmalıqlarında azıb, evin yolunu tapa bilməyən azyaşlı Hüseyni əsr namazına qədər tapa bilməyən Həzrət Fatimənin bir ana kimi yaşadıqları təsvir olunur [8, s.193-196; 9, s.122-125; 10, s.246-249]. Övladlarından nigaran qaldığı zaman Həzrət Fatimənin keçirdiyi hisslər məqtəllərdə fərqli şəraitdə baş vermiş bənzər bir hadisə nümunəsində təkrarlanır [8, s.278; 9, s.179; 10, s.296].

Həzrət Fatimənin vəfatı ilə əlaqəli yuxarıda qeyd olunan təsvirlər vasitəsilə də məqtəllərdə onun övladlarına qayğısı vurğulanır. Belə ki, vəfatının yaxınlaşdığını anlayan Həzrət Fatimə bir neçə gün yoxluğunu hiss etməmələri üçün onların yemək, təmizlik və s. ehtiyacları üçün tədbir görür, onlara yaxşı baxması üçün atalarına vəsiyyət edir və analarının ölüm anını görüb qəm yeməmələri üçün onları evdən uzaqlaşdırmağa çalışır [8, s.219-227; 9, s.139-145; 10, s.261-263].

Məqtəllərin Kərbəla hadisəsindən sonrakı qisimlərində də Həzrət Fatimənin ana

kimliyindən bəhs olunur. Yuxarıda qeyd olunduğu kimi, Həzrət Xədicə, Məryəm və Asiyə kimi kamil qadınların müşayiətində Kufədə Şimrin/Xəvlinin evində oğlunun mübarək başını ziyarətə gələn Həzrət Fatimənin övladının faciəvi ölümündən duyduğu acı məqtəllərdə dramatik şəkildə təsvir olunur [8, s.548-550; 9, s.344-345; 10, s.270-271; 16, s.375-376].

Məqtəllərdə ruhani varlıq olaraq Həzrət Fatimənin ana kimliyi məhşər günü kontekstində də təsvir olunur. Bu təsvirə görə, oğullarının zəhərli və qanlı köynəklərini əlinə alaraq onların haqqını tələb edən Həzrət Fatimə Məhəmməd peyğəmbərin (s) təlqini üzrə bu haqqını ümmətin günahkar bəndələrinə şəfaət istəmək üçün istifadə edir [8, s. 115-116; 9, s.76-77; 10, s.209-210; 12, s.83-85].

Mövzu ilə əlaqəli İslam tarixindəki məlumatların məhdudiyyəti diqqətə alınaraq, Həzrət Fatiməni bir ana olaraq təsvir edən məqtəllərin oxunduğu toplumlarda xüsusi əhəmiyyət daşıdığını qeyd etmək lazımdır. Məqtəllərdəki təsvirə görə, Həzrət Fatimə ömrünün çox uzun sürməyən analıq dövründə maddi sıxıntılarla qarşılaşmış, ailəsinin kişi fərdləri səfərdə olduğu zaman çoxuşaqlı bir ana kimi maddi-mənəvi dəstəyə ehtiyac duymuş, səbir, təvəkkül və qənaətlə çətinliklərin öhdəsindən gəlməyə çalışmışdır. Həzrət Fatimənin vəfatını təsvir edən rəvayətlərdə də, o, ömrünün son anlarına qədər övladlarının qayğısına qalan bir ana kimi təqdim olunmuşdur.

## Nəticə

"Məqtəli-Hüseyn"lər sadəcə Həzrət Peyğəmbərin (s) nəvəsi Hüseyn ibn Əlinin Kərbəlada yaxın tərəfdarları ilə qətlə yetirilməsini təsvir edən əsərlər deyil, onlar həmçinin Məhəmməd peyğəmbər (s) və Əhli-beytinin timsalında cəmiyyətdə nümunəvi müsəlman təsəvvürünün formalaşmasına xidmət edən didaktik əsərlərdir. Bu səbəbdən sözügedən əsərlərin baş qəhrəmanı olan Həzrət Hüseyndən başqa, Kərbəla hadisəsindən çox əvvəl vəfat etmiş Əhli-beyt üzvəri də məqtəllərdə haqqında danışılan müsbət qəhrəmanlar arasında yer almışdır. Həzrət Peyğəmbərin (s) qızı Fatimə "ata-qız", "ər-arvad" və "ana-övlad" münasibətləri kontekstində məqtəllər vasitəsilə cəmiyyətə ideal müsəlman qadın nümunəsi kimi təqdim olunmuşdur.

İslamaqədərki ərəb cəmiyyətində qız övladının sosial-hüquqi statusu nəzərə alındıqda, türkdilli məqtəllərdə Həzrət Peyğəmbərlə (s) qızı Fatimə arasındakı münasibətlərin bu mövqeyin çox fövqündə dayandığı görülür. Məqtəllər vasitəsilə təsvir olunan bu münasibətlər patriarxal bir cəmiyyətdə qız övladının mövqeyini yüksəldən anlamlı mesajlar ehtiva edir. Atasının sevgi və qayğısı ilə böyüyən Həzrət Fatimə erkən yaşlarından tək valideyni olan atasının məşəqqətli təbliğ prosesinin şahidi və dəstəkçisi olmuş, onu qayğı və şəfqətlə əhatə etmiş qız övladı kimi təqdim olunur.

Məqtəllərdə Həzrət Fatimənin timsalında müsəlman ailəsi üçün hər cəhətdən nümunəvi həyat yoldaşı portreti çəkilir. Peyğəmbər-dövlət başçısının qızı olmasına baxmayaraq, sadə bir cehizlə ailə həyatı qurduğundan bəhs olunan Həzrət Fatimə ilə Həzrət Əli mələklər tərəfindən nikahları kəsilən, ölüm ayıranadək qarşılıqlı sevgi və hörmətlə bir-birinə sadiq qalan cütlüyü təmsil edir. Ölüm anında Həzrət Fatimənin həyat yoldaşından xətalarını bağışlamasını və tez-

tez məzarını ziyarətə gəlməsini xahiş etməsi səhnəsi ilə cütlük arasındakı sədaqət və vəfakarlıq bir daha vurğulanır.

Həzrət Fatimənin bir valideyn, övladlarına bağlı bir ana olması da onun məqtəllərdə diqqət çəkilən tərəfidir. Bu təsvirlərə görə, ölüm anı yaxınlaşdıqda da Həzrət Fatimə övladlarına qarşı maddi-mənəvi cəhətdən analıq vəzifəsində laqeydlik göstərmir. Həzrət Fatimə sözügedən əsərlərdə vəfatından sonrakı hadisələr kontekstində də ana obrazı kimi vurğulanır, ruhani varlıq olaraq Həzrət Hüseynin başını ziyarətə gələrkən, qiyamət günü haqsız yerə öldürülmüş övladlarının haqqını tələb edərkən təsvir olunur. Son olaraq, Həzrət Fatimə övladları üçün ədalət tələbini bütün müsəlman ümməti üçün şəfaət istəyinə çevirən bir ana obrazıyla məqtəllərdə analıq sevgisinin ən ali məqamına yüksəldilir.

## ƏDƏBİYYAT


1. Əbu Mixnəf Lut ibn Yəhya. Məqtəlül-Hüseyn və məsraü əhli beytihi və əshabihi fi Kərbəla. Qum: Mənşurat-i Rıza, 1391, 231 səh.
2. Məhəmməd ibn Cərir ət-Təbəri. Tarixül-ümən vəl-müluk (red.: Məhəmməd Əbül-Fəzl İbrahim). Beyrut: Darü Süveydan, 1967, 11 cild.
3. Əbül-Fərəc əl-İsfahani. Məqatilüt-Talibiyyin (red.: Əs-Seyyid Abbas Əhməd Səqr). Beyrut: Darül-Marifə, 1946, 854 səh.
4. Əli ibn Musa İbn Tavus. Əl-Lühuf fi qətlət-tüfuf. Beyrut: Müəssəsətül-ilmiyyi lil-mətbuat, 1414/1993, 264 səh.
5. İbn Nəma əl-Hilli. Müsirül-əhzan və münirü sübülil-əşcan. Qum: Mətbəətül-Əmir, 1406, 125 səh.
6. Kenan Özçelik. "Lâmiî Çelebi'nin Kitâb-ı Maktel-i Âl-i Resûl'ü" // Bursalı Lâmiî Çelebi ve Dönemi Sempozyumu 2011: Bursa (ed.: Bilal Kemikli – Süleyman Eroğlu). Bursa: Bursa Büyükşehir Belediyesi, 2011, səh. 273-279.
7. Mövlana Kəmalüddin Hüseyn Vaiz-i Kaşifi. Rövzətüş-şühəda (red.: Həsən Zülfiqari, Əli Təsnimi). Tehran: Müin, 1390, 814 səh.
8. Məhəmməd ibn Hüseyn Nişati. Şühədanamə (haz.: Möhsün Nağısoylu). Bakı: Elm, 2019, 1017 səh.
9. Məhəmməd Füzuli. Əsərləri: 6 cilddə, VI cild (red.: Teymur Kərimli). Bakı: Şərq-Qərb, 2005, 381 səh.
10. Kenan Özçelik. Aşık Çelebi: Ravzatü'ş-şühedâ tercümesi: İnceleme – metin. İstanbul: Doğu Kütüphanesi, 2016, 512 səh.
11. Orhan Aydoğdu. Câmi-i Rûmî'nin Sa'âdet-nâme Adlı Eseri (Metin-Sözlük) [1b-50a]. Samsun: Ondokuz Mayıs Üniversitesi, SBE, Yüksek Lisans Tezi, 2014, 180 səh.

**12.** Sabir Sayqali. Rövzətüş-şühəda (red.: Sayfuddin Sayfullah ve Davud Hunziker). Daşkənd: Mavəraünnehr, 2004, 607 səh.

**13.** Hakan Yekbaş. "Türk Edebiyatında Hz. Fâtıma Mevlidleri". Cennet Kadınlarının Seyyidesi Hz. Fâtıma. Sivas: Sivas Belediyesi, 2017, s. 227-246.

**14.** Alim Yıldız. "Türk İslam Edebiyatında Hz. Fâtıma" Cennet Kadınlarının Seyyidesi Hz. Fâtıma. Sivas: Sivas Belediyesi, 2017, s. 203-226.

**15.** Serkan Türkoğlu. Bekâî Kitâb-ı Kerbela: İnceleme-Tenkitli metin. Erzurum: Atatürk Üniversitesi, SBE, Yayınlanmamış Doktora Tezi, 2012, 612 səh.

**16.** Hüseyin Yıldızhan. Nevrûz bin İsâ Adanavî Manzûme-i Kıssa-i Kerbelâ (İnceleme-Çeviri Yazı-Sözlük-Tıpkıbasım). Kahramanmaraş: Kahramanmaraş Sütçü İmam Üniversitesi, SBE, Magistr dissertasiyası, 2014, 466 səh.

**17.** Kenan Özçelik. Yûsuf-ı Meddâh ve Maktel-i Hüseyn: İnceleme – Metin – Sözlük. Ankara: Ankara Üniversitesi, SBE, Magistr dissertasiyası, 2008, 403 səh.

**18.** Mehmet Akif Gülsüm. Yahyâ Bin Bahşî'nin Maktel-i Hüseyin adlı mesnevisi (İnceleme ve metin). Kırklareli: Kırklareli Üniversitesi, SBE, Magistr dissertasiyası, 2019, 198 səh.

**19.** Hikmet Tanyu. "Fatma Anamız (Fadime Anamız) ve El ile İlgili İnançlar Üzerine Kısa Bir Araştırma", II. Milletlerarası Türk Folklor Kongresi Bildirileri: Gelenek-Görenek ve İnançlar. Bursa: 1981, c. IV, s. 479-495.

**20.** Mustafa Uzun. "Fâtıma/Edebiyat", TDV İslam Ansiklopedisi, c. 12, s. 223-224.

**21.** Zahide Ay. "Şii Teoloji Tesirindeki Orta Asya ve Anadolu Sözlü Geleneklerinde Hz. Fatıma", Ötekilerin Peşinde: Ahmet Yaşar Ocak'a Armağan, 2015, s. 291-302.

**22.** Caner Işık. "Türk Kültür Mirasında Bir Kült Olarak Hz. Fâtıma" // Sufi Araştırmaları, 2017, c. VIII, No 16, s. 17-33.

**23.** Bahaüddin Varol. "Bir Anne Olarak Hz. Fâtıma". Cennet Kadınlarının Seyyidesi Hz. Fâtıma, (red.: Ali Aksu), Sivas: Sivas Belediyesi, 2017, s. 35-44.

Ельнура Азизова

# ДИДАКТИЧЕСКИЕ ОСОБЕННОСТИ ТУРЕЦКИХ МАГТАЛОВ: ФАТИМА ЗАХРА КАК ОБРАЗЦОВАЯ МУСУЛЬМАНКА В МАКТАЛ АЛЬ-ХУСЕЙНАХ

## РЕЗЮМЕ

Наряду с верой в Пророка Мухаммеда, уважение и любовь к его семье являются одними из ценностей, сыгравших важную роль в формировании мусульманской идентичности тюркских народов. Это понимание, берущее начало в Священном Коране, также отражено в ранних образцах тюркоязычной литературы от Кутадгу Билиг до Деде Коркут. Как естественное следствие этого представления, наряду с Пророком Мухаммедом, который представлен в Священном Коране как образцовая фигура для мусульман, члены его семьи также служили для создания идеального образа мусульманина в обществе посредством различных религиозных текстов. В этом контексте Мактал аль-Хусейн, как однин из видов историко-литературных произведений мусульманских народов, является важным источником, где наряду с пророком Мухаммедом, члены его семьи представлены широкой публике как образцовые личности. В этих произведениях, посвященных мученической смерти Хусейна ибн Али в Кербеле армией Куфы во время правления халифа Омейядов Язида ибн Муавии (680-683), наряду с героем события, члены его семьи также представлены как образцовые личности, сочетающие в себе высокие моральные качества, такие как справедливость, храбрость, стойкость, верность, щедрость, удовлетворенность, смирение и т. д. Одной из этих личностей является Фатима Захра, единственный потомок Пророка Мухаммеда. В этой статье исследуется имидж Фатимы Захры как мусульманской женщины в целом и как «дочери», «жены» и «матери» в частности в рамках Мактал аль-Хусейнах.

Elnura Azizova

# DIDACTIC FEATURES OF TURKISH MAQTALS: FATIMAH AL-ZAHRA AS AN IDEAL MUSLIM WOMAN IN MAQTALS AL-HUSAIN

## SUMMARY

Along with believing in Prophet Muhammad, respect and love for his family are among the values that have played an important role in the formation of the Muslim identity of the Turkic peoples. This understanding, which takes its source from *the Holy Quran*, is also reflected in the early examples of Turkic-language literature from *Kutadgu Bilig* to *Dede Korkut*. As a natural consequence of this notion, along with the Prophet Muhammad, who is presented in *the Holy Quran* as an examplary figure for muslims, his family members also served to create an ideal Muslim image in the society through various religious texts. In this context, *Maqtal al-Husain*, one type of the historical-literary works of Muslim peoples, is an important sources that along with the Prophet Muhammad, his family members are presented to the general public as exemplary personalities. In these works, dedicated to the martyrdom of Hussain ibn Ali in Karbala by the army of Kufa during the reign of Umayyad caliph Yazid ibn Muaəiyah (680-683), along with the hero of the event, his family members are also presented as exemplary personalities who combine high moral characteristics in themselves as justice, courage, bravery, fortitude, loyalty, generosity, contentment, resignation etc. One of these personalities is Fatimah al-Zahra, the only descent of the Prophet Muhammad who continued his lienage. This article investigates Fatimah al-Zahra's image as a Muslim woman in general, and as a "daughter", "wife", and "mother" in particular within the framework of Turkish *Maqtal al-Husain*.

# DİNİN TEOLOJİ (KONFESSİONAL) ŞƏRHLƏRİ

***Həsənağa MƏMMƏDLİ,***
*AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun elmi işçisi*

***AÇAR SÖZLƏR:*** *transendent-immanent, dixotomiya, eksternalizasiya və internalizasiya.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *трансцендентно-имманентный, дихотомия, экстернализация и интернализация.*
***KEY WORDS:*** *transcendentally immanent, dichotomy, externalization and internalization.*

İnsanlar müvafiq dini təcrübə əsasında, teoloji şərhlər vasitəsilə dini "daxildən" anlamağa çalışırlar. Baxaq görək, xristian tədqiqatçılar dini necə izah edirlər: hərçənd, onların şərhlərində hansı konfessiyaya - katolisizmə, protestantizmə, pravoslavlığa – aid olduqları özünü büruzə versə də, bəzi məsələlərdə bir-biri ilə razılaşa bilirlər. Çox vaxt dinin izahı Tanrının "mütləq predmet" və ya "fundamental varlıq" olduğu izahları ilə başlanır.

Bu nöqteyi-nəzərdən din heç bir fikirlə izah olunmayan "prafenomen", "xüsusi növ ölçü" kimi qəbul olunur, Tanrı ilə qarşılıqlı əlaqədə yaranır və insanın manifestasiyası (çağırışları) onu sınaqdan çıxarır. İnsan Tanrının hərəkətlərini həyəcanla izləyərək "qeyd-şərtsizliyə istiqamətlənən", ehtiramla özünü gerçəkləşdirməklə, kult davranışı ilə, icmalar yaratmaqla, etik həyat tərzində özünü təcəssüm etdirmək istəyir.

Dini inancların erkən formalarının – totemizm, fetişizm, animizm, animatizm və i.a., eləcə də Şərq dini sistemlərinin öyrənilməsi bəzi konfessional tədqiqatçıların dinin Tanrı ilə əlaqəsinin, "Tanrı həyəcanının" xristian düşüncə tərzində universal olmadığı qənaətinə gəlməsinə səbəb olmuşdur. Məsələn, isveçli lüteran alim N.Zederblom (1866-1931) farsların dini mənsubiyyətini araşdıraraq belə nəticəyə gəlmişdir: "Müqəddəslik dində müəyyənlik yaradan sözdür: o, hətta Tanrı anlayışından daha mühüm hesab edilir. Həqiqi din ilahiyyat barədə müəyyən anlayış olmadan mövcud ola bilər, ancaq "müqəddəslik"lə "qeyri-müqəddəslik" arasında fərq qoymadan həqiqi din yoxdur" [1, s.162]. "Müqəddəslik", "bağlılıq" həqiqi dinin ən vacib əlamətlərini təşkil edir.

Konfessional ilahiyyatçılıqda dinin izahının digər variantları da vardır: "Mütləq", "fövqəltəbii", "numinozluq", "transendentlik" və s. anlayışlardan istifadə olunur. Dinin teoloji dərketmə tarixində fikir ayrılıqlarının əsası vardır. Belə ki, dinşünaslığın bir bilik sahəsi kimi formalaşması dövründə dinin tərifini müəyyənləşdirmədə iki cür yanaşma ortalığa çıxdı: ifrat supranaturalizm nöqteyi-nəzərindən və ilahiyyatda tarixi bir məktəbin mövqeyi. Supranaturalizmin təsiri altında xristian ilahiyyatında inkişaf etmiş "fövqəltəbii" anlayışı dinin tərifinə tətbiq edildi. P.Honiqsheymin fikrincə, "din" termini "fövqəltəbii qüvvələrin mövcudluğuna, onlarla əlaqələrin mümkün və vacib olduğuna, inanclara (və bu inanclarla əlaqəli olanlara) söykənən hər hansı fikrə istinad etmək üçün istifadə olunmalıdır" [2, s.511].

Supranaturalizm Xristianlığın “fövqəltəbii açıqlığından” və yalnız vəhy vasitəsilə dərk olunma ehtimalından irəli gəlirdi. Lakin dinin “yenidən yarana bilməyən ilkin fenomen” olması ideyası Xristianlığın təkamülünün cəmiyyətin inkişafından asılı olması faktı ilə ziddiyyət təşkil etdi. Xristianlığın ictimai münasibətlər quran müxtəlif düşüncəli insanlarla əlaqəsi teoloji tarixi məktəbinin nümayəndələri tərəfindən hərtərəfli təhlil edilmişdir. Protestant teoloqu, tarixçi və sosioloqu E.Trölç (1865-1923) bu məktəbin ideyalarının sistemləşdiricisi kimi çıxış edərək, dinin (Xristianlığın) təhlili üçün araşdırmanın *tarixi* üsulunu tətbiq etmişdir. Hərçənd o, dinin hal-tərzini aprior həyəcan kimi, dini isə müstəqil dəyərlər sahəsi kimi qəbul edirdi. Eyni zamanda, dinin müxtəlif, hipotetik dəyişilmiş, yenilənmiş həyəcanının elmi əsaslarla dərk olunmasının mümkünlüyünü də qəbul edirdi, bununla bərabər, o, Xristianlığın “mütləqiyyətini” din tarixinin ideyaları ilə birləşdirmişdi. Onun fikrincə, relyativ hədəflərdən doğan, lakin insanın formalaşması istiqamətində mütləq hədəflərə yön almaq və bir-birilə sərbəst fikir mücadiləsində normaların əmələ gəlməsi prosesi - bütün bunlar tarixin problemidir. Trölç dini etiqadın müstəqil və aprior ideyası tarixi əlaqə ilə şərtlənməsi faktı ilə necə əlaqələndirilməsi məsələsini qaldırır. O anlayır ki, mənəvi qüvvələr ictimai şəraitin təsirinə məruz qalır, bununla iqtisadi, institusional və digər münasibətlərin Xristianlığa təsirini müəyyənləşdirməyə çalışır. Lakin Trölç dinin cəmiyyətdən monokauzal asılılıq ideyasının əksinə olaraq, onun “müstəqilliyi” üzərində diqqəti cəmləşdirməyi tövsiyə edir və Xristianlığın “qeyri-sabit güzgü obrazının” iqtisadi və sosial tarixin ünsürü kimi izah olunmasını inkar edirdi. Din həm obyektiv tarixi reallıq, həm də Tanrıya subyektiv münasibətdədir. İndivid (fərd) və kollektiv universal, İlahi Şüur ilə partiçipirasiya (əlaqəli iştirak) olunur, bu da xristian inancının müstəqilliyinin əsasını təşkil edir. Sonralar konfessional dinşünaslıqda dinin dərk edilməsində və onun cəmiyyətlə əlaqəsində iki tendensiya inkişaf etdirildi: dixotomik və transsendental immanent.

Dixotomiya din və cəmiyyət arasındakı fərqdən, “müstəqil dəyərlər” olaraq, bir-birindən keyfiyyətcə fərqli sahələr kimi başlanğıc tapır və dinin mahiyyətinin, məzmununun transendent olduğunu qəbul edir. Doqmatik təlimdə, ibadətdə və s. ilə ifadə olunan dinin əsası “qeyri-sosial”, “qeyri-dünyəvi” və “supradünyəvi”dir. Bunlar “əbədi həqiqətlər”, “zamandan asılı olmayan prinsiplər”, “tarixidən üstün toxumlar”, “transsendental məzmun” və s. Dinin təzahürləri və mövcud təbii humanitar yardım məqsədli birləşmələr (təşkilatlar, idarələr, dindarların davranışı və kommunikasiyası və i.a) onun sosial tərəfinin görüntüləridir. Transendent-immanent (immanens latınca – daxildə olan, nəyəsə məxsus olan) interpretasiya din və cəmiyyəti birləşdirməyə çalışır: din cəmiyyətə xasdır, onun daxilində mövcuddur və eyni zamanda ondan kənara çıxır.

Transendent anlayışı sxolastikada aydınlaşdırılmışdır və hissi təcrübədən kənarda olanlar, empirik bilgilər nəzərdə tutulur. İmmanent səbəblər və hərəkətlər şeylərin özünə xas (вещь в себе) hesab olunurdu, transendent olanın isə onların xaricində, varlıqların xaricində mövcud olduğu düşünülürdü. Transsendentlik dini (metafizik) bilgilərin predmeti kimi nəzərdən keçirilirdi. Sxolastikada bu anlayışla əlaqəli başqa bir konsepsiya – transdentallıq (transendentlik ilə transendentallıq İ.Kant tərəfindən dəqiq izahı verilmişdir. Ona qədər bu sözləri filisoflar sinonim

kimi işlədirdilər. Kant transendentallığı – təcrübəni qabaqlayan və bunun dərk olunmasını mümkün edən bilik kimi qələmə verir. Bertran Rassel transendentallığı prizmaya bənzədirdi, yəni onun vasitəsilə dünyaya baxış nəzərdə tutulur. O, transendentliyə qarşı qoyulur. Transendentlik – təcrübədən kənara çıxmaq, yəni prinsipial olaraq, rasional bilik üçün əlçatmazdır, bu ancaq inamın pedmeti ola bilər) mövcuddur. Sonuncu mövcudluğun əsas təriflərinin bir xüsusiyyəti hesab edilirdi. Transdentallıq – ondan ayrılmaz və öz mahiyyətindən, zərurətdən doğan bir məfhumdur. Transdentallıqların bütün kateqoriyalar və məxsusi anlayışlardan üstün olması düşünülürdü. Transdentallıqlara mövcudluq, həqiqət, xeyir, bütövlük aid edilirdi.

Müasir dinşünaslıqda bu anlayışlar fərqli şəkildə şərh olunur. Geniş mənada, transendent ekzodünya (digər məkan və zaman) kimi, immanent isə tam əks mənada, yəni endodünya (daxili aləmin təsir dünyası) kimi anlaşılır. Transsendentallıq anlayışına da aydınlıq gətirilmişdir: bu da iki sahə arasında sərhəd keçidi kimi təyin olunur, yəni bioloji sahədən sosial və mənəvi sahəyə, adi (instinktiv) hisslərdən ali hisslərə (duyğulara), varlıqdan yoxluğa, həyatdan ölümə, subyektiv Mən aləmindən subyektiv Sən aləminə keçid və s.

**Dixotomik şərh**. Dixotomik şərhlərə nümunələr verək. Protestant teoloqu və filosofu R.Otto (1869-1937) güman edirdi ki, din "müqəddəs həyəcan" deməkdir, onun predmeti isə ilahi həyəcandan doğan *numinoz* (latınca "numen" ilahi iradə, hakimiyyət, ilahi güc deməkdir) gücdür. Dini təcrübə məhdudlaşdırıcı anlayışlarla ifadə oluna bilməz, adi dil danışığı ilə də anlaşıla bilməz, o, məfhumlardan kənara çıxır. Bununla belə, rasionallıqdan üstün olan bir təcrübə sahəsi verir, lakin bu antirasionallıq rasionalizmə əsaslanır. Otto Şleyermaxerin "mükəmməl asılılıq" hissi ilə bağlı fikrini qəbul edir və onu "məxluqatın hissi" kimi təsvir edir. İnsan reaksiyalarına bu cür səbəb olan "müqəddəslik" aşağıdakı simptomlarla xarakterizə olunur. Müqəddəslik, numinozluq ikili bir hissə çağırış edir.

Bir tərəfdən bu, "*mysterium tremendum*" (lat. sirli qorxu) - təqvalı qorxu yaradan, insana münasibətdə "tamamilə fərqli" bir şeydir. İnsan prinsipial olaraq ona qarşı qoyulan varlığın mövcudluğunu hiss edir və bu özgəlik onda qorxu hissini, dəhşəti, həmçinin "mükəmməl asılılıq" və "məxluq olma hissini" və s. oyadır. Digər tərəfdən, müqəddəs, numinoz "*mysterium fascinans*" (lat. sirli, heyranedici, cəlbedici) kimi görünür. O, məftun edir, heyran edir, insanı daha da canlandırır, özündən kənara buraxmır, öz cazibə dairəsində saxlayır. Nəyin, necə baş verdiyini anlamaq üçün bu müqəddəslik hər kəsin özündə yaşanmalıdır.

Otto Kantın ideyalarına müraciət edir. Müqəddəs anlam apriorinin mürəkkəb bir kateqoriyası kimi müəyyən edilmişdir. Mütləqlik, bütövlük, zərurilik və mahiyyət ideyaları xeyrin müxtəlif formalı təcrübəsindən əldə edilmir, zatən insan ruhuna daxil edilmişdir, həmçinin müqəddəsliyin həyəcanı, numinozluğu apriori insan ruhunda qərar tutub. İnsan müəyyən dərəcədə numinozluğu yaşamağa meyillidir və bu hisslərdən törəyən dini ifadələri geniş işlətmək qabiliyyətinə malikdir; məsələn, insanın yaşaya biləcəyi "dini çılğınlıq" (canatma) haqqında danışa bilərik. Ottoya əsasən, müqəddəs anlayışı ümumi kateqorial sistemin yaradılması üçün əsas götürülür. Bunun köməyi ilə hər hansı bir dinin izah edilməsinin universal əsasları qoyulmuş olur.

Pravoslav ilahiyyatçısı və filosofu P.A.Florenski (1882-1937) dini belə xarakterizə edir: "Din, heç olmasa, xilasın rəssamı olmaq iddiasındadır və onun vəzifəsi xilas etməkdir... O, bizi bizdən xilas edir, daxili dünyamızı orada gizlənmiş xaosdan qoruyur" [3, s.818].

Din bizdə olan cəhənnəmi dəf edir və həmin alovun dilləri canın çatlarından çıxaraq düşüncəni közə döndərir. O, şüuraltı həyatın "böyük və geniş" bədxah varlıqlarını məhv edir və orada yuva quran heyvanı yaralayır. O, canı nizama salır, canda rahatlıq yaratmaqla bütöv bir cəmiyyəti və təbiəti bütövlükdə əhatə etməklə onlara sakitlik, əminlik gətirir. Bu, onun əsas işidir; hərçənd, xarici dünya dinlə bərqərar olmayıb, lakin onun əsl yeri candadır. Florenski yazır: "... Ontoloji götürsək, din Tanrıda olan və Tanrının bizdə olan həyatıdır. Onda fenomenoloji olaraq, din canın qurtuluşunu təmin edən bu cür hərəkətlər və həyəcanlar sistemidir. Başqa sözlə, xilas, sözün daha geniş və psixoloji mənasında, ruhi həyatın müvazinətdə olmasıdır".

Amerikalı dinşünas A.Qrili dini təcrübənin növlərindən birinin, təbii ki, insanla baş verən, həyatın sonluğunu hiss edərkən özündə həyatın mənasını sorğulayan zamankı proses hesab edir. O yazırdı: "Bu varlığın sərhədlərinin hiss edilməsi" üfüq anlayışına gətirib çıxara bilər, hansı ki, təkcə bizim harada olduğumuzu müəyyən etmir, həm də bizim varlığımızdan kənarda çox böyük bir qüvvənin varlığını ehtimal edir" [4, s.22]. "Üfüq" hissi vəhylər vasitəsi ilə verilir, bu da transendentliyin işarəsi olması qənaətinə gətirib çıxarır. Dinin mahiyyəti transendental işarələrin akkumuliyasiyasındadır.

**Transendent-immanent həyəcanı**

Transendent-immanentliyin interpretasiyası teologiyada modernist cərəyanların təsiri altında inkişaf etmişdir. Sonunculara görə, hazırda xristian prinsipləri dünyada tətbiq olunur, inanclar və simvollar həyat sferasına köçürülür, buna görə də sekulyar sülh dinsiz hesab olunmur.

Sekulyar sülh və din bir-birinə zidd olmayan qarşılıqlı tərəflərdir. Özündə ehtiva edən kultu, dini ocaqları, teologiyanı və i.a. ənənəvi olan, yüksək inkişaf etmiş və differensial sistemli din haqqında anlayışları "elmi cəhətdən tərəddüdlə qəbul olunan" kimi elan edilir. Din və dünyəvilik qarşıdurması öz mahiyyətini itirmiş olur. Transendensiya ideyası qorunub saxlanılır, lakin yeni düşünülmüş formada: mahiyyət və məzmun baxımından din transendentaldır, ancaq bu elə transendentanlıqdır ki, eyni zamanda dünyaya, cəmiyyətə və insana aid (daxil) immanentdir. Transendent-immanent ənənəsinə uyğun olaraq, pravoslav ilahiyyatçısı və filosofu S.N.Bulqakov dini belə interpretasiya edir: dinin obyekti olan Tanrı bir tərəfdən mütləq transendentdir, xarici dünyaya və insana qarşı başqa təbiətlidir, digər tərəfdən, O, dini düşüncəyə açıqdır, onun içinə daxil olur və immanent məzmununa çevrilir. Dini düşüncənin hər iki məqamı, eyni zamanda qütblər kimi, həm cazibəsi olur, həm də bir-birini dəf edir. Dinin obyekti olan ilahilik özünün mahiyyəti etibarilə transendent-immanentdir və yaxud immanent-transendentdir.

Tanrı tamamilə insandan yuxarı, zirvəyə qalxır, eyni zamanda sonsuz dərəcədə kiçilə bilir, dünyaya meyl edir, dünyaya Özünü göstərir, insanda yaşayır. Mütləq hərgah dünyəviyə və ya dünyaya transendental olsaydı, insan üçün Tanrı olmazdı, onun üçün tamamilə neytral, tam heçliyə bərabər sayılardı. Tanrı hərgah tamamilə immanent olsaydı, onda Tanrı sayılmazdı,

bu, özünün tam dərinliyindən götürülmüş bir insan və ya dünya olardı [5, s.88]. Tanrı özünün transendentallığında insandan sonsuz dərəcədə uzaqdır, sirli bir məkana çəkilir, dini düşüncədə boşluq qoyub gedir. Ancaq dini özünüdərk yalnız bu boşluqda yaşaya, nəfəs ala və qidalana bilməz: Tanrı ilə ünsiyyət, İlahi həyəcan və Tanrıçılıq onun həyatının əsasını təşkil edir. Din ancaq o dərəcə mümkündür ki, transendental Mütləqiyyət, ağıla sığmayan, izsiz sirlər insana açılmış olsun, yalnız onda Mütləq insan üçün Tanrıya çevrilir [6, s.92].

Din üçün bu antinomiya sadəcə sabit və əvəzolunmaz impuls yaradır, çünki bu, dinin siniridir (yəni, çox həssas məqamıdır), ona dərinlik və hərəkət verir, hərçənd həll olunan deyil. Lakin dini həyatda o (onun ambivalentliyi, yəni ikili təbiətə malik olması) həmişə həll olunandır, o, təkrar-təkrar dini təlim mənbəyi kimi inanc alovunda yaşayır. İnanc üçün bunlar axıra qədər anlaşılmaya bilər: inam sirrin övladıdır, sevgi və azadlığın qəhrəmanlığıdır, düşünülmüş cəfəngiyat qorxutmamalıdır. Məhz burada hüdudsuz İlahi Məkanın əbədi həyatı açılır.

Dində insan özündən yüksəkdə olan ilə əlaqə qurur və həyəcan keçirir. Dini münasibətlərin təməlində əsas və kənarlaşdırılması mümkün olmayan dualizm yatır: hər hansı konkret formada olmasına baxmayaraq, dində həmişə iki başlanğıc, iki qütb mövcuddur. Din hər zaman insanın öz-özünə ikiyə bölünməsidir, özünə münasibəti ikinciyə münasibəti kimidir, təklikdə deyil, birləşmiş, qarşılıqlı əlaqədə olmuş kimidir. Dində insan hiss edir ki, özünü tanımazdan əvvəl onu görürlər, tanıyırlar, lakin bununla bərabər, o özünü bu xeyirli həyat mənbəyindən uzaqlaşmış, kənarlaşmış kimi anlayır, o, həyatdakı əlaqəni bərpa etməyə çalışır, dini qurmaq istəyir. Din Tanrını tanıdan və onunla rabitənin həyəcanını keçirmək deməkdir.

S.N.Bulqakov yazır: “Din immanent olduğuna görə transendentin həyəcanı deməkdir, lakin öz transendensiyasını qorumaq üçün transendent-immanent həyəcanı keçirir… Din kateqoriyalarında transendent-immanentlik mütləqiyyətlə əlaqəni anladan əsas formal anlayış kimi mövcuddur”. Dini düşüncənin əsas qütblüyü – verilmiş qapalı dairənin daxilində olan transendentin əksidir – bu sxemdə özünü təcəlla etmiş olur; bu dairədən kənarda nə varsa – transendentallıqdır. Transendentlik immanentliyin sərhəd sahəsidir, onun hüdududur. Bulqakov izah edir ki, din düşüncənin qütbləşməsinə, transendent və immanentin əksliklərinin gərgin hisslərinə söykənir, bu təkcə əlaqəni deyil, Tanrının insandan uzaqlığını da göstərir; bu mənada, müəyyən dərəcədə dünyanın Tanrıdan günahla kənarlaşması deməkdir, yəni Tanrı haqqında bilgilərə xələl gəlmiş olur. Dinin əsasında şəxsi təcrübədə yaşanmış Mütləqiyyətlə görüş dayanır və bunda onun yeganə avtonom mənbəyi öz təsbitini tapır. Onda transdental aləmə, Mütləqiyyətə daxil olmağa cəhd, dini intuisiyanın formalaşması baş verir: dini həyəcanda insan özündə və iç dünyasından keçməklə yeni dünya qazanmış olur; o dünya ki, onun qarşısında qorxudan titrəyir, sevinir, sevir, utanır, tövbə edir. Din təkcə ruhun musiqisi deyildir, o mənim üçün ..., məndən kənardadır, o subyektiv deyildir, daha doğrusu subyektiv-obyektivdir. Eyni zamanda, Bulqakovun fikrinə görə, din təkcə Mütləqiyyətlə əlaqəli deyildir, o həm də insanın bəşəriyyətlə rabitəsidir; həmçinin özünün insanlığının sonuncu və hüdudlu təsdiqidir: əslində, bu, çox möhkəmdir, ontolojidir, başqa cür ola bilməz.

**Müqəddəs kosmosun konstruksiyası**

Amerikalı yevangelist ilahiyyatçı və sosioloq P.L.Berger (d. 1929) alman tədqiqatçısı T.Lukman (d. 1927) ilə birlikdə dini fenomenoloji sosiologiya baxımından təhlil edir. Onlar elmi-nəzəri (ideologiya və s.) və hər kəsin gündəlik həyatda işlətdiyi və daim ünsiyyətdə olduğu insanlarla bölüşdüyü bilgiləri (gündəlik həyatda özünü göstərən düsturlar) ayırd edirlər, intersubyektiv düşüncə "əlbəttə, bu ağılasığandır" düsturu ilə (məişət bilgilərilə) "gerçəkliyin konstruksiyasını" yaradır və bu bilgilər yenidən biliyin sosiologiyasında rekonstruksiya olunmalıdır.

**Eksternalizasiya və internalizasiya**

Berger insanla cəmiyyət arasındakı əlaqəni dialektik olaraq başa düşür. Onun fikrincə, cəmiyyət dialektik bir fenomendir: hərçənd o, insan məhsulu olsa da, eyni zamanda produsentlərə (prosedur yanaşma) daim əks təsir göstərir. Dialektikanın vacib aspektləri səviyyəsində eksternalizasiya və internalizasiya prosesləri nəzərdən keçirilir. Berger bu proseslərin qarşılıqlı fəaliyyətini hipotetik nümunə vasitəsilə nümayiş etdirir. Tamamilə fərqli mədəniyyətlərin insanları havasız bir "mədəni" məkana düşür və bir-birilə əlaqə qurmağa məcbur olurlar, baxmayaraq ki, bioloji proqramları yoxdur. Bu şəxslər özlərinə məxsus davranışlar sərgiləməlidirlər (eksternalizasiya). Bu əlaqə "süni" mexanizmlər vasitəsilə həyata keçirilir – jestlər, üz ifadələri və s. İkinci əlaqə birinciyə istiqamətlənir və i.a. Sonra birgəyaşayışı asanlaşdıran təmasın institusionalizasiyası yaranır. Davranış üsulları obyektivləşdirilir, həm də ilkin istehsalı formalaşdıran şəraitdən ayrılırlar. Öz növbəsində, ayrıca bir fərd yenidən ictimai normaları mənimsəməyə məcbur olacaq (internalizasiya).

Mədəniyyət – və ya Bergerə görə, Nomos (yun. Vouos - adət, nizam, qanun) – (məcburi, dəyişməz bir xarakterə malik olan dini, etik, hüquqi və ya ənənəvi olaraq müəyyən edilmiş bir norma) insan üçün həyati əhəmiyyət daşıyır, çünki o, mənaları konstitutlaşdırır (yəni, tərkibi müəyyən edir) və bununla da ona oriyentasiya imkanı verir.

Məna ilə tələbat insan ekzistensiyasının o sahələrində baş verir ki, orada fitri davranış qaydaları olmur. Ələlxüsus, ciddi zərurət o mənada (mahiyyət tutumunda) hiss olunur ki, mədəni mühafizənin hüdudunda əmələ gələn problemli şəraitin müdaxiləsi olur. Başqasının ölümünü müşahidə etmək və bununla əlaqədar öz ölümünü həyəcanla xəyala gətirmək, xəyallar, ekstaz, dünyadan narazılıq və onun gündəlik qavrayışda özünü büruzə verməsi və s. qeyri-sabitliyə, xaos hissinə, əzab və qorxuya səbəb olur.

Kosmosun (yun. kainat, dünya nizamlı, tam şəkildə) sabitləşməsi gündəlik həyatın dəyişkən müxtəlifliyinə əsaslana bilməz. Əsl sabitlik din tərəfindən təmin edilir. "Din insanın müqəddəs Kosmos yaratması üçün cəsarətli, təşəbbüskar fəaliyyətidir". Başqa sözlə, din müqəddəs üsulla kosmoslaşdırma deməkdir. Müqəddəsliyi bir numinoz, yəni qüdrəti ilə qorxunu oyadan hesab edirik, halbuki insan onun narahatlığını başqa cür keçirir, çünki inanır ki, təcrübənin müəyyən obyektivlərində o sahiblik edir" [7, s.26].

Müqəddəslik gündəlik həyatdan fərqlidir. Berger dini "müqəddəs" və "profan" anlayışlarını fərq baxımından izah edərkən, başqa bir əkslik olduğunu da qeyd edir: müqəddəslik-xaotiklik.

O yazır: “Bütün nomik konstruksiyalar (номические конструкции) bu qorxunu nəzarətdə saxlamaq üçün nəzərdə tutulub. Ancaq yalnız müqəddəs Kosmos bu insan konstruksiyasının ən yüksək nöqtəsidir. O, sözün həqiqi mənasında onun apofeozudur” [7, s.28].

Din “insanın həyat dünyasının” yaradılmasında əsas rol oynayır. Çünki o, məzmun verən instansiya kimi məna verici üsulları özünə tabe edib. “Gerçəkliyin konstruksiyasının” əsas ölçüsü olmaqla, o, gerçəkliyin bütün sahələrinə münasibətdə legitim funksiyanı yerinə yetirir, dünyanın nizamını əsaslandırır və izah edir. Dinin yönləndirici gücü sərhəd situasiyasında xüsusilə vacibdir, ona görə ki, mövcud həyat tərzini sual altında qoyur. O, strukturlaşır, “normal” vəziyyətlə əlaqə qurur, xaosa qarşı çıxır və məzmunla zənginləşmiş Nomos konstruksiya edir. Din daima dini fəaliyyətlə həyata keçirilir və sosial əlaqə kontekstində baş verir. Bununla bağlı müqəddəs dini Kosmos fasiləsiz olaraq gündəlik dünya həyatına yaxınlaşır. O, gücə çevrilir, fundasiya (əsas, təməl) olunur və ona dayanıqlıq verir.

Din anemik təcrübə axınında Nomosun sabitliyinə zəmanət verir. Bu baxımdan Berger, *teodiseyanın* şərhini verir. Teodiseya sadəcə nəzəriyyə deyildir, düşüncə və anlayışlarla məhdudlaşa bilməz; o, təcrübi həyatda lazımlı olmalıdır. Fərd individuallığı tipik hala çevirməlidir, əvvəlki təcrübəsini özündən ayırmalı və toplumun təcrübəsinə qatmalıdır.

Berger iki növ teodiseyanı daha çox vurğulayır: əsasən irrasional və rasional istiqamət. İrrasional qütbdə bu, fərdi özəlliyin cəmiyyətlə sadə identifikasiyasıdır. Məsələn, fərdi ölüm inamla “kompensasiya” olunur, ona görə ki, cəmiyyət bütöv bir toplum kimi sağ qalır, həmçinin ölümün məxsusi gözlənilməsinə birliyin həyat gözləntisinə qarşı qoyulur. Bu cür identifikasiyanı yalnız ibtidai dinlərdə deyil, inkişaf etmiş dinlərdə də aparırlar. O, mistisizmdə ən yüksək səviyyəyə çatır. Qarşı qütb – rasional tip sansara, karma, dharma, hərəkət və rifahın uyğunluğu, müəyyən bir nizam, həyat dövrünün rasional planı, həyat və ölümün sonsuz təkrarlanması ilə bağlı təlimləri ilə hinduizmlə təmsil olunur.

## ƏDƏBİYYAT


1. Soderblom N. Dos Werder des Gottesglaube. 1926.
2. Хонигсгейт Р. Социология религии: дополнителъный анализ религиозных институтов // Беккер Г.Б., Бесков А. Современная социологицеская теория. М.: 1961.
3. Флоренский П.А. Вступительное слова пред защитою на степень магистра книги: “О Духовной Истине” // Флоренский П.А. Столп и утверждение истины. Т.1(11). М.: 1990.
4. Greeley A. Religion: A Secular Theory. L.: 1982.
5. Вах: Булгаков с.н Свет невечерний. М.: 1994.
6. Вах: Булгаков с.н Указ. соч.
7. Berger P.L. Zun Dialektik von Religion unci Gesellschaft. Elemente einer Soziologichen Theorie. Frankfurt: 1973.

Гасанага Маммадли

# ТЕОЛОГИЧЕСКИЕ (КОНФЕССИОНАЛЬНЫЕ) ИНТЕРПРЕТАЦИИ РЕЛИГИИ

## РЕЗЮМЕ

Теологические (конфессиональные) интерпретации стремятся понять религию «изнутри», на основе соответствующего религиозного опыта. В период становления религиоведения как отрасли знания обнаружилось два подхода к определению религии: с точки зрения крайнего супранатурализма и с позиции исторической школы в теологии. Сущность религии – в аккумуляции сигналов трансцендентного.

Hasanagha Mammadli

# THEOLOGICAL (CONFESSIONAL) INTERPRETATIONS OF RELIGION

## SUMMARY

Theological (confessional) interpretations seek to understand religion “from the inside”, based on the relevant religious experience. During the formation of religious studies as a branch of knowledge, two approaches to the definition of religion were discovered: from the point of view of extreme supranaturalism and from the position of the historical school in theology. The essence of religion is the accumulation of transcendental signals.

# RUS ORTODOKS KİLİSESİ'NDE İBADET VE BAYRAMLAR

***Dr. Sevinc ASLANOVA***

***ANAHTAR KELİMELER:*** *Rus Ortodoks Kilisesi, inanç, ibadet, dini bayramlar.*
***AÇAR SÖZLƏR:*** *Rus Pravoslav Kilsəsi, inanc, ibadət, dini bayramlar.*
***KEY WORDS:*** *Russian Orthodox Church, faith, worship, religious holidays.*

Rus Ortodoks Kilisesinde, diğer Kiliselerce de kabul edilen üç bölümlü ve oniki maddeli Havariler İnanç Sistemi (Havariler Kredosu) [1, s.280-281] kabul edilmektedir. Dolayısıyla, Rus Ortodoks Kilisesi'nde de diğer Hıristiyan mezheplerinde olduğu gibi, inanç esasları Teslis (Baba-Oğul-Kutsal Ruh üçlüsü) etrafında oluşmaktadır.

Buna göre, Baba, Oğul ve Kutsal Ruh tek bir cevherden çıkmış üç ayrı şahıstır:

Tanrı'nın oğlu olarak görülen İsa'nın, Adem'den insanlığa geçen asli suçu, kendini çarmıhta kurban ederek gidermek için yer yüzüne geldiğine; Kutsal Ruh'un, Oğul yoluyla Baba'dan çıktığına ve vaftiz yoluyla insana geldiğine inanılmaktadır [2, s.26-54].

Rus Ortodoks Kilisesi'nin inanç esasları ibadet, bayram ve ayinleri de şekillendirmektedir. Rus Ortodoks Kilisesi'nde, tüm ibadet, bayram ve ayinler bu inanç esaslarını açıkca sergilemektedir. Bu sebeple, biz burada konuyu uzatmadan ibadet, bayram ve ayinlere geçmeği uygun görmekteyiz.

Rus Ortodoks Kilisesi'ne göre, İbadet Tanrı'ya duyulan inanç, umut ve sevgi duygularını ifade eden tüm dua ve dini faaliyetlerdir. Bu dini vecibeler sayesinde Rus Ortodokslar Tanrı ile gizemli bir iletişime geçtiklerine ve Tanrı'dan kendi dini hayatları için güç aldıklarına inanırlar [3, s.6-7; 4, s.6].

Rus Ortodoks Kilisesi'nde, ibadetler ferdi ve toplumsal olmak üzere iki türlüdür. Genel olarak diğer Hıristiyan mezheplerinde olduğu üzere, ferdi ibadet insanlar tarafından oruç ve dua gibi ferdi olarak icra edilmektedir. Toplumsal ibadet ise, kiliselerde cemaatle Papaz nezaretinde yapılan ibadetlerdir [1, s.293]. Toplumsal ibadetler iki türlüdür: 1. Daimi ibadetler; 2. Zaman zaman yapılan ibadetler.

Daimi ibadetler, bütün Rus Ortodoks Kilisesi cemaati tarafindan sabah, akşam ve diğer zamanlarda belirli vakitlerde yapılan ibadetlerdir. Zaman zaman yapılan ibadetler ise, cenaze ve vaftiz gibi, bir takım Kilise üyelerinin isteği ve ihtiyacı üzerine icra edilen ibadetlerdir [5, s.25-33].

Diğer Ortodoks Kiliseler'de olduğu gibi, [1, s.293] Rus Ortodoks Kilisesi'nde de ibadetler günlük, haftalık ve yıllık olmak üzere üç türlüdür. Birinci gruba giren ibadetler günün belli zamanlarına bağlıdır. Dolayısıyla, bu ibadetler sırasına göre günlük olarak başlar ve biter. Bu suretle, bu çeşit ibadetler günlük devreyi oluştururlar. Haftalık ve yıllık ibadetler ise, haftanın

ve yılın günlerine bağlıdır. Dolayısıyla, bu ibadetler haftalık ve yıllık devreyi oluştururlar [2, s.79-136].

Rus Ortodoks Kilisesi'nde günlük kilise ibadetleri sekizdir: 1.) Akşam İbadeti; 2.) Akşamüstü İbadeti; 3.) Gece Yarısı İbadeti; 4.) Sabah İbadeti; 5.) Birinci Saat İbadeti; 6.) Üçüncü Saat İbadeti; 7.) Altıncı Saat İbadeti; 8.) Dokuzuncu Saat İbadeti.

Rus Ortodoks Kilisesi'nde ibadetler "Akşam İbadeti" ile başlar, zira, eski zamanlarda gün akşam başlardı. Yaşam meşguliyetleri ve kamu görevleri nedeniyle tüm bu ibadetler için ayrı ayrı bir araya gelemeyen dindarlara müsamaha gösteren Kilise bu sekiz ibadeti - akşam, sabah ve öğlen olmak üzere - günün üç ayrı zamanında birleştirerek icra ettirmektedir. Bu itibarla, Dokuzuncu Saat İbadeti, Akşam İbadeti ve Akşam Üstü İbadetinin oluşturduğu üçlü akşam yapılmakta; Gece Yarısı İbadeti, Sabah İbadeti ve Birinci Saat İbadeti'nin oluşturduğu üçlü sabah icra edilmekte; Üçüncü Saat İbadeti, Altıncı Saat İbadeti ise öğlen yapılan ibadetleri oluşturmaktadır.

*Akşam ibadeti:* Akşam ibadeti, günün bitimine doğru akşamleyin biten gün için teşekkür ve başlayacak olan gecenin hayırlı olması adına icra edilmektedir. Bu ibadet, Zebur'un 103. bölümünün okunması ile başlar ki, burada kainatın Yaratıcısı'nın sonsuz kudreti yüceltilmektedir. Rus Ortodoks Kilisesi'nde, bunun yanında, Tanrı'nın kendisine olan yakarışları duyması için Hz. İsa, Meryem Ana ve Azizleri över mahiyetteki Kilise'nin tüm üyelerinin duaları ve Zebur'dan başka kısımlar okunmaktadır.

*Akşamüstü İbadeti:* Akşamüstü ibadeti, büyük ve küçük olmak üzere iki türlüdür.

Büyük Akşamüstü ibadeti: Büyük Oruç ve Hz. İsa'nın doğumu (Noel), vaftizi (Epifani) ve diğer dini bayramlarda yapılır. Tam olarak bu ibadet Büyük Oruç'un Salı, Çarşamba, Perşembe, Cuma ve Cumartesi'leri — 5.haftanın Perşembe ve Cumartesi günleri hariç — ve Strastnaya Sedmiça'nın Salı, Çarşamba ve Perşembe günleri yapılır. Söz konusu günlerde bu ibadet Utrenya (Sabah)'dan ayrı ifa edilir. Anılan bayramlarda ise mezkur ibadet Utrenya ile beraber icra edilir [3, s.27].

*Küçük Akşamüstü İbadeti:* Rus Ortodoks Kilisesi'nde bu ibadet, normal günlerde Akşam İbadeti'nin ardından yapılmaktadır. Esasında Büyük Akşamüsü İbadeti'nin kısaltılmışı olan bu ibadet, özellikle Zebur 50, Zebur 69 ve Zebur 142'den oluşmaktadır ki, bunlarda Tanrı'dan günahların bağışlanması, düşmanlara karşı yardım ve himaye istenmekle birlikte, insanın üzerine çökecek uyku için de dualar yapılmaktadır.

*Gece Yarısı İbadeti:* Bu ibadet, Rus Ortodokslarca gece yarısı icra edilmesi gereken bir ibadettir. Zira, Rus Ortodoks Kilisesi'ne göre, Hz. İsa on kıza dair muammada kendisini damat gibi anlattığı sırada, bu damadın gece yarısı geldiğini söylediği için Rus Ortodokslar da bu "zaman (gece) Efendisi"ni karşılamak üzere ibadet yapmaktadırlar. Gece Yarısı İbadeti sırasında Zebur'un 50. ve 118. kısımlarının okunmasının yanı sıra, ölenler adına da dua edilmektedir. Böylece, Ortodoks Ruslara göre, gece yarısı ibadeti insanı Tanrı'nın kanunlarına riayeti, manevi zindelik ve pişmanlık-tövbe gibi hususlara yönlendirmektedir.

*Sabah İbadeti:* Bu ibadet, Ortodoks Ruslar tarafından sabahları gün doğumunun hemen öncesinde ifa edilen ibadettir. Sabah İbadeti, Tanrı'ya yalvarma ile başlar, daha sonra, Zeburun insan ruhunun Tanrı ile konuşmasını tasvir eden altı bölümünün okunması ile devam eder. Bunlar; Mezmur 3, Mezmur 37, Mezmur 62, Mezmur 87, Mezmur 102 ve Mezmur 142'dir [3, s.44].

*Birinci, Üçüncü, Altıncı ve Dokuzuncu Saatler İbadetleri:* Birinci, üçüncü, altıncı ve dokuzuncu saatlerde Kilise tarafından kısa ibadetler icra edilmektedir. Söz konusu bu saatler Doğu hesaplamasına göre olduğundan dolayı, bunların Rusya'daki karşılığı akşam saat yedi, dokuz, geceyarısı 12 ve öğleden sonra saat 3'tür. Rus Ortodoks Kilisesi'nde, bu saatler şöyle anlatılmaktadır:

Birinci saat: Tanrı'nın bize ışığı vermesi hatırlanır ve teşekkür edilir, nitekim doğuda ilk saat güneşin doğduğu saattir.

Üçüncü saat: Bu saatte Kutsal Ruh'un beşinci ongünlükde (pentokost) havarilere indirilmesi hatırlanır [6, s.62-64].

Altıncı saat: Hz. İsa'nın çarmıha gerilmesi anılır.

Dokuzuncu saat: Bu saatte ise, Hz.İsa'nın ölümü hatırlanır.

Hıristiyan inancına göre, Hz.İsa öldükten sonra tekrar bir Pazar günü dirilmiştir. Bundan dolayı da, Pazar günü büyük önem taşımıştır [1, s.293-294]. Rus Ortodoks Kilisesi'nde de taşıdığı bu önemden dolayı, Pazar günü haftanın ilk günü olarak değerlendirilmiştir ve bu günde Kilise Hz. İsa'nın tekrar dirilmesini anmıştır [2, s.174-183]. Bunun dışında, Kilise, haftanın diğer günlerine de birer anlam yüklemiştir.

Pazartesi günü, Meryem Ana anıldıktan sonra, Azizler yüceltilir.

Salı günü, Peygamberler anılır.

Çarşamba günü, İsa'nın Yehuda tarafından haince İsrailli yöneticilere teslim edilmesi hatırlanır.

Perşembe günü, Havarilere ve Aziz Nikolay'a adanır.

Cuma günü, Hz. İsa'nın çarmıha gerilmesi anılır.

Cumartesi günü, bir huzur günü olarak değerlendirilir. Bu günde, Meryem Ana ve Rus Ortodoks Kilisesi'nce tüm Azizler gibi, bu dünyayı imanla terk edip ebedi hayat umuduyla vefat edenler anılır.

Bu haftalık ibadetler sırasında her güne özgü şarkı söylemeler ve dualar vardır. Günlere has bu ibadetler ve dualar da toplu olarak haftalık ibadet devrini oluşturmaktadır.

Rus Ortodoks Kilisesi'nde, yılın her bir günü ya özel bir takım olayların anılmasına, yahut da, muhtelif Kutsalların hatırlanmasına adanmaktadır. Bu olay veya şahısların şerefine tesis edilmiş özel şarkı söylemeler, dualar ve törenler yıllık ibadet devrini oluşturmaktadır.

Bunların arasında ibadet özelliklerine göre büyük bayram ve pehriz günleri oluşmaktadır.

Bayram günleri diye bilinen günler ya Tanrı ve Hz.İsa'nın yüceltilmesine, ya Meryem Ana'nın ya da, Kutsal kişilerin ve güçlerin adına kutlanmaktadır. Rus Ortodoks Kilisesi, bu bayramları muhtelif yönlerine göre taksim etmektedir: 1. Konusuna göre, bayramlar "Tanrısal", "Tanrı Anası" ve "Kutsallar" diye ayrılmaktadır; 2. Kutlama zamanına göre, bayramlar sabit

– her sene ayın aynı gününde kutlanan bayramlar ve değişken – haftanın aynı gününde, ama Paskalya'nın tarihinin değişmesi gibi ayın muhtelif tarihlerinde kutlanan bayramlar diye ayrılmaktadır; 3. Kilisedeki törenselliğine göre, bu bayramlar büyük, orta ve küçük olmak üzere üçe ayrılmaktadır.

Genel olarak, Rus Ortodoks Kilisesi'nce, en önemli bayram Hz.İsa'nın dirilişinin anısına Pazar günü kutlanan Paskalya'dır [6, s.82].

Pazar günkü sabah ibadetlerinde Hz.İsa'nın dirilmesi ve dirildikten sonra öğrencilerine görünmesini anlatan pasajlar okunur. Okunma sırasında İncil mabedin ortasına getirilir; burada ona tazim edilir ve öpülür [3, s.47].

Paskalya'dan sonra önemli bayramların sayısı on ikidir [3, s.29-31].

1. Meryem Ana'nın doğum günü (8 Eylül). Bu bayram, Ortodoks Ruslar tarafından, uzun süre çocuk hasretiyle yaşayarak Tanrı'ya yalvardıktan ve kendilerine vereceği çocuğu Tanrı'ya adayacaklarını ahdettikten sonra İmran'la Hunne'ye Tanrı'nın bir kız çocuğu vermesi anılarak, Hz.Meryem'in doğum günü münasebeti ile kutlanmaktadır [7, s.3-10].

2. Meryem Ana'nın mabede girişi (21 Kasım). Bu, Meryem 3 yaşındayken ebeveynlerinin Tanrı'ya vermiş oldukları ant gereğince kendisinin Kudüs mabedine getirilmesinin anısına kutlanan bayramdır [7, s.110-132].

3. Meryem Ana'ya Müjde (25 Mart). Rus Ortodoks Kilisesi inancına göre, Meryem Ana'ya "Tanrı'nın Oğlu" ve "dünyanın kurtarıcısını" doğuracağının müjdelenmesinin anısına kutlanan bayramdır [3, s.30-31].

4. Hz.İsa'nın Doğumu veya Noel (25 Aralık). Bu, Rus Ortodoks Kilisesi'nin Tanrı'nın Oğlu olarak nitelendirdiği Hz.İsa'nın doğumu münasebeti ile kutlanan bayramdır [7, s.133-142].

5. "Tanrı"nın Karşılanması (2 Şubat). Rus Ortodoks Kilisesi, bu bayramı, Hz.İsa'nın 40. doğum gününde Tanrı'ya adanmak üzere Kiliseye getirilmiş olması ve orada Simeon ve Anna tarafından karşılanması anısına, bayram olarak kutlanmaktadır [2, s.157-164].

6. Epifani (6 Ocak). Hz.İsa'nın Vaftizci Yahya tarafından vaftiz edilmesi [5, s.41-42] anısına bayram kabul edilmektedir [6, s.41-61]. Rus Ortodoks Kilisesi de bunu kutlamaktadır [7, s.342-401].

7. "Tanrı"nın Şekil Değişmesi (6 Ağustos). Rus Ortodoks Kilisesi'ne göre, Favor dağında Hz.İsa kendi öğrencileri karşısında mükemmel bir şekil değiştirmiştir. Rus Ortodoks Kilisesi, Hz.İsa bunu, öğrencilerinin imanını artırmak ve kendi "Tanrısal büyüklüğünü" onlara göstermek ile çekeceği çilelerin yaklaştığını "gördüğü" için yaptığına inanmıştır. Bundan dolayı, Ortodoks Ruslar, bunun anısına söz konusu olayı bayram olarak kabul etmişlerdir [3, s.31].

8. İsa'nın Kudüs'e Girişi (Büyük Oruc'un 6. haftasının Pazar günü). Rus Ortodoks Kilisesi bu bayramı, Hz.İsa'nın çile çekmek ve dünyanın günahlarına karşılık ölmek için Kudüs'e gelmesi hatırasına kutlamaktadır [3, s.31].

9. İsa'nın Göğe Yükselişi (Paskalya'dan sonra 40. gün). Bu, Rus Ortodoks Kilisesi'nde, diriltildiğinin 40. gününde Hz.İsa'nın göğe yükseltilmesi anısına kutlanan bayramdır [7, s.442-445].

10. Pentakost (Paskalya'dan sonra ellinci gün). Kutsal Ruh'un Hz.İsa'nın diriltilmesinden elli gün sonra havarilere görünmesi anısına düzenlenen bayramdır [6, s.52-80]. Rus Ortodoks Kilisesi'ne göre, bu zaman havarilere üç varlığın tanrılığı aşikar olduğu için, bu gün aynı zamanda Teslis günü olarak da anılmaktadır. Kilise, bu bayramın ertesi gününü ise, bayram olarak Kutsal Ruh'a adamaktadır; bu yüzden bu gün Kutsal Ruh günü olarak da bilinmektedir [7, s.436-441; 8, s.246-249].

11. Meryem Ana'nın Vefatı (15 Ağustos). Rus Ortodoks Kilisesi, Meryem'in vefatı zamanı bir Melek tarafından bildirildiğini iddia etmektedir. Buna inanan Ortodoks Ruslar, onun cenazesinin defnedildiği mağarada bulunamaması üzerine, Tanrı'nın O'nu dirilttiğine ve haşır gününe kadar semaya YÜKSELTTIĞINE de inanmakta ve bunu bayram olarak kutlamaktadırlar [3, s.32].

12. Haç Yortusu. Bu bayram ilk başlarda Hz.İsa'nın çarmıha gerildiği ağaçların bulunması [1, s.296] ve 326 yılında, Ortodokslarca havarilere eşdeğer mevkide olan kraliçe Yelena tarafından edinilmesi anısına kutlanmakla beraber, VII. asırdan itibaren, Yunan İmparatoru Heraklins tarafından 624 yılında söz konusu haçın Pers topraklarından geri alınması anısı irtibatlandırılmaktadır. Törende, Pers'ten geri alınan haçın getirilmesi esnasında halka gösterildiğini sembolik olarak canlandırmak amacıyla, haçın yerine konulması sırasında törene katılan cemaatin "kutsal haçı" rahat bir şekilde görebilmeleri için, Patrik onu, yukarıya kaldırarak dört bir tarafa da göstermektedir; bu sırada katılımcılar da hep beraber tazim ederek "Tanrım bizi bağışla" demektedirler [7, s.49-59]. Belirtmek gerekiyor ki, Rus Ortodoks Kilisesi'nin dini bayramlarda geçirdiyi ayinler mevcuttur.

Araştırmalar gösteriyor ki, Rus Ortodoks Kilisesi'nin temeli Yunan Ortodoks Kilisesi tarafından başlatıldığı için, inanç, ibadet ve ayinleri de hemen hemen aynıdır. Dolayısıyla, Ortodokslukta mevcut olan Teslis inancı ayniyle Rus Ortodokslara geçmiştir. Tüm ibadet ve ayinler de bu inanç etrafında oluşmuştur.

## ƏDƏBİYYAT


1. Günay Tümer, Abdurrahman Küçük. Dinler Tarihi, III. Bsk.. Ankara: 1997.
2. Arkhiepiskop Vladimir. Vrata Pokoyaniya, Sretenskogo Monastır. 1998.
3. Aleksandr Rudakov. Kratkoe Uçenie O Bogoslujenii Pravoslavnoy Tserkvi. Moskova: 1991.
4. French, R.M. The Eastern Orthodox Church. London: Hutchinson's University Library, 1951.
5. Zernov, Nicolas. The Church of The Eastern Chiristians. London: 1946.
6. Komisyon. Orthodox Spirituality: An Outline of the Orthodox Ascetical and Mysticaal Tradition. New York: The Macmillan Company, 1945.
7. Arkhiepiskop Vladimir. Slovo na Dvunadesyatıe i Velikie Prazdniki. Moskova: 1997.
8. Ware, Timothy. The Orthodox Church. Great Britain: 1964.

Sevinc Aslanova

## RUS PRAVOSLAV KİLSƏSİNDƏ İBADƏT VƏ BAYRAMLAR

### XÜLASƏ

Məqalənin mövzusunu Rus Pravoslav Kilsəsinin inancını özündə əks etdirən ibadət və dini bayramlar təşkil edir. Burada günlük, həftəlik, illik ibadətlər, həmçinin pravoslavların əsas bayramları olan Pasxa və digər 12 dini bayram araşdırılır. Müəllifin tədqiqat sonunda gəldiyi qənaət ondan ibarətdir ki, Rus Pravoslav Kilsəsinin inanc, ibadət və ayinləri Yunan Pravoslav Kilsəsi ilə eynidir.

Sevinj Aslanova

## WORSHIP AND HOLIDAYS IN THE RUSSIAN ORTHODOX CHURCH

### SUMMARY

The subject of the article is worship and religious holidays, which reflect the beliefs of the Russian Orthodox Church. It examines daily, weekly, annual worship, the main Orthodox holidays as Easter and 12 religious holidays and various rituals. The author concludes that the beliefs, worship and rites of the Russian Orthodox Church are the same as those of the Greeks.

# İSLAM TƏSƏVVÜRÜNDƏ ƏXLAQ ANLAYIŞI

***Yeganə MİRZƏYEVA,***
*BDU, İslamşünaslıq Elmi Tədqiqat*
*Mərkəzinin aparıcı elmi işçisi, fil.ü.f.d.,*
*yeganemirzeyeva72@gmail.com*

***AÇAR SÖZLƏR:*** *İslam, əxlaq, nizam, ədəb.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Ислам, мораль, порядок, приличие.*
***KEY WORDS:*** *Islam, moral , order, etiquette.*

Xaliq Allah insanı ən gözəl əxlaq üzrə xəlq etmişdir. Əxlaq Xaliqin xəlq etdiyi xilqətdir. Allah Rəsulu (s) həsən (həsənat, gözəllik, hüseyn, əhsən) əxlaqı tərifləmiş, ali əxlaqa rəğbətləndirmiş və buna şövq (təşviq) etmişdir. İslam peyğəmbərinin "Mən ibadəti öyrətmək üçün göndərildim" tövsiyəsinə heç bir mənbədə rast gəlmirik, lakin "Mən ən gözəl əxlaqı tamamlamaq üçün göndərildim", – dediyi mənbələrdə sabitdir. Allah Rəsulunun təşviqindən aydın olur ki, İslam gözəl əxlaqdır!

- Gözəl xasiyyət dinin yarısıdır.
- Möminlərin ən kamalı əxlaqı ən gözəl olandır.
- Əxlaqı ən gözəl olan insanların ən xeyirlisidir.

Beləliklə, əxlaq Xaliqin nizam sistemidir, hər şeyi bir nizama uyğun xəlq etmişdir. Əxlaqın nizamı da intizamdır. Günəşin, Ayın vahid bir intizamı mövcuddur. Yarandığı andan təslimiyyəti təyin olunmuş məhvərdən ayrılmamaq, sabit nizama tabe olmaq Günəşin əxlaqıdır. Təslimiyyət əxlaqı Günəşi, Ayı, Yeri, səmaları faydalı edir. Var olan hər bir şeyin faydalılıq nisbəti intizama riayət etməsi ilə əldə olunur. İnsan da mütləq bir missiya üçün yaradılmışdır. Makrokosmosda mikrokosmos olan insan onun üçün təyin olunmuş istiqamətdə hərəkət edərsə, ilahi nizama tabe olacaq. İlahi nizama tabe olmaq insandan intizama - nizam qaydalarına tabe olmağı tələb edir. Nizam qaydalarına tabe olan faydalılıq nisbəti ilə məqsədə doğru irəliləyir. Daha intizamlı olan daha çox faydalıdır, daha çox faydalı olan öz mikro dünyasından makro dünyasına keçid edir. Xaliqin xəlq etdiyi xilqət müstəvisində hərəkət edən, fəaliyyət göstərən insan zaman, məkan keçidlərində günəş nisbətli olur. Faydalılıq prinsipini idrak edərək makro dünyaya keçid edən insan digər insanların qəlblərində sevgi yuvası qurur. Qəlblərdə sevgi yuvasına sahib olan insan günəşin sübh aydınlığı kimi insanların qəlblərində, həyatlarında aydınlıq carçısı - qəndil misalı olur. Beləliklə, Nur Allahın qanunlarına, sabit nizamına təslim olan insan qəlblərə nur olur. Rəhim Allahın mərhəmət nizamına tabe olan həm insanların mərhəmət qapılarını döymüş olur, həm də özü mərhəmət qaynağına çevrilir. Əfuvv Allahın təsbit etdiyi əxlaq nizamına tabe olan insan qəlbi sıxan, qatılaşdıran düşüncələrdən xilas olaraq işıq mənbəyi olan mələklərlə yarışa qoşulur. Beləliklə, varlıq və hadisələrin ilahi hikmət və yaradılış düzəninə tabe olmaq kimi məqsədə xidməti onların nizamıdır.

Aləm mənasını verən kosmos bir sistemdir, nizamdır. İnsanlıq aləminin də yüksəliş müstəvisində hərəkət edə bilməsi üçün Yaradanın insan fitrətinə kodlaşdırdığı nizama, düzənə, qanunauyğunluğa tabe olmaq tövsiyə edilir. Yaxşılıq etmək əxlaq qanunlarının ən ümdəsidir. Xaliqin yaratdığı xilqət nizamına tabe olmaq insandan iradə tələb edir. İradə insanın öz seçimi ilə özünə təyin etdiyi qanunlarına tabe olmaq gücüdür. Əgər bu iradə insanı ilahi nizama, intizama uyğun çərçivədə hərəkətə yönəldirsə, bu, təqvadır. Təqva qüvvətdir. "Olmazlar"a "olmaz", "olarlar"a "olar" deyə bilmək qüvvətidir. Xaliqin xəlq etdiyi xilqət nizamına, intizama təslim olmağın adı islamdır. İslam Salam Xaliqə istiqamətlənmiş yoldur. Xaliqin salam yoluna, salama aparan, salama yönəldən, salama çatdıran, nizama təslim olan insan "müsəlman" statusu qazanır. Nizama, qanunauyğunluğa təslim olan müsəlman əxlaqı doğru istiqamətə ilk addımdır. İnsanlığın və külli-aləmin mürəbbiyəsi, yönləndirəni, idarə edəni, məliki olan Rəbbə təslim olmaq insanı növbəti ədəb-əxlaq müstəvisinə qaldırır. Mömin olmaq bütün sistemi var edən Xaliqdən əmin olmaqdır. Nizama təslim olan qanunların aliliyindən əmin olacaq. Əlbəttə, əxlaq intizamı sistemindən əmin olan muhsinə çevrilir, yəni gözəllik müstəvisinə varmış olur. Muhsin Allaha və onun ilahi hikmətinə heyran olan həsənatlar - gözəl əməllər carçısı olmaqla ətrafına da gözəllik yayacaq.

İnsanlığı salama, əminliyə, gözəlliyə dəvət edərək, yaradılış missiyasına xidmət edərək ali həqiqətə şahid etdirən İslam sosial müəssisədir. Bu məqsədlə onun ana kitabı "Bizi doğru yola yönəlt" - missiyasını təlqin edir, öyrədir. Haqqı bəyan edən, Furqan olaraq doğru və yanlışı izah edən, kitabın anası hesab olunan, açar mənasını verən, eyni zamanda fəaliyyətin başlanğıcı olan, duanın mahiyyətinə işıq salan "Fatihə" surəsi sosial düşüncə və əxlaq təlimidir. Sosial düşüncənin, həyatın anlamı olan "biz" təfəkkürünü formalaşdıran İslam dinində əxlaq kriteriyaları sosial məzmundadır. "Xeyir işlərdə yarışın" ayələrinin sayı çoxdur ("Muminun", 57, 61; "Maidə", 48; "Bəqərə", 148; "Fatir", 32; "Hədid", 21). İlahi nizam qanunauyğunluğunda bütün kainat sistemi cəm halında öz mövcudiyyətini sübut edir. İlahi nizama xidmət edən əxlaq cəmiyyət halında yaşandıqca formalaşır, inkişaf edir. Əxlaq mənəviyyat, ruh halının bütövlüyünü təmin edən qanunlar sistemidir. Hər cəmiyyətin, millətin sahib olduğu fərdi mənəvi dəyərlər sistemi mövcuddur. Hər ailə, birlik, təşkilat, müəssisə yaxşı-pis, doğru-yanlış əxlaq anlayışlarına sahibdir. Heyvanlar aləminin də təsbit edilmiş əxlaqi dəyərləri, məsuliyyəti, vəzifələri mövcuddur. Hörümçək ailəsi əxlaq qanunları, bal arısı ailəsi mənəvi dəyər və məsuliyyəti ilə fərqlənir. Heyvan icmaları də ümumi, ictimai qanunlara tabe olur. Bu qanunlar da onların əxlaq dəyərlərini təşkil edir. Əxlaq cəmiyyətlərin təkamülü, mütəşəkkilliyi üçün aydınlanma istiqamətində yeganə həqiqi gücdür. "Bizi doğru yola yönəlt" - əxlaqını idrak edən insan makro kainatın ümumi axarına düşməklə kifayətlənmir, özü yeni axarlar müstəvisinə yol açır.

Həzrət Məhəmməd (s) cəmiyyətdə ilahi əxlaq dəyərlərinə təslim olaraq yeni-yeni gözəlliklər cığırı açdı. Hər insanı kainatın zərrəsi qəbul etsək, Allah Rəsulu (s) mikro kosmosları makro kosmik fəzaya qaldırmağa müvəffəq oldu deyə bilərik. İlahi əxlaq nizamına təslim olan insan Allahın hüdudlarını qorumuş olur. Allahın insan üçün təyin etdiyi əxlaq

hüdudları insanı bəşər halından qaldırıb məlakut aləminə xas olan ali həqiqətə çatdırır, intisab edir. "Hər cəmiyyət, toplum, birlik öz məqsəd və amalına müvafiq əxlaqi dəyərlərə sahibdir", - deyə qeyd etmişdik. Şərq ölkələrinin əxlaqi təməli və mənəvi güc qaynağı İslam dini və mədəniyyəti olmuşdur. İlahi intizam cəmiyyətin vahid bədən kimi fəaliyyəti üçün qarşılıqlı müştərək ünsiyyət, empatiya, altruizm, filantropiya, fədakarlıq, paylaşmaq, mərhəmət, şəfqət kimi əxlaqi dəyərlər tələb edir. "Ali-İmran" surəsinin 19-cu ayəsində **"Allah yanında (haqq olan) din, əlbəttə, İslamdır",** - deyə bildirilir. İslam dini təslimiyyət rəmzidir. Günəşin, Ayın, bütün yaradılanların, hətta kölgələrin də Allaha təslim olması onların salam, sülh, barış, anlayış, qarşılıqlı faydalılıq sərhədlərində var olmalarını təmin edir. **"(Ey insan!) Məgər göylərdə və yerdə olanların (bütün canlıların), Günəşin, Ayın və ulduzların, dağların, ağacların və heyvanların, insanların bir çoxunun (möminlərin) Allaha səcdə etdiyini görmürsənmi? Bir çoxuna da (kafirlərə də) əzab vacib olmuşdur. Allahın alçaltdığı kimsəni heç kəs yüksəldə (səadətə qovuşdura) bilməz. Həqiqətən, Allah dilədiyini edər!"** [1, "Həcc", 18].

Hər çiçək, hər gül, hər zərrə, hər planet İslam əxlaq intizamı hüdudlarına təslim olmaqla, İslam yoluna tabe olmaqla müslim adını daşıyır. Ətri, rəngi, sahib olduğu hər zərrəsi ilə üzərinə yüklənən missiyanı yerinə yetirən hər çiçək "müsəlman"dır.

Allahın seçdiyi və insanlıq adına təyin etdiyi təkamülə uyğun, insan fitrətinə cavab verən, məntiqə əsaslanan, elmə münasib yol İslam dinidir. Mənasız inanclardan, adət-ənənələrdən, boş söz yığınından uzaq, əmələ və fəaliyyətə dayanan İslam öz bünövrəsini sosial, mənəvi, əxlaqi dəyərlər üzərində inşa edir. İnsanın və ya insanlığın fitrəti olan bu din və onun təməli olan ilahi əxlaqi prinsiplər insanı ruhu və cismi, bu günü və sabahı, duyğuları və maraqları ilə birlikdə bütöv şəkildə qəbul edir. İnsanın nəfsi və ruhunu, qəlbi və dünyasını tətmin etməklə, heç bir ehtiyacını qarşılıqsız buraxmır. İnsanı yönləndirməyə can atan, pisliyi əmr edən nəfsdən arındıraraq durulmuş, saflaşmış nəfsə sahib olmaq yollarını öyrədir. Həyat təlimi olan İslam əxlaqi dəyərləri insanı anarxiyadan qoruyur, depressiya, ümidsizlik kimi dağıdıcı mənəvi sıxıntılardan xilas edir. Ümid motivasiya gücü olaraq insanlığa şərəf olan əminlik kimi dəyərləndirilir. Belə ki, ümid insanın motivasiya gücüdür, əminlik duyğusu isə əşrəf insanın şərəfidir. Beləliklə, ümid insana şərəf qatan əminlikdir. Yaradan yaratdığını bilməzmi? Psixoloji, pedaqoji əsaslarla zəngin olan İslam dini insanı tanıyır, bilir, onun mənəvi ehtiyaclarını qarşılamaq yollarını insanın özünə təlim edir.

Quran məntiqinə əsaslanan islami əxlaq dəyərləri insan nəslinin salam, rifah halında olmağına diqqət çəkən tövsiyələrdən əlavə, insanlığı aydınlığa, salama dəvət edən elçilərin dualarını ibrət göstərməkdədir. **"(İbrahim və İsmail dedilər:) "Ey Rəbbimiz! Bizim hər ikimizi Sənə itaətkar (müsəlman), nəslimizdən yetişənləri Sənə təslim olan ümmət (müsəlman) et, bizə (həcc) əməllərimizi (ibadət qaydalarımızı) göstər, tövbəmizi qəbul et! Həqiqətən, Sən tövbələri qəbul edənsən, mərhəmətlisən!"** [1, "Bəqərə", 128]. Elçilərin "nəslindən gələnləri" üçün etdiyi dualar cəmiyyətin təməl daşı olan ailə institutunun İslam dinində önəmli mövqeyindən xəbər verir. İslamın mənəvi, maddi və fiziki sağlam fərd və cəmiyyət üçün təqdim etdiyi qanunlar məcmusu insanlığa xidmət etməklə yanaşı, batini nur və irfani cəmiyyətə yol

göstərir. İnsanı özü üzərində çalışmağa, düşünməyə, mənəvi arınmağa yönləndirən İslam əxlaqi dəyərləri ali həqiqətə işıq salır. İnsanın başqalarına xidmət etməklə insani şəfqəti ifadə etməyə və Allahı xatırlamağa mənəvi ehtiyacı vardır. Xalis niyyətlə insanlığa xidmət sosial ibadət şəklidir. Fərdlər arasında sağlam ünsiyyət insanın əsas qayəsidir. Sosial ibadət şəklinin əsas qayəsi həm də ünsiyyət üçün yaranan insanın Allah, təbiət və insanla doğru istiqamətdə ünsiyyəti öyrətməsidir. Sosial varlıq olan insan öz üzərində işləyərək, mənəvi dəyişimlərlə davamlı yenilənərək, başqalarında da mərhəmət, şəfqət duyğularını oyandıraraq, qəlblərə xitab edərək ilahi razılığa nail ola, razılıq diyarı, razılıq yurdu, razılıq yoluna müvəffəq ola bilər. Gözəlliyi yaşayan, əlbəttə, gözəlliyə dəvət və təşviq etmədən, gözəlliyi sevdirmədən var ola bilməz. "Əxlaqi perspektivdən baxıldığında bir insanın yaxşı olmağının və ya bir davranışın əxlaqi hesab edilməsinin mərhəmət şərtinə bağlı olduğunu deyə bilərik [2, s.93].

Əxlaqlı olmağın ən təməl prinsipinin yaxşı olmaq və hər kəs üçün yaxşılıq diləmək olduğu düşünülürsə, mərhəmətli insanların zehnində yer alan «bütün canlılar acılardan uzaq olsunlar» duasını əxlaqiliyin bir göstəricisi olaraq qəbul etmək olar. Beləki, əxlaq heç kimin bir-birinə zərər vermədiyi, hər kəsin mümkün olduğu qədər bir-birinə yardım etdiyi bir münasibət formasını ifadə edir. Daha fərqli bir ifadə ilə desək, əxlaq incitməməklə başlayıb, incinməməklə yüksələn bir yolçuluq halıdır [3, s.29].

Tarix və mədəniyyətimizə nəzər salsaq, milli adət-ənənələrimizdə, sənətkarlıq və incəsənətimizdə, duyğu və düşüncələrimizdə, ədəbiyyatımızda İslam əxlaqi dəyərlərinin izinə, təsirinə şahid olarıq. Milli ayrı-seçkilik etmədən, bir bayraq altında neçə-neçə xalqların birləşməsi, bir dövlət qanunları çərçivəsində fərqli din mənsublarının birgə yaşaması İslam dininin tolerantlıq, multikulturallıq, vəhdət dəyərlərinin təcəllisidir. Qurandan iqtibas etdiyimiz **"Ey insanlar! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız (kimliyinizi biləsiniz) deyə, sizi xalqlara və qəbilələrə ayırdıq"** [1, "Hucurat", 13] ayəsi tolerant, multikultural, əxlaqi dəyərlərin bariz nümunəsidir.

Sosial varlıq olan insan geniş miqyasda əxlaqi dəyərlərin gözəlliyinə təşviq edə və islami əxlaqın sarsılmaz qala olduğunu nümayiş etdirə bilmək üçün ətrafına, səsini çatdıra biləcəyi hər kəsə ibrət, nümunə olmağa müvəffəq olmalıdır.

Hər kəs yalnız mənsub olduğu cəmiyyətin fərdləri arasında deyil, bütün cəmiyyətlər arasında ülfət bağı ola bilmək üçün diri Quran olmağa niyyətlənməlidir. Belə ki, əsrlərdir "ən gözəl əxlaq üçün nümunə göndərilən" elçi öz qüvvəsinə, təsir gücünə Quranı həyatına inikas etdirməklə müvəffəq olmuşdur. Onun "əxlaqı Quran əxlaqı idi", "o, iki ayaqlı Quran idi". İnsanlara ibrət, nümunə üçün təlimatlandırılan Məhəmməd (s) örnək liderdir. Sosial və ya ictimai təfəkkürün bariz nümunəsi olan Allah elçiləri, risaləti yayanlar yalnız əxlaqları, üstün, ali mənəvi dəyərləri ilə cəmiyyətlərdə öz sözlərini deyə bilmiş, Quran məntiqinin "biz" fəlsəfəsinə, ali hikmətə vaqe olmuşlar.

Namaz üçün deyil, əxlaq üçün nümunə göndərilən Məhəmməd (s) millətləri, dövlətləri vahid bir ideya, bayraq altında birləşdirməyə nail olmuşdur. Gənc yaşlarından əminlik statusu qazanan bir insan, əlbəttə, cəmiyyətdə söz sahibi olmağa müvəffəq olacaq. O, əminlik statusu

qazana bilmək üçün özünü ehtiyac sahiblərinə xidmətə, faydalı olmağa fəda etmiş, bununla da, başqalarına adanmış ömrün ən məqbul olduğunu təsdiq etmişdir. İnsanlıq fədaisi rəsullar mərifətə, həqiqətə vaqe olaraq, xidmətə sərf olunan ömrün insanı həqiqi səadət diyarının sakininə çevirəcəyini bildirmişlər. Təsdiq edə bilmək üçün insandan siddiqlik, yəni doğruluq tələb olunur. Siddiq, sadiq, sədaqətli olmaq insanın özünü insan olaraq təsdiq etməsidir. "Yunus" surəsində "qədəmə sidqin" – "doğruluq məqamı" məfhumundan bəhs edilir. Əminlik məqamına çatan insanlara müjdə kimi ən ali mərtəbədə - "doğruluq məqamı"nda olduğundan xəbər verilir. Sədaqətli və doğru-düzgün insanlar həqiqət, haqq, ali əxlaq dəyərləri anlayışında olanlara, yəni müttəqilərə imam olacaq. Əlbəttə, müttəqilərə imam olanların həyatları başqalarına nümunədir. Hər hansı ali əxlaqi təsəvvürə sahib insanın həyatı, addımları ətrafındakıların, özündən sonra gələnlərin həyat, yaşam kitabları üçün müqəddimədir: **"İçərilərindən bir adama: "İnsanları (Allahın əzabı ilə) qorxut, iman gətirənləri (yaxşı əməllərinə görə) Rəbbi yanında gözəl mükafat gözlədiyi ilə müjdələ!" – deyə vəhy etməyimiz xalqa təəccüblü gəldimi ki, kafirlər: "Bu, həqiqətən, açıq-aşkar bir sehrbazdır!" dedilər"** [1, "Yunus", 2].

Vəfalılıq, mərhəmətlilik və yardımsevərlik, şəfqətlilik və həlimlik, cəsurluq və şücaət, adillik və anlayışlılıq, fədakarlıq və səbatlıq kimi ali keyfiyyətləri bilən, tanıyan, yaşayan insan başqa cür var ola bilməz. Gözəl ətirləri qoxlayan, əlbəttə, ətirlər arasında fərqi duyacaq, daha gözəlinə can atacaq. Ən gözəl, diri rənglərə valeh olan boğanaq rənglərdən xoşbəxt ola bilərmi? Ətirlər, rənglər üstün, ali zövq tələb etdiyi kimi, ən gözəl altruistik, filantropik, empatik həyat da ali zövq tələb edir. Hər çiçəyin ətri olduğu kimi, hər əxlaqi dəyərin də özünəməxsus tanıtımı mövcuddur. Libas seçimi edə bilən insan, libasların ən dəyərlisi, mənəvi libas olan təqvanı seçəcək. Libas örtüdür, daxili dünyanın xarici təzahürüdür. İlahi nəfəsdən pay alan insan fitrətindəki ilahi ruha sadiq çıxa bilmək üçün kim olduğunu dərk etməlidir. Özünü araşdıran, Nurdan yaranıb Nura dönəcəyindən əmin olan, bu şüurda olan ağıl sahibi Yaradana yaraşmayan xislətdən uzaq durmaq üçün öz üzərində ciddi çalışacaq.

Həqiqəti kəşf edən yalan, zülm, riya, eqo, xəsislik, təkəbbür, özünü bəyənmək, aldatmaq, hiylə, intiqam, inad, rüşvət, yaltaqlıq, qısqanclıq və bu kimi iblisanə xislətdən uzaqlaşır, o, qeyri-etik normativləri özünə rəzillik bilməyən insanlardan uzaqdır. Həqiqəti kəşf edən özünü və Rəbbini bilir. Məqsədi və məramı özünə aydındır. Önümüzə çıxan gözəlliyi, gözəl ətri bütün sevdiklərinə çatdırmaq, ondan danışmaq, o ətri vəsf etmək insanın fitrətidir. Sevdiyini sevdirmək insanın mənəvi ehtiyacıdır. İslam əxlaqına sahib olan insan hər kəsi sevməyi öyrənir - kinsiz, nifrətsiz. Allahın əxlaq hüdudlarını qorumağı özünə mənəvi borc, dəyər hesab edir. Bu səbəbdən, Furqan risalətlə tanış olan Bəyan Kitabı bəyan etmədən yaşaya bilmir. Zikr Kitabı ömür kitabının ana kitabı olur. Zikri öyrənir, zikrlə yaşayır, zikrə təşviq edir.

Bu əxlaq kriteriyasına sahiblənənlər artıq kənar əxlaq prinsiplərini həzm edə bilməz. Yaradanın insan fitrətinə yüklədiyi İslam əxlaqi dəyərləri insanlığın fitrəti, mahiyyətidir. Salam yolunun "biz" məfhumu zədələnsə belə, zaman-zaman vəhdət, tolerantlıq adına fədakar insanlar doğulur və ali missiyaya xidmət edirlər. Gül ətrinə kodlanmış Adəm övladı zaman-zaman özünə qayıdır, millətlər arasında sülhü bərqərar etmək uğrunda insanlığa səslənir və qurbanlar verərək

doğma əxlaqi dəyərlərinə can atır. Quran məntiqindən ayrılan, ilahi aynadan görə bilməyən insan təqlid edərək sürü psixologiyası ilə zəhərlənəcək. Anlamadan, düşünmədən, araşdırmadan, mübahisə etmədən fitrətinə tərs düşən kor-koranə iblisanə baxış bucağına müvafiq ehtirasla libasını soyunacaq. Yaradanın insandan tələb etdiyi "oxu, düşün, araşdır, tədqiq et, xatırla" kimi ali missiyasının ilk mərhələsində büdrəyəcək.

İnsan xatırlasaydı, bölünməzdi. Bölünüb yönləndirilməzdi: **"Allahdan qorxanlara Şeytandan bir vəsvəsə (zərər) toxunduğu zaman onlar (Allahın əzabını, lütfünü və mərhəmətini) xatırlayıb düşünərlər və dərhal (gözləri açılıb) görən olarlar"** [1, "Əraf", 201].

Kərim Kitab neqativ düşüncələrin insana təsir gücünün uzaqlaşması üçün təfəkkür edərək xatırlamağı tövsiyə edir. Həqiqi missiyasını xatırlayan insan öz daxili dünyasını bölünməkdən xilas etməklə yanaşı, cəmiyyəti də, insanlığı da bölünməkdən xilas edə bilər. Özünə yardım edən, əlbəttə, hər kəsə yardım edə bilər.

Allah insanı "biz" təfəkkürünə dəvət edirsə, İblis "mən" - eqo baxışına dəvət edir. Əxlaq nədir? Xaliqin xəlq etdiyi xilqət, öz ruhundan üfürdüyü, ağıl, şüur, idrak, iradə bəxş edilən insanın dirənişi, yetişməsi, kamilləşməsi, ayırd edə bilməsi. İslam əxlaqının təməli vicdan, mərifətdir. Vicdan ilahi səs, çağırış, oyanış, mərifət isə bilmək, oxumaq, araşdırmaq, öyrənməkdir. İslam əxlaqı sərt və ruhsuz deyil. Hər fəaliyyətin başı niyyətdir - saf, səmimi niyyət. Hansı alim, hansı yolu göstərsə belə, "qəlbinə bax, vicdanını dinlə", - deyə nəsihət verəcək. "Mən müsəlmanam" deyən əxlaq sahibinin mənfəət, təmənna kimi məqsədi yoxdur. "Mənə müsəlman olmaq əmr edilmişdir" [1, "Fussilət", 33; 1, "Zumər", 12; 1, "Ənam", 14] təfəkküründəki əxlaq sahibi "bu, mənim vəzifəmdir" – "Allahın razılığından başqa, ilahi nizamın bərpasından, insan ola bilməkdən başqa mənfəətim yoxdur", - deyə düşünəcək və məsul olacaq.

Beləliklə, İslam dini əxlaqın özüdür. Əxlaq sahibi mömin yalnız yaşadıqları, əməlləri və fəaliyyəti ilə deyil, edə bilib etmədiyi ilə haqq-hesab olunacağından əmindir, "ölüm özü dirilişdir" həqiqətini kəşf etmişdir. Allaha sadiq olan siddiq insanın həyatının fəlsəfəsi yaxşılıqdır. Muhsin olmağa can atan İslam əxlaqının sahibi bilir ki, salam əxlaqı fitrətinə kodlanmış bir toxumdursa, bağban kimi səbirli və sevgi dolu olmalıdır. Öz üzərində daim çalışan insan bir valideyn kimi, müəllim kimi insanlığı sevən insanlar yetişdirməklə mükəlləfdir. Təbiətə nəzər salsaq, ən çətin tərbiyə olunan insan övladıdır, bunun üçün ciddi zəhmət tələb olunur. Rəhmət yalnız zəhmətlə əldə edilir. **"...Ey Rəbbimiz! Sənin rəhmin və elmin hər şeyi ehtiva etmişdir..."** ayəsinə [1, "Ğafir", 7] uyğun olaraq bu dünyada ilahi rəhməti idrak edən insan, əlbəttə, səbir və şükürlə silahlanaraq, rəhmət üçün zəhmətə qatlaşmalıdır. Mücadilə tələb edən ənənəvi təkamül yolu heç də asan deyildir. Buğdadan çörək hasil olunması qədər uzun, məşəqqətli, amma xoş məqsəddir. Döyülmək, yoğrulmaq, yanmaq səyahəti olmadan çörəyin ətri yayılmadığı kimi, həyat imtahanlarında budanmadan sözlərin və əməllərin də ətri olmaz.

Nəsəfinin görüşünə əsasən "insanı fikir böhranlarından qurtaran yeganə rəhbər gözəl əxlaqdır.Gözəl əxlaqlı olan bir kimsəyə nə dünyada, nə də axirətdə heç bir pislik üz verməz [4, s.229].

Yaxşını pisdən ayırmaq azdır, əməldə onun tətbiqi çətin və vacibdir. İslah edilməyən nəfs insanı haldan-hala sürükləyir. Özünü bilən qəlbini bilməlidir ki, onun tərbiyə metodlarını mənimsəyərək öz nəfsini, eqosunu tərbiyələndirsin, islah edə bilsin. Furqan Kitabımız nəfsimizin fərqində olduqdan sonra insanın içindəki "mən"in "pisliyə çağıran" deyil, şahid kimi tərbiyə yollarını öyrədir, "mən daha üstünəm" deyil, "mən şahidəm" dedikdən sonra insan əxlaq məktəbinə daxil olur və imtahanlar üçün hazırlanır.

**"İnsanlar (möminlər) yalnız: "İman gətirdik!" – deməlrilə onlardan əl çəkilib imtahan olunmayacaqlarınımı sanırlar? (Xeyr, iman gətirmək şəhadət kəlməsini təkcə dillə demək deyildir. Biz onları yeri gəldikcə malları, övladları və canları ilə sınayacağıq ki, hansının həqiqi, hansının yalançı mömin olduğunu ayırd edib biləki!). Biz onlardan əvvəlkiləri (keçmiş ümmətləri) də imtahana çəkmişdik. Şübhəsiz ki, Allah düz danışanları da (həqiqi iman sahiblərini də), yalançıları da çox gözəl tanıyar! Yoxsa pis əməllər edənlər əzabımızdan sovuşa biləcəklərini güman edirlər? Onlar necə də pis mühakimə yürüdürlər! Hər kəs Allahla qarşılaşacağına (qiyamət günü dirilib Allahın hüzurunda duracağına) ümid edirsə, (ona hazırlaşsın və bilsin ki) Allahın (haqq-hesab üçün) müəyyən etdiyi vaxt mütləq gələcəkdir. Allah (hər şeyi) eşidəndir, biləndir!"** [1, "Ənkəbut", 2-5].

"Kim olduğumuzu xatırladığımızda pislik edə bilməyəcəyik. Çünki hər birimizin ruh olduğunu idrak edəcəyik" [5, s.229].

**"Hansınızın əməlcə daha gözəl olduğunu sınamaq (bəlli etmək) üçün ölümü və həyatı yaradan Odur. O, yenilməz qüvvət sahibidir, (çox) bağışlayandır"** [1, "Mülk", 2].

İlahi əxlaqa, dəyərlərə necə nail olunur, ilk pillələri nələrdir? Bu, geniş, fərqli məqalənin mövzusudur.

Son olaraq qeyd edək ki, dəyişkən olan qəlb Allahın insandakı mənzilidir. Qəlbi xatırlamalı, Xaliqi anlamalı və yaradılış missiyamızı daim düşünməliyik. "Qəlbimizi xatırlamaq" "biz" olmaqdır. "Geri qalanların heç biri biz deyil.

Kitabın ana surəsi "Fatihə" həqiqətimizin açarıdır. Açarın dilləri "biz" olduğumuz zaman qıfılları açacaq. Bizim əxlaqımızın təməli "bizi doğru yola yönəlt" ehtiyacıdır. Yalnız saf qəlblə "biz yalnız Sənə ibadət edir və yalnız Səndən yardım istəyirik" deyərək Xaliqin xəlq etdiyi xilqəti ən mütəkamil dərəcəyə qaldıra bilərik. Bütün müvəffəqiyyət Allahdandır. Aləmlərin Rəbbinə həmd olsun.

"Biz" vahid ilahi sistemi idrak edə bilmək üçün faydalılıq hikmətini bilməli, anlamalı və yaşamalıyıq. Başqalarının mənafeyini düşünməyən, sosial həyat tərzindən özünün "mən" dünyasına qapılan insan, əlbəttə, ilahi hikmətdən məhrumdur.

**"İnsanlar (möminlər) yalnız: "İman gətirdik!" – deməlrilə onlardan əl çəkilib imtahan olunmayacaqlarınımı sanırlar?.."** [1, "Ənkəbut", 2].

**"Hansınızın əməlcə daha gözəl olduğunu sınamaq (bəlli etmək) üçün ölümü və həyatı yaradan Odur. O, yenilməz qüvvət sahibidir, (çox) bağışlayandır"** [1, "Mülk", 2].

"İmanı ən üstün olan kimdir?" - sualı Allah Rəsuluna verildikdə "Əxlaqı ən gözəl olan" -

deyə buyurmşdu. Belə olan halda gözəl əxlaq, insanın gözəl və örnək davranışlarının ən yaxşısı və fəzilətlisidir" [6, s.330].

Beləliklə, Xaliqin xəlq etdiyi xilqət ilahi nizamdır. İnsan da ətrafında şahid olduğu fiziki nizam qanunları kimi daxili və xarici nizamını qorumalıdır. Qəlbin eniş və yüksəlişləri nizamın bir hissəsidir. İnkişaf düzxətli bərabərsürətli hərəkətdə yüksəlişə qalxa bilməz. Adəm Cənnətdən endirilmədən Cənnəti qazana bilməzdi. İlahi nizam fəsillər keçidi ilə həyati əhəmiyyət kəsb edir. Ali həqiqətə üz tutan insan kainatın bir parçası olaraq ilahi nizama təslim olacaq.

## ƏDƏBİYYAT


1. Qurani-Kərim.
2. Cafer Sadık Yaran. İslama göre ahlaki davranış ve kıstasları. İslam ahlakı temel konular güncel yorumlar. Ankara: DİB Yayınları, 2015.
3. Zeynep Özcan. Merhamet Psikolojisi. Zihinsel imgeler işığında merhamet. İstanbul: Çamlıca yayınları, 2020.
4. Prof. Dr. Robert Frager. Kalp, nefs, ruh. Sufi kitap yayınları, 2018.
5. Prof. Dr. İbrahim Düzen. Aziz Nesefi`ye göre Allah, kainat, insan. İstanbul: Furqan yayınları, 2000.
6. Abdulkerim Kuşeyri. Tasavvuf ilmine dair Kuşeyri risalesi. Hazırlayan: Süleyman Uludağ. Dergah yayınları, 2017.

Егана Мирзаева

# КОНЦЕПЦИЯ НРАВСТВЕННОСТИ В ИСЛАМСКОМ ВООБРАЖЕНИИ

## РЕЗЮМЕ

Создатель сотворил человека в самом прекраснейшем образе. Нравственность как, творение Всевышнего, это и есть  порядок, дисциплина и организованность. Исламские моральные ценности, которые побуждают человека стремитья быть лучше, чем прежде, думать и очищаться, проливают свет на наивысшую истину. Оказывая помощь другим человек удовлетвряет свои духовные потребности такие как выражать сострадание ближнему, изменяясь к лучшему, а также приближаться к Создателю. Безвозмездная помощь человечеству - это форма социального служения. Человек, являющийся социальным существом, обращаясь к сердцам ближних может достичь довольства Создателя - борясь с собственными недостатками, постоянно дополняя свой духовный мир, пробуждая в других чувство сострадания и сопереживания.

Yegana Mirzayeva

# ISLAMIC CONCEPT OF MORALITY

## SUMMARY

The Creator created man in the most beautiful image. Morality as a creation of the Almighty is order, discipline and organization. Islamic moral values, which motivate a person to strive to be better than before, to think and purify themselves, shed light on the highest truth. By helping others, a person satisfies his spiritual needs, such as expressing compassion to his neighbor, and changing for the better, as well as arriving at Creator's destination. Gratuitous aid to humanity is a form of social service. A person who is a social being, turning to the hearts of his neighbors, can achieve the contentment of the Creator - fighting his own shortcomings, constantly supplementing his spiritual world, awakening in others a sense of compassion and empathy.

# QUBA ŞƏHƏR MƏSCİDLƏRİ

***Nigar HƏSƏNLİ,***
*Azərbaycan Turizm və Menecment*
*Universitetinin magistrantı,*
*nigar.hesen97@gmail.com*

***AÇAR SÖZLƏR:*** *Qafqaz Müsəlmanları İdarəsi, konservasiya, Quba, tarix, məscid, bərpa.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Управления мусульман Кавказа, консервация, Губа, история, мечеть, реставрация.*
***KEY WORDS:*** *Caucasian Muslims Office, conservation, Guba, history, mosque, restoration.*

Quba Azərbaycanın arxeoloji və memarlıq obyektləri, etnoqrafik materiallar, tarixi hadisə və şəxsiyyətlərlə bağlı olan bina, xatirə yerləri, əşyalar və s. abidələrlə zəngin bir şəhəridir. İslam abidərindən olan məscidlər və pirlər xalqın dini əqidəsi ilə bağlı dəyərlərdir. Quba şəhərində də çox sayda məscid, İslam dini tikilisi, pir mövcuddur. Bunların bir qismi dağılmış, bir qismi isə bərpa olunaraq istifadə edilir.

Biz bu məqalədə Quba şəhərində qorunub saxlanılan və tədqiq etdiyimiz dörd məsciddən söz açacağıq. Məqalədə məscidlərin tikilmə tarixi, illər ərzində necə istifadə edildiyi, bərpa və konservasiyası ilə bağlı məlumatlar işıqlandırılmışdır. Tədqiqat apararkən kitab, qəzet-jurnal materialları ilə yanaşı, Qafqaz Müsəlmanlar İdarəsinin Azərbaycanın şimal bölgəsi üzrə səlahiyyətli nümayəndəsi və qazısının verdiyi məlumatlardan da istifadə etmişik.

VIII əsrdən başlayaraq Azərbaycan ərazisində müsəlman dini tikililərinin - məscidlərin inşasına başlanılmışdır. Füsunkar təbiəti olan Quba rayonunun dini məkanlarının memarlıq abidələri arasında özünəməxsus yeri vardır. Tarix boyu müxtəlif dinlərin təəssübkeşləri Quba torpağında tolerantlıq ənənələrini formalaşdırmış, onu qoruyub saxlamışlar. İslam dini tikililərindən Quba şəhərində bugünədək 4 məscid qalmışdır. Bunlar memarlıq-məkan həlli baxımından bir-birindən fərqlənir. Belə ki, abidələrin müqayisəsi göstərir ki, eyni məqsəd daşıdıqlarına baxmayaraq, onlar müstəqil memarlıq simasına malikdirlər [1].

## Cümə məscidi

Dörd məsciddən ən qədimi Cümə məscididir. Məscid dəbilqəvari günbəzlə tamamlanan səkkizüzlü korpusdan ibarət olub, çox da hündür olmayan kürsülük üzərində yerləşir. Böyük ölçülərə (ümumi hündürlüyü 25 metrə çatır) malik olan Cümə məscidi ətrafdakı tikililər arasında əzəmətlə ucalır [1].

Bu məscid 1802-ci ildə Qazı Nəsrullah əfəndinin oğlu Qazı İsmayıl əfəndinin maddi yardımı ilə tikilmişdir. Rəvayətə görə, usta işini yarımçıq qoyaraq İrana qaçır. İllər sonra

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

qayıdıb işinə davam edəndə niyə belə etdiyini soruşanlara bünövrənin indi möhkəmləndiyini, əgər o zaman tikilsəydi, tez də sıradan çıxacağını deyir. Binanın tikilişi müəyyən fasilələrlə 10 ilə başa çatdırılmışdır [2].

Cümə məscidi təkcə Qubada deyil, ümumilikdə şimal-şərqi Azərbaycanda ən qədim dini mərkəzlərdən biri olmuşdur. Məscid və onun nəzdində olan mədrəsə 1924-cü ilədək fəaliyyət göstərmiş, sovet dövründə onun fəaliyyəti qadağan edilmişdir. 1933-cü ildə mədrəsə, minarə, sonralar digər tikililər dağıdılmışdır [2].

Məscidin tikintisində istifadə olunan zığ kərpiclər rayonun 8-10 kilometrliyində yerləşən İqrığ kəndində hazırlanıb. Tikintidə əsasən un, yumurta və əhəngdən istifadə olunub. Məscidin mehrab hissəsi (qiblə olan tərəfi) Mədinə şəhərindəki "Quba" məscidindəki kimi işlənib [3]. Hər tərəfdən görünən məscidin belə yerləşməsinə onun üzlərinin (tərəflərinin) eyni ölçüdə memarlıq-plastik həlli imkan vermişdir. Səkkiz üzün hər biri həm xaricdən, həm də daxildən çatma tağa bənzəyən düzbucaqlı taxça (oyuq) şəklində işlənmişdir. İqlim şəraiti nəzərə alınaraq, günbəz xaricdən naxışlı dəmir təbəqə ilə bəzədilmişdir [1].

Məscidin günbəzinin daxili səthi həndəsi rəsmlərin relyef ornamentləri ilə örtülmüşdür. Dünya təcrübəsinə əsasən, xəyali hündürlük yaratmaq üçün günbəzin daxili səthində dekorun perspektiv ixtisar üsulundan istifadə olunmuşdur. Belə ki, həndəsi ornamentin elementləri günbəzin zirvəsinə yaxınlaşdıqca ölçü etibarilə azalır ki, bu da onu əzəmətli göstərir.

Ötən əsrin 30-cu illərində şəhərdə olan bir çox abidə laqeydlik, mühafizəkar münasibət nəticəsində dağılmışdır. Bu vəziyyət Cümə məscidinin taleyində də özünü göstərmişdir. Belə ki, onun ərazisində olan karvansara, mədrəsə, minarə məhv edilmişdir. Bununla da, məscidin ətrafında keçmiş tarixi mühiti bərpa etmək imkanı əldən çıxmışdır [1].

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra məscid yenidən dindarların istifadəsinə verilmişdir. Qısa müddət ərzində onun ətrafına şəbəkəli hasar, həmçinin su və kanalizasiya xətləri çəkilmiş, dəstəmazxana və mədrəsənin tikintisi başa çatdırılmış, başqa abadlıq işləri görülmüşdür. Türkiyənin Dini İşlər İdarəsi məscidə minbər bağışlamış, qubalı dindarların xahişlərini nəzərə alaraq, burada hündürlüyü 50 metr olan minarə də inşa etmişdir [4].

**Səkinəxanım məscidi**

Şəhərin köhnə bazar yerində salınmış meydandan bir az aralı dördguşəli Səkinəxanım məscidi yerləşir. Məscidin piştağında olan kitabə ərəb və fars dillərindədir. Üzərində bu sözlər yazılmışdır: "Həqiqətən, Allaha və axirətə inananlar Allahın məscidini təmir edən kimsələrdir. Peyğəmbər (ona salam olsun) hədislərdən birində belə buyurmuşdur: "Quş qəfəsi qədər də olsa, hər kəs bir məscid tikdirsə, Allah onun üçün Cənnətdə bir qəsr tikər...". Məscid böyük Azərbaycan yazıçısı və tarixçisi Abbasqulu ağa Bakıxanovun xatirəsini əbədiləşdirmək üçün həyat yoldaşı Səkinə xanım inşa etdirmişdir [5]. Lakin məscidin inşası Səkinə xanımın vəfatından sonra, hicri 1271-ci ilin məhərrəm ayında (miladi 1854-cü il sentyabr) yekunlaşmışdır.

Abbasqulu Mirzə Məhəmməd oğlu Bakıxanov 21 iyun 1794-cü ildə Əmircan, Bakı

xanlığında anadan olmuşdur. Azərbaycan şairi, yazıçısı, alimi, mütəfəkkiri və tərcüməçisi, Azərbaycanın ilk tarixçisi hesab olunur.

XIX əsr Azərbaycan maarifçilərindən biri olan Abbasqulu ağa Bakıxanov "Gülüstani-İrəm" əsəri ilə Azərbaycan tarixşünaslıq elminin əsasını qoymuşdur. "Qüdsi" təxəllüsü ilə Azərbaycan, ərəb və fars dillərində şeirlərin müəllifidir. Qubada "Gülüstan" adlı elmi-ədəbi məclisin (1835) təşkilatçılarından biri olmuşdur.

1820-1830-cu illərdə çar Rusiyası ordusunda qulluq etdiyi zaman Gülüstan (1813) və Türkmənçay müqavilələrinin (1828) imzalanmasında tərcüməçi kimi iştirak etmişdir.

1847-ci ilin may ayının 31-də Məkkədə vəfat etmişdir [6].

Məscid bir otaqdan ibarətdir, binası bişmiş kərpicdən inşa olunmuşdur. Bina dördbucaqlı şəkildə tikilmiş və 9 pəncərəsi, 2 qapısı var. Məscidin əsas giriş qapısı şimal tərəfdəndir. Onun bayır tərəfdən qapısının üstündə ərəb əlifbası ilə yazılmış lövhə var. Məscidin günbəzi xaricdən ağ dəmirlə örtülmüşdür. Günbəzin üstündə məscidin şərəfəsi yerləşir. Şərəfəyə çıxmaq üçün yer məscidin içindədir. Məscidin içəridən hündürlüyü 20 m, ümumi hündürlüyü isə 27 m-dir [4].

Döşəməsi daş plitələrlə örtülüb, tavanı dörd böyük sütun üzərində dayanıb. Minbər qoz ağacından düzəldilib və səkkizpillələidir. Məscidin interyeri çox nəfis şəkildə işlənib. Yerdən günbəzədək məsafə 9 metrdir. Günbəzin diametri 4,5 metrdir. Dam və günbəzin üstü dəmir təbəqə ilə örtülüb. Məscidin nəzdində 1994-cü ildən fəaliyyət göstərən mədrəsə də var. Məscidin binasından sovetlər dövründə tikiş fabriki kimi istifadə edilmişdir [7].

Qafqaz Müsəlmanlar İdarəsinin Azərbaycanın şimal bölgəsi üzrə səlahiyyətli nümayəndəsi və qazısı Naib Səttarovun verdiyi məlumata görə, bir müddət tikiş atelyesi kimi fəaliyyət göstərən məscid baxımsız vəziyyətə düşüb. 1988-ci ildə "Telegüzgü" verilişində məscidlərin vəziyyəti haqqında çarx nümayiş olunub. Bundan sonra müəyyən bərpa işləri görülüb, lakin 1991-ci ildə Quba Rayon İcra Hakimiyyətinin başçısı tərəfindən əsaslı təmirlə açılışa icazə verilib. Hazırda məscidin həyət hissəsində əlavə yardımçı otaqlar tikilmişdir.

**Ərdəbil məscidi**

Bəzi rəvayətlərə görə, Ərdəbil məscidinin inşası Qubanın yaranması ilə bağlıdır. Firudin bəy Köçərlinin fikrincə, Nadir şah hicri tarixi ilə 1147-ci ildə (m.1734) Şabranla Dərbənd arasında bağ-bağatlı bir yerdə istirahət etmək üçün dayanır. Oranın gözəlliyi və iqliminə valeh olan şah bu yerdə şəhər salmağı əmr edir. Nəticədə Ərdəbildən gələn ustalar burada yaşayış, ticarət və ictimai binalar tikməyə başlayırlar. Beləliklə, Qubada taxtadan ilk dini bina - Ərdəbil məscidi tikilir.

Məscidin əlimizdə olan, 1859-cu ilin avqustunda yazılmış qısa təsvirində deyilir: "Bakı darvazalarına çatmağa bir neçə sajen qalmış şiə məzhəbinə məxsus köhnə bir məscid var. Məscid nazik taxta damlı böyük dördüzlü gövdəyə malikdir. Damı kəsik piramida formalıdır. Ortasında ağacdan tikilmiş müxtəlif naxışlı zərif bir minarə ucalır".

1894-cü ildə taxta məscidin yerində kərpicdən yeni məscid binası ucaldılmışdır. Sonralar

camaat bu yaşayış massivini "Ərdəbil məhəlləsi» adlandırmışdır. Həmin məhəllənin ərazisində tikilmiş ticarət kompleksinə karvansara, hamam və məscid daxil olmuşdur [8].

Ərdəbil məscidinin hər tərəfdən görünən yerdə tikilməsi onun fasadlarının eyni memarlıq-məkan həllinə şərait yaratmışdır. Dörd fasadın hamısında şiş uclu çatma tağla tamamlanan haşiyəli pəncərələr var. Giriş qapısı günbəzlə tamamlanır. Sadə formalı pərvaz binanın kompozisiyasını bitkinləşdirir və çadır üçün özül rolu oynayır. Cənub fasadın divarlarındakı ərəb dilində olan kitabədə məscidin yenidən qurulma tarixi 1312-ci il (1893-1894) göstərilir [8].

Namaz zalı isə düzbucaqlıdır. Şimal tərəfdən zala düzbucaqlı vestibül və xidmət otağı bitişir. Onların üstündə qadınlar üçün eyvan da tikilmişdir. Məscidin kişilər və qadınlar üçün ayrı-ayrı girişləri vardır.

Naib Səttarovun sözlərinə görə 1967-ci ildə arxiv kimi istifadəyə verilən tikili 1980-ci ilin iyun ayında elektrik xəttində baş vermiş qəza nəticəsində yanmışdır. Bu zaman məscidin bütün taxta hissələri yanmış, nəticədə binaya böyük ziyan dəymişdir. Bundan sonra sakinlər arasında məscid "yanan məscid" olaraq da adlandırılmışdır. Onun yenidən bərpası ilə demək olar ki, uzun müddət məşğul olunmamış, beləliklə, məscid get-gedə uçub məhv olmaq təhlükəsi altında qalmışdır. Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətində saxlanılan çertyojlar əsasında onun bərpa layihəsi işlənib hazırlanmışdır.

Bərpa işlərində üç üsuldan (konservasiya, hissəvi bərpa, tam bərpa) istifadə edilir. Konservasiyanın əsas məqsədi memarlıq abidəsini bizə gəlib çatmış şəkildə qoruyub saxlamaqdır. Hissəvi bərpa isə abidənin ayrı-aynı hissələrinin bərpası məqsədini daşıyır. Konservasiya və hissəvidən fərqli olaraq, tam bərpa zamanı abidənin ilkin həcm-məkan quruluşunun tamamilə bərpa olunması nəzərdə tutulur. Başqa sözlə desək, bu üsuldan istifadə edib abidənin ilkin şəkli bərpa edilir. Ərdəbil məscidinin bərpasının bu cür həlli məqsədəuyğundur. Çünki onun bütün memarlıq, arxeoloji ölçü sənədləri vardır. Məscidin, ilk növbədə, müəzzinin camaatı namaza səslədiyi hissəsi bərpa edilmiş, sonra isə namaz zalını üç hissəyə bölən iki cərgə taxta sütun bərpa edilmişdir [8].

Məscidin zərif və incə şəbəkəli balkonu da bərpa edilmişdir. Bu balkon məscidin qadınlar və kişilər üçün nəzərdə tutulmuş hissələrini bir-birindən ayırır və eyni zamanda interyerə xüsusi yaraşıq verir [8].

**Hacı Cəfər məscidi**

Hacı Cəfər məscidi Quba sakini Hacı Cəfərin şəxsi vəsaiti hesabına 1905-ci ildə tikilmişdir. Lakin icma olaraq "Hacı Baba" kimi qeydiyyatdan keçib. 1948-ci ildə açıq olan yeganə məscid olmuşdur.

Ermənilər Qubada soyqırımı törədən zaman qocaları, qadınları və uşaqları bu məscidə toplayıb diri-diri yandırmaq istəyiblər. Həmin vaxt məscidin axundu olmuş Hacı Baba bunun qarşısını almışdır. Hacı Baba evində kimsəsiz erməni qızlarını öz qızları kimi böyüdüb, saxlayıb və bunu ermənilərə bildirib. Deyib ki, "biz sizin qızlarınıza öz övladlarımız kimi baxırıq,

əvəzində siz bizi öldürmək istəyirsiniz". Bundan sonra düşmənlər öz niyyətlərindən əl çəkiblər, soydaşlarımız xilas olublar.

Hacı Cəfər məscidi bir çox məscid kimi Qızıl Ordu tərəfindən ələ keçirildikdən sonra müxtəlif məqsədlər üçün istifadə olunmuş, 1944-cü ildən sonra isə yenidən məscid kimi fəaliyyətinə davam etmişdir.

Məscid bişmiş kərpicdən inşa olunmuşdur və dörd otaqdan ibarətdir. Əsas girişi şimal tərəfdəndir. Mehrab qapı ilə üzbəüz yerləşib. Əsas zalın ortasında tavan örtüyünü saxlamaqdan ötrü iki ədəd sütun vardır. Qadınlar üçün ayrılmış kiçik zal ikinci mərtəbədə yerləşir. Məscidin günbəzi xaricdən ağ dəmir ilə örtülmüşdür. Məsciddə mismardan istifadə edilmədən hazırlanan qədim oyma naxışlı qapı qorunub saxlanıb. 1983-cü ildə bərpa olunan məscid hazırda fəaliyyət göstərir [9].

## ƏDƏBİYYAT


1. G.Mehmandarova - Məmmədbəyova. Quba və Qubalılar. s.124.
2. https://az.wikipedia.org/wiki/C%C3%BCm%C9%99_m%C9%99scidi_(Quba)
3. https://sputnik.az/life/20170428/410032640/quba-ehalisinden-misilsiz-qehremanliq.html
4. Qubanın XIX əsr abidələri // "Azadlıq" qəzeti, 2013-cü il, 20 noyabr.
5. Nazif Qəhrəmanov // «Qobustan» jurnalı, 1984, səh. 89-92.
6. https://az.wikipedia.org/wiki/Abbasqulu_a%C4%9Fa_Bak%C4%B1xanov
7. http://shahdagpeoples.az/muellifler/419-lqar-balakishiyev.html
8. Kamal Məmmədbəyov, Gülnarə Mehmandarova // "Elm və həyat" jurnalı, 1991, səh. 26.
9. https://az.wikipedia.org/wiki/Hac%C4%B1_C%C9%99f%C9%99r_m%C9%99scidi

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

Нигяр Гасанлы

## ГУБИНСКИЕ ГОРОДСКИЕ МЕЧЕТИ

### РЕЗЮМЕ

Губа богата историческими памятниками, археологическими и архитектурными объектами, этнографическими материалами, зданиями, памятниками и объектами, связанными с историческими событиями и личностями. Мечети и святыни, являющиеся религиозными памятниками, представляют собой ценности, связанные с религиозными убеждениями людей. В Губе много мечетей, культовых сооружений и святынь, некоторые из которых были разрушены, а некоторые восстановлены.

В этой статье мы расскажем о 4 сохранившихся мечетях в Губе. Была собрана информация об истории строительства мечетей, о том, как они использовались на протяжении многих лет, реставрации и консервации. В статье наряду с книгами, газетами и журналами представлена информация, предоставленная Хаджи Наибом Саттаровым, уполномоченным представителем Управления мусульман Кавказа в северном регионе Азербайджана.

Nigar Hasanli

## GUBA CITY MOSQUES

### SUMMARY

Guba is rich in historical monuments, archaeological and architectural objects, ethnographic materials, buildings, monuments and objects related to historical events and personalities. Mosques and shrines, which are religious monuments, represent values associated with the religious beliefs of people. There are many mosques, religious buildings and shrines in Guba, some of which have been destroyed and some of which have been restored.

In this article, we will talk about the four preserved mosques in Guba. The article covers the history of construction of mosques, how they have been used over the years, restoration and conservation. Along with books, newspapers and magazines, we used the information provided by Haji Naib Sattarov, an authorized representative of the Caucasian Muslims Office in the northern region of Azerbaijan.

# MİR MÖHSÜN NƏVVABIN ŞUŞA ÇAPXANASI VƏ NƏŞRLƏRİ

***Nailə SÜLEYMANOVA,***
*AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutu,*
*ilahiyyat üzrə fəlsəfə doktoru, dosent.*

***AÇAR SÖZLƏR:*** *Qədim, əsər, nüsxə, kitab.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Древний, произведение, копия, книга.*
***KEY WORDS:*** *Ancient, work, copy, book.*

Türk və fars dillərində müxtəlif elm sahələrini əhatə edən çoxsaylı əsərlərin müəllifi Mir Möhsün Nəvvab uzun illər - istər yaşadığı, istər sovet, istərsə də müstəqillik dövrlərində - dəfələrlə tədqiq edilmiş şəxsiyyətlərdən biridir. Biz isə bu məqalədə ilk dəfə olaraq Nəvvabın Şuşadakı çapxanası və bu çapxananın nəşrlərindən bəhs etmək istəyirik.

Azərbaycanın elm və mədəniyyət tarixində mühüm yer tutan Nəvvab 1833-cü ildə Şuşa şəhərində anadan olmuşdur. Təhsilini Şuşada almış, türk, ərəb, fars ədəbiyyatına dərindən yiyələnmiş, həmçinin şair kimi Şuşa ədəbi məclislərinin fəal iştirakçısı olmuşdur. Çoxsaylı şeirlərin müəllifi olan Nəvvab türk və fars dillərində müxtəlif elm sahələrini əhatə edən əsərlər də yazmışdır. O, ədəbiyyata aid "Təzkireyi Nəvvab", "Divani əşari türki" , "Kəşf əl-həqiqeyi məsnəvi", tarixə dair "Bəhr əl-həzən", "Tarixi rəzmi erməni və müsəlman" və digər elmi, ədəbi-bədii əsərlərin müəllifidir.

Nəvvab musiqi sahəsində də hərtərəfli biliyi ilə seçilmiş və 1883-cü ildə musiqiyə dair "Vuzuh əl-Ərqam" adlı risalə yazmışdır. Klassik Azərbaycan muğamatına dair bu əsərin yeganə avtoqraf nüsxəsi AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılır. Müəllif əsərdə musiqinin yaranma tarixini verməklə yanaşı, muğamatın guşə və şöbələrini cədvəllərdə izah etmişdir.

Nəvvab riyaziyyat, kimya və astrologiya ilə də maraqlanmışdır. Onun evində iki teleskoplu kiçik bir rəsədxana və kimya laboratoriyası var idi. O, 1899-cu ildə türk dilində "Kifayətul-ətfal" adlı astrologiyadan bəhs edən əsər yazmışdır. Bu əsərdə rus, türk və fars dillərində ayların adlarından, günlərin sayından, ulduzlardan və Günəşin tutulmasından bəhs olunur. Nəvvab Günəşin tutulmasının səbəblərini və planetlərin vəziyyətinin izahlarını zərli və digər rəngli boyalarla vermişdir. Əsərin üç avtoqraf əlyazma nüsxəsi Füzuli adına Əlyazmalar İnstitutunda qorunmaqdadır.

Çoxşaxəli yaradıcılığa malik Nəvvab mahir xəttat və rəssam da olmuşdur. Belə ki, o, ornamental divar rəsmləri çəkmiş, gözəl xətlə yazdığı əlyazma nüsxələrinin və şəxsi mətbəəsində daşbasma üsulu ilə çap etdiyi kitabların illüstrasiyalarını vermiş, gül və quş təsvirləri, portretlər çəkmişdir. Nəvvabın ikimərtəbəli mülkünün otaqlarını öz əlləri ilə müxtəlif naqşlərlə gözəl bəzədiyi haqqında da məlumat vardır. Onun müəllifi olduğu əsərlərin avtoqraf nüsxələri arasında

1864-cü ildə fars dilində yazdığı və əsərin mövzusuna uyğun olaraq miniatürlərini çəkdiyi “Bəhrul-həzən və kənzul-mühən” adlı əsər gözəl nümunələrdən hesab edilir. Miniatürlərdə əsərin mövzusuna uyğun olaraq Kərbəlada baş vermiş müsibətlər, müharibə səhnələri, İmam Hüseynin şücaətləri və s. təsvir olunmuşdur. Nəvvab 1918-ci ildə Şuşa şəhərində vəfat etmişdir [1, s.18; 2, s.192].

Mir Möhsün Nəvvabın həyat və yaradıcılığı haqqında bu qısa məlumatla kifayətlənərək onun çapxanası və bu çapxanada nəşr edilmiş əsərlərindən bəhs etmək istəyirik. Onun çapxanası haqqında bir-iki cümlə həcmində ilk məlumata N.M.Miklaşevskayanın[1] məqaləsində rast gəldik. Daha dolğun məlumatı isə Mirzə Xosrov Şaiq Axundzadə (v.1960) öz əsərində yazmışdır. Mirzə Xosrov 1906-cı ildən başlayaraq 1956-cı ilədək Şuşanın müxtəlif məktəblərində müəllim işləmiş, Qarabağın tarixi və şəxsiyyətləri haqqında tədqiqatlar aparmışdır. Onun sovet dövrünün istehsalı olan 20 dəftərxana vərəqində əski əlifba ilə türk dilində yazdığı, Şuşanın görkəmli şəxsiyyətlərindən və onların mülklərindən bəhs edən avtoqraf əlyazma nüsxəsi Əlyazmalar İnstitutunda mühafizə edilir. Bu əsərdə Mirzə Xosrov Nəvvabın Şuşada yerləşən çapxanası, çap üsulu və cildxanası haqqında məlumat vermişdir. Əsərdən Nəvvabın çapxanası haqqında yazılmış bəzi hissələri transfonoliterasiya edib diqqətinizə çatdırmaq istəyirik:

“Mir Möhsün Nəvvabın Gövhəriyyə məscidinin[2] cənubunda olan mənzillərinin birində çapxanası yerləşirdi. Nəvvab Gülablı kəndindən “çirət-çirət” deyilən daş gətirib, onun vasitəsi ilə kitabçalar və bəzi xırda şeirlər çap etdirirdi. Əvvəlcə çap üçün istifadə etdiyi daş çox balaca idi. Sonralar böyük bir daş gətirib çap işini davam etdirdi. Bu daş vasitəsi ilə zərli nəqşli şəkillər də çıxarırdı. Bu qayda üzrə həmin daşla bir çox şeir kitabçaları çap etdirmişdir... Kitabların üstü müxtəlif güllər və bülbül rəsmləri ilə bəzədilmişdir...” [3 , s.13]

Daha sonra isə müəllif Mir Möhsün Nəvvabın çap üsulundan yazmış və çap daşının Şuşada saxlandığını qeyd etmişdir. Əsərdən məlum olur ki, Şuşada həmçinin Nəvvabın açdığı cildxana da fəaliyyət göstərmişdir. Mirzə Xosrov əsərində cildxananın Gövhəriyyə məscidinin cənubunda olan mənzillərin ikisində yerləşdiyini yazır. Nəvvabın böyük oğlu Mir İbrahim cild sənətini öyrənmiş və sonralar cildxanada işləmişdir. Nəvvab “sonra belə bir elan verdi ki, cild işini öyrənmək arzusunda olan hər kəs Şuşada qeyd olunan ünvana müraciət etsin. Bu vasitə ilə gənclərdən bir çoxu cild sənətini öyrənməyə nail oldular” [3 , s.20].

Əsərdə Mirzə Xosrov “...hal-hazırda Mir Möhsün Nəvvabın çap daşı ilə çap etdirdiyi kitabları əldə etmək çətindir” ifadələrini yazsa da, Füzuli adına Əlyazmalar İnstitutunda Nəvvabın əsərlərinin avtoqraf əlyazma nüsxələri ilə yanaşı, onun öz çapxanasında nəşr edilən əsərlərinin də nüsxələri saxlanılır. Şuşada Nəvvabın çapxanasında nəşr olunan nüsxələr aşağıdakılardır:

**“Divani-farsi” (XVI-175)**

Nüsxəyə Nəvvabın fars dilində yazdığı şeirlər daxil edilmişdir. **Əsər** 128 səhifə və 16x23,5 sm ölçüsündə olub, 1897-ci ildə nəşr edilmişdir. İlk vərəqdə ağ-qara rəngli bülbül rəsmi çəkilmişdir. Sərlövhə zərlə təzhiblənmiş və eyni rənglə də yazılmışdır. Bu nüsxəyə qəzəl, rübai,

1 Миклашевская Н.М. Художники 19 в. Мирза Кадым Эривани и Мир Мохсун Навваб, в кн.: Искусство Азербайджана, [т.] 4, Баку, 1954, с. 102-108.

2 Müəllif “Yuxarı Gövhər” məscidini nəzərdə tutmuşdur.

Hafiz Şirazi və Sədi Şirazinin şeirlərinə yazılmış təxmislər daxil edilmişdir. Kitabın sonluğu da gözəl tərtibatlı olub, zərlə yazılmışdır.

**"Divani-farsi" (X-447)**

Nüsxəyə Nəvvabın fars dilində yazdığı müxtəlif məzmunlu qəzəl, rübai və şeirləri daxil edilmişdir. Əsər 127 səhifə və 10x22 sm ölçüsündə olub, 1898-ci ildə nəşr edilmişdir. Sərlövhə və sonluq zərlə təzhiblənərək yazılmışdır.

**"Kitabi-Divani-farsi və türki" (XV-50)**

Nüsxə fars və türk dillərində şeirlərin daxil olduğu əsərdir. Əsər 49 səhifə və 15,5x22 sm olub, 1897-ci ildə nəşr edilmişdir. Sərlövhə zərlə təzhiblənərək yazılmışdır. Bu nüsxəyə müxtəlif məzmunlu şeirlər daxil edilmişdir. Son vərəqdə isə ağ-qara rəngli bülbül rəsmi çəkilmişdir.

Əlyazmalar İnstitutunda Nəvvabın fars (B-3037; B-5234 və s.) və türk dillərində (B-7548; B-2721 və s.) avtoqraf əlyazma divan nüsxələri mühafizə edilir.

**"Kəşful-həqiqeyi-məsnəvi" (X-1081)**

Bu əsərin ayrı-ayrılıqda iki və həmçinin tam bir nüsxədə toplanmış üç cildinin çap nüsxələri Əlyazmalar İnstitutunda mühafizə edilir. Əsərin tam üç cildlik nüsxəsinin (X-905) ölçüsü 15,5x22,5 sm-dir. Bu nüsxədə birinci cild 92, ikinci cild 60, üçüncü nüsxə isə 78 səhifədir. Nüsxədə mətn iki sütunda yazılmışdır. İlk vərəqdə müxtəlif rəngli güllər çəkilmişdir. Kitabın adı isə qızılı rənglə dairəyə alınaraq, eyni rənglə də yazılmışdır. Hər cildə tərtib edilən sonluqlar da eyni qaydada qızılı rəng ilə dairəyə alınaraq təzhiblənmişdir. Bu sonluqlarda qeyd edilmiş tarixlərdən aydın olur ki, ilk nüsxənin nəşrinə 1896-cı ildə başlanılsa da, tam nüsxə halında 1905-ci ildə çap edilmişdir. Əsərə Nəvvabın fars dilində yazılmış mənzumələri və təmsillər şəklində nəsihətləri daxil edilmişdir. Nəsihətlər müxtəlif məzmunlu olub, cəhalət, hiyləgərlik, tənbəllik kimi pis əməllərdən uzaq durmağın və təhsil almağın xeyirlərindən bəhs edir. Nəvvab nəsihətləri yazarkən atalar sözlərindən istifadə etmişdir. Qeyd edək ki, nüsxədə təmsillərin yazıldığı səhifələrdə mətnə aid rəngli heyvan rəsmləri çəkilmişdir.

Əsərin 1894-cü ildə ayrılıqda nəşr edilən birinci cildi (X-1081) 92 səhifə olub, 15,5x22,5 sm ölçüsündədir. Nüsxədə mətn iki sütunda yazılmışdır. İlk vərəqdə müxtəlif rəngli güllər çəkilmişdir. Kitabın sərlövhəsi və sonluğu zərlə təzhiblənərək tərtib edilmişdir.

Əsərin 1899-ci ildə ayrılıqda nəşr edilən ikinci cildi isə (X-458) 60 səhifə olub, 15,5x22,5 sm-dir. Nüsxədə mətn iki sütunda yazılmışdır. Kitabın sərlövhəsi və sonluğu zərlə təzhiblənərək tərtib edilmişdir.

Əlyazmalar İnstitutunda "Kəşful-həqiqeyi-məsnəvi" adlı əsərin üç avtoqraf əlyazma nüsxəsi də (B-475, B-863, M-79) mühafizə edilir. Hər üç nüsxə üçün müxtəlif rəngli çiçək motivləri ilə təzhiblənən sərlövhə tərtib edilmişdir. Əlyazmalar bədii tərtibatına görə zövqlə hazırlanmışdır.

Nəvvab yuxarıda adı çəkilən əsərlərin müəllifi, katib və tərtibçisi olmaqla yanaşı, şəkil və miniatürlərin də rəssamıdır. Nüsxələr eyni qaydada karton cildə tutulmuşdur. Bütün nüsxələrin sonluğunda kitabın Şuşa, Qarabağda çap olunduğu haqqında da məlumat verilmişdir. Tarixlərin yazılışında isə Nəvvab hicri qəməri təqvimlə bərabər, miladi təqvimləri də sonluqda qeyd etmişdir.

Nəvvabın Şuşa çapxanasında digər müəlliflərin əsərləri də nəşr edilmişdir. Hazırda Əlyazmalar İnstitutunda Nəvvabın çapxanasında nəşr edilmiş Mir Mehdi Xəzani Haşımzadənin (v.1894) uşaqlar üçün müsəlman dini ehkamına dair fars və türk dillərində yazdığı "Şəriul-İslam" adlı mənzum əsər (X-1004) mühafizə edilir. Əsər 55 səhifə, 10,5x17 sm ölçüsündə olub, 1884-cü ildə nəşr edilmişdir. Nüsxə sadə tərtibatlı olub, mətni iki sütunda yazılmışdır. Cildi kartondur. Çox güman ki, Nəvvabın çapxanasında digər müəlliflərin əsərləri də çap edilmişdir. Lakin hazırda tədqiqat zamanı ancaq bu kitaba rast gəldik.

Beləliklə, Mir Möhsün Nəvvabın geniş elmi-bədii fəaliyyəti ilə yanaşı, Şuşanın ictimai həyatında da böyük xidmətləri olmuşdur. Bu xidmətlərdən birinin onun qurduğu çapxananın olduğunu deyə bilərik. Hazırda Əlyazmalar İnstitutunda mühafizə edilən çapxananın nəşrləri uzun illər keçməsinə baxmayaraq, öz ilkin vəziyyətini qoruyub saxlamışdır. Müxtəlif rəng çalarlarından istifadə olunaraq tərtib edilən kitablarda rəng solğunluğu və mətnin pozulması hallarına rast gəlmədik. Bu isə əlbəttə ki, nəşrin keyfiyyətli olduğuna dəlalət edir.







## ƏDƏBİYYAT


1. ASE, cild VII. Bakı: 1983.
2. Əhmədov H. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: Elm və təhsil, 2014.
3. Çingizoğlu Ə. Axundovlar: Mirzə Məhəmməd Qarabağinin törəmələri // "Soy dərgisi. Bakı: 2010.
4. Axundzadə M.X. Şuşa şəhərinin məşhur şəxsiyyətlərinin həyatı və mülkləri. S-496 (əlyazma).
5. Çingizoğlu Ə. Mamayevlər // "Soy" dərgisi. Bakı: 2011.
6. Çingizoğlu Ə. Vəzirovların soyu // "Soy" dərgisinin özəl buraxılışı. Bakı: 2008.
7. Миклашевская Н.М. Художники 19 в. Мирза Кадым Эривани и Мир Мохсун Навваб, в кн.: Искусство Азербайджана, [т.] 4. Баку: 1954, с. 102-108.

Наиля Сулейманова

## ТИПОГРАФИЯ И ПУБЛИКАЦИИ МИР МОХСУНА НАВВАБА В ШУШЕ


### РЕЗЮМЕ

Один из самых известных карабахских авторов - Мир Мохсун Навваб.

Навваб жил в Шуше и открыл там типографию. В этой типографии издавались уникальные книги. Копии этих книг хранятся в Институте рукописей имени Мухаммеда Физули НАНА. В этом исследовании мы предоставим информацию об этих книгах и типографии Навваба.


Naila Suleymanova

## MIR MOHSUN NAWWAB'S SHUSHA PRINTING HOUSE AND PUBLICATIONS


### SUMMARY

One of the famous Karabakh authors is Mir Mohsun Nawwab. Nawwab lived in Shusha and opened a printing house there. Unique books had been published in this printing house. Copies of these books are kept at the Institute of Manuscripts named after Mahammad Fuzuli of ANAS. We will provide information about these books and Nawwab`s printing house in this study.

# XALQ POEZİYASINDA İNSAN VƏ GERÇƏKLİK MÜNASİBƏTLƏRİ

***Fəxrəddin QULİYEV,***
*Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi,*
*fakhraddin.kuliev@mail.ru*

***AÇAR SÖZLƏR:*** *insan, gerçəklik, kainat, cəmiyyət, İslam, ədalət, mənəviyyat.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *человек, действительность, вселенная, общество, ислам, справедливость, мораль.*
***KEY WORDS:*** *man, reality, universe, society, Islam, justice, morality.*

İnsan və gerçəklik arasındakı münasibətlər qədim zamanlardan mütəfəkkirlərin diqqət mərkəzində olmuşdur. Məhz insan və gerçəklik münasibətləri kontekstində insan həyatının mənası və onun özünüdərk məsələsi elmi-nəzəri əhəmiyyət kəsb edir.

Əsrlər boyu insanın onu əhatə edən xarici dünyaya münasibəti gündəlik həyat təcrübəsi və adi şüur əsasında formalaşmışdır.

Xalq poeziyasının əsas mövzularından biri varlığa münasibət və bu münasibətin metaforik dildə poetik ifadəsidir. Bizi əhatə edən dünya sirri-müəmmalarla doludur. Gerçəklik özündə hansı qanunauyğunluqları gizlədir? Ustad aşıqlarımız öz ustadnamələrində bu mövzulardan söhbət açır, oxucularda bu sirlərə yiyələnmək həvəsi oyadır və onları diskussiyaya dəvət edir.

De necə qurulub dünya binası?
Aşıqlıq sözünün nədir mənası? [1, s.3]

Baxdığımız mövzu kontekstində "dünya binası" konsepti "zəmini-asiman" konseptinə uyğundur, konseptin mənası yerlə göyü əhatə edir. Aşıqlarımız "zəmini-asiman" dedikdə, ümumi mənada kainatı nəzərdə tutublar. Aşıq Hüseyn Bozalqanlı bu iki misrada qoyduğu ritorik sualla aşıq sənəti qarşısında duran nəzəri-praktiki problemləri xatırladır. Aşıq kainatdan başlayaraq cəmiyyətdə baş verən proseslərdən xəbərdar olmalı, harmonik insan şəxsiyyətinin formalaşmasında söz sənətinin imkanlarından ustalıqla istifadə etməyi bacarmalıdır.

İnsan və gerçəklik münasibətlərinin tədqiqi tarixi çox qədimdir. Hələ qədim şumer miflərində tanrılar insana bənzədilmiş, dünyanın və cəmiyyətin fövqəltəbii qüvvə tərəfindən yaradıldığı, təbiət və cəmiyyətin strukturunda harmoniyanın mövcudluğu göstərilmişdir [2, s.101-111]. Şumer mifologiyasında dünyanı fövqəltəbii qüvvənin idarə etməsi və ilahi sözün yaradıcı qüvvəyə malik olması fikirlərinə də rast gəlirik. Bu miflərdə insanın – mikrokosmosun makrokosmosa – universuma münasibətində antromorfluq diqqəti cəlb edir. "Avesta"da insan bədəni dünyanın oxşarı kimi qəbul edilir [3, s.64].

Kainatın vahid qüvvə tərəfindən idarə olunması ideyası XX əsrdə fiziklərin tədqiqatları nəticəsində elmi cəhətdən əsaslandırıldı. Müasir elmin son kəşfləri sübut edir ki, bu vahid qüvvə

elektromaqnit dalğaları, qravitasiya, zəif və güclü qarşılıqlı təsir qüvvələrindən ibarətdir. Son elmi kəşflərdə fövqəltəbiinin elementləri özünü açıq şəkildə büruzə verir, bu səbəbdən müasir nəzəriyyəçi fiziklərin bir qismi dünyanın fövqəltəbii qüvvə tərəfindən idarə olunduğu fikrini qəbul edirlər.

Müasir elmi baxışlara görə, kainat vakuum vəziyyətindən "inflyasiya ssenarisinə" əsasən protonun milyarddabir hissəsindən bir neçə santimetrə qədər ölçüyə malik hissədən yaranmışdır [4, s.211]. Bu partlayışlardan sonra kainatda yaranan harmoniya və nizamlılıq da fövqəltəbii qüvvənin sayəsində mümkündür.

Müqəddəs Kitabımız Qurani-Kərimdə kainatın yaranması haqqında oxuyuruq: **"O, göyləri və yeri (yoxdan) var edəndir..."** [5, "Ənam"].

Azərbaycan xalq poeziyasında kainatın yaranması haqqında müdrik fikirlər mövcuddur [6]. Aşıq Hüseyn Bozalqanlı özünün "Mərd" divanisində kainatın yaranması, onun vahidliyi və intəhasız sirri-müəmmaları haqqında yazır:

Ay ağalar, bircə gördüm xaliqi-sübhanı mərd,
Bir dürdən xəlq eylədi zəmini-asimanı mərd.
Yetmiş min il xali qaldı, cahan oldu tiri-tar,
Əmr olundu, şəms-qəmər dolandı dünyanı mərd [1, s.38].

Şair göstərir ki, ulu Tanrı hər şeyə qadirdir və ikinci belə bir qüdrət sahibi yoxdur. İkinci misrada isə yerdən-göyə qədər hər bir şeyin, yəni bizi əhatə edən maddi aləmin kiçik bir zərrədən yaratdığı fikrini söyləyir. Hər bir varlığın əsasını təşkil edən bu zərrəni çox yüksək qiymətləndirən ustad sənətkar onu "dürr" adlandırır. Burada bizi əhatə edən maddi dünyanın, kainatın mənşə eyniliyinə eyham diqqəti cəlb edir. Kainat "böyük partlayış"lar nəticəsində kiçik bir zərrədən, "dürr"dən yaranmışdır. Kainatın daxili vəhdəti ideyasının əsasında da bu fikir dayanır.

Kainat əvvəlcə zülmət qaranlıq içərisində olmuşdur. İlahinin əmri ilə Günəş və Ay yaranmış, kainata işıq salmışlar.

Bütün canlı aləmin həyatı üçün çox zəruri olan işıq informasiya və enerji daşıyıcısıdır. Müxtəlif işıq şüaları kainatın sirlərinə yiyələnmək üçün aparılan tədqiqatlarda həlledici rol oynayır. İşıq kainatda mövcud olan harmoniyanı yaradan əsas amillərdən biridir. Nəhayət, işıq müqəddəsdir.

Hüseyn deyər, axtarmayın, çoxdur sirri qüdrətin,
Göndərdi Əzrayılı, çəkdi yerin taqətin,
Abı, atəş, xaki, baddan çəkdi Adəm surətin,
Gör necə cana gətirdi Adəmi, Həvvanı mərd.

"Hüseyn deyər axtarmayın, çoxdur sirri qüdrətin" dedikdə şair ona işarə edir ki, bütün bu sonsuz sirri-müəmmaların sahibi Ulu Tanrıdır və Ulu Tanrının sirlərinə sona qədər vaqif olmaq mümkün deyildir. Bu fikir müasir fəlsəfədə mütləq həqiqət anlayışına uyğundur. Mütləq həqiqət isə dərkedilməzdir.

Ulu Tanrının sirri-müəmalarına misal olaraq göstərilir ki, ilahi tərəfindən insana məhdud zaman daxilində ömür verilməklə cəmiyyətdə nəsildəyişmə təmin olunur. Canlı və cansız

varlıqlar dörd ünsürdən – hava, od, torpaq və sudan ibarətdir. O, insanlığın atası Adəmi də bu dörd ünsürdən yaradıb və sonradan ona can verib.

Dünyanın daxili vəhdəti ideyası onun iyerarxik və fraktal strukturunu müəyyən edir. Hələ antik yunanlar bu fikirdə idilər ki, "kosmosda olanlar insanda, insanda olanlar isə kosmosda vardır. Makrokosm və mikrokosm eyni şeydir. Biri – universal, digəri fərdidir" [7, s.574]. Protaqorun məşhur "İnsan hər bir şeyin meyarıdır" [8, s.67] kəlamı antroposentrik prinsipin əsasını təşkil edir. Pifaqorçuların təliminə görə, kosmosda harmoniya mövcuddur və bu harmoniyanın əsasını bir-birini tamamlayan əks keyfiyyətlərin müntəzəm əlaqəsi – birliyi və müəyyən bir ədədi nisbəti təşkil edir.

Xalq poeziyasında mikrokosm və makrokosm münasibətləri ilə bağlı maraqlı fikirlərə rast gəlmək olar [9]. Divanidə bu münasibətlər rənglər vasitəsi ilə ifadə olunur. Mikrokosmla makrokosmu yeddi rəng birləşdirir.

Gah ağam, gah qarayam, gah türreyi-tar oluram [1, s.31].

Kainat rənglərin simvolları ilə təsvir edilir, kainatın arxitektonikasını rənglərin dili ilə dərk edirik. Rənglərdəki simvolika geniş məna çalarlarına malikdir.

Losevin fikrincə, simvolda ümumilik maksimum həddə çatır, yəni təkin ümumiliyi bütöv sonsuzluq ola bilər [10, s.185], başqa sözlə, simvol "dialoq üçün açıqdır", analitik və obrazlı təfəkkür üçün geniş meydan açır. Simvolun sadalanan xassələri rənglərdən simvol kimi istifadə edərək maddi və mənəvi – intellektual prosesləri, canlı və cansız aləmi təsvir və mənalandırmaq üçün əsas verir. Divanidə canlı aləmin təsviri üçün 7 əsas rəngdən istifadə edilir. Bu rənglərin kombinasiyası simvolların məntiqi ilə şərh edilir. Rənglərin harmoniyasında, üzvi vəhdətində kainatın vəhdətini görə bilərik.

Rənglər dünyanın hiss etmək, duymaq yolu ilə dərki üçün vacib simvollardır. Hər bir rəng insanda müəyyən ovqat yaradır. Rənglərin yaratdıqları mənalar harmoniya və bütövlük qanunlarına uyğundur. Ağ-qara yaranışdan, vahidin bölünməsindən yaranan əksliklərin ifadə, təzahür formalarıdır. Ağ və qara təbiətdə olan bütün antinomiyaları simvolik olaraq özündə ehtiva edir: sevgi-nifrət, xoşbəxtlik-bədbəxtlik, yaxşılıq – pislik, xeyir-şər və s. Ağ və qara rənglər fiziki prosesləri də əhatə edir: kosmosda "qara dəliyin" əmələ gəlməsi, ağ ulduzların kollaps nəticəsində çox böyük miqyasda sıxılaraq ağır kütlə əmələ gətirməsi. Ağ və qara rəng bütün rənglər spektrini əhatə edir.

Gah yaşıl, abı, sarı, gündə üç təhər oluram.

Kainatda gedən proseslər və zamanın dəyişməsi rənglərin dəyişməsi ilə ifadə edilir.

Gah bənövüş, gah qırmızı, gah da laləzar oluram.

Laləzar rənglərin harmoniyasıdır. Yaşıl fonda qırmızı rəng bayram əhval-ruhiyyəsi, həyatsevərlik, bahar ovqatı yaradır. Harmoniya rənglərin dəyişməsi, bir rəngin başqa rəngə keçməsində özünü göstərir. Laləzarda rənglərin harmoniyası təbiətdə, kosmosda mövcud olan harmoniyanın rənglər vasitəsilə verilməsidir. Rənglər qamması dünyanın – kainatın vəhdətinin simvolikasıdır.

Rəngimə rəngin çatmaz, mən həftirəngəm, geri dur!

"Yeddi" rəqəmi qədim Şərq dünyagörüşünə görə, sonsuzluq simvoludur. "Mən

həftirəngəm" - mən 7 rəngli laciverd dünyayam, mən kainatam mənasındadır. Antroposentrik fikir rənglərlə ifadə olunmuşdur. Yeddi rəng dünyanın simvolik ifadəsidir.

Məxluqam, haqqın özü gör, neçə nişan veribdi.

Allah-Təala insanı harmonik, mütənasib formada, yüksək zəka, iradə və qabiliyyət sahibi kimi yaratmışdır. **"Biz insanı ən gözəl biçimdə yaratdıq!"** [5, "Tin"; 6, s.472]. Allah insanı düz qamətli, mütənasib ölçüdə yaratmış, ona nəfəs, göz, qulaq və ürək vermişdir. **"Sonra onu düzəldib insan şəklinə saldı və ona öz ruhundan (özünün yaratdığı ruhdan) üfürdü (həyat verdi). O sizə göz, qulaq və ürək verdi...")** [5, "Səcdə"; 2, s.315]. Ulu Tanrı Yer üzündə olan ən qiymətli şeyləri öz əməllərinə görə yaxşı insanlar üçün yaratmışdır (bax: "Kəhf" surəsi, 7-ci ayə) [5].

Tanrı kainatı öz həqiqətini aşkar etmək üçün yaratmışdır. **"Biz göyləri, yeri və onların arasında olanları oyun-oyuncaq (əyləncə) yaratmadıq. Biz onları yalnız haqq olaraq yaratdıq, lakin onların (Məkkə müşriklərinin) əksəriyyəti (bunu) bilməz"** [5, "Duxan"]. İnsan ancaq öz zəkası, elmi ilə bu həqiqəti dərk edə bilər. Ona görə də hədislərdə elm öyrənməyə xüsusi əhəmiyyət verilir. Məhəmməd peyğəmbər (s) demişdir: "Beşikdən qəbrə qədər elm öyrənin. Elmindən fayda gələn alim min abiddən üstündür".

Allah insanı bütün varlıqların əşrəfi, ən üstünü olaraq yaratmış, ona ruh vermişdir. İnsan ancaq öz ruhu, qəlbi ilə Allaha yaxınlaşa bilər. Nəyin doğru, nəyin yalan olduğunu ancaq ruh, qəlb təyin edir. Ona bu nişanələri Allah verib.

Qətrəyəm, qüdrətindən cəsədimə can veribdi.

İnsanı Allah bir qətrədən yaratmışdır. **"O, axıb tökülən bir sudan (nütfədən) yaradılmışdır"** [5, "Tariq"].

De görüm nəyə talibsən,
Dərsini kimdən alıbsan,
Neçə min yol boşalıbsan,
Neçə min yol dolan dünya.

Xəstə Qasım qalıb naçar,
Bəs bu sirri kimlər açar?
Gələn qonar, qonan köçər,
Hey salarsan talan dünya [11, s.943].

Yaşadığımız dünya sirri-müəmmalarla doludur. Mənalı ömür sürmək dünyanın sirlərinə vaqif olmaq insanın borcudur. Şair "dərsini kimdən almısan ki, səndə bu qədər sirri-müəmmalar var?" sualı ilə ona işarə edir ki, dünyanın sirlərini ancaq Ulu Tanrı bilir, çünki dünyanı yaradan da Odur, onun qanunlarından xəbərdar olan da.

Dünyanın dolub-boşalması canlı təbiətdə baş verən proseslərin dövriliyinə işarədir. Canlılarda isə mövcudiyyət nəsildəyişmə ilə təmin olunur.

"Bəs bu sirri kimlər açar?" Bu ritorik sual, əslində, bəşər övladı qarşısında qoyulur. Yuxarıda qeyd edildiyi kimi, bu sirləri açmaq üçün ilk cəhdləri ozan aşıqlar etməlidirlər və onlar bu sirləri aşkar etmək üçün insanlara çalışmağı tövsiyə edirlər.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

Yığılar məxluqat, qurular məhşər,
Boyunlarda kəfən, əllərdə dəftər,
Onda vay halına, yazıq Ələsgər,
Özün getdin, sözün qaldı dünyada [12, s.43].

İnsanın ömrü məhduddur. İnsandan bu dünyada gələcək nəsillərə gördüyü xeyirxah işlər qalır. Buna görə də insan dünyanın əşrəfi kimi ancaq yaradıcı işlərlə məşğul olmalıdır. Ustad sənətkarların əsərləri isə daim insanlara xoş ovqat bəxş edir, onların zövqünü formalaşdırır və mənəviyyatını zənginləşdirir.

**Nəticə**

Milli və dini dünyagörüşləri əsasında müəyyən edilən insan və gerçəklik münasibətlərinə kainatın yaranması mövzusundan başlayaraq məişət məsələlərinə qədər mövzular spektri daxildir. Bu səbəbdən insan və gerçəklik münasibətlərinin dini baxışlar çərçivəsində tədqiqi milli düşüncənin özünəməxsus cəhətlərini aşkarlamaqda xüsusi əhəmiyyət kəsb edir.

Kainatın kiçik bir "dürdən" yaranması haqqında aşıqların söylədiyi fikirlər bir tərəfdən Quran ayələrinə uyğundur, digər tərəfdən müasir "kosmik partlayış" nəzəriyyəsi ilə səsləşir.

Şifahi xalq poeziyasının klassikləri Quran ayələrindən istifadə edərək insanın yaranması haqqında da müdrik fikirlər söyləmişlər. Xalq poeziyası insan və cəmiyyət münasibətlərində İslam etikasının prinsiplərinə əməl etməyi tövsiyə edir. Çünki İslam etikası cəmiyyətin harmonik inkişafı üçün zəruri müddəalarla zəngindir.

## ƏDƏBİYYAT


1. Aşıq Hüseyn Bozalqanlı. Əsərləri. I cild. Bakı: Vətən, 2015, 316 s.
2. Крамер С. История начинается в Шумере. М.: Наука, Главная редакция восточной литературы, 1991, 255 с.
3. Пять философских трактатов на тему "Афак ва Анфус" (О соотношениях между человеком и вселенной). М.: Главная редакция восточной литературы, 1970, 147 с.
4. Девис П. Суперсила. М.: Мир, 1989, 272 с.
5. Qurani-Kərim. Bakı: Çıraq, 2015, 668 s.
6. Quliyev F., Quliyev Ə. Aşıq Hüseyn Bozalqanlının "Mərd" divanisi // "Qobustan" jurnalı, 2004, №4(128), səh.79-81.
7. *Лосев А.Ф.* История античной эстетики. Ранняя классика. М.: ООО "Издательство АСТ"; Харьков: Фолио, 2000, 624 с.
8. Асмус В.Ф. Античная философия. М.: Высшая школа, 1999, 400 с.
9. Quliyev F., Quliyev Ə.. Xalq poeziyasında mikrokosm və makrokosm münasibətləri haqqında // Azərbaycan bu gün və sabah, 2008-ci il, №1, səh.16-22.
10. Лосев А.Ф. Проблема символа и релистическое искусство. М.: Искусство, 1976, 367 с.
11. Azərbaycan aşıq şeirindən seçmələr. İki clddə, I cild. Bakı: Şərq-Qərb, 2005, 376 s.
12. Aşıq Ələsgər. Əsərləri. Bakı: Şərq-Qərb, 2004, 400 s.

Фахраддин Кулиев

# ОБ ОТНОШЕНИЯХ ЧЕЛОВЕКА И ДЕЙСТВИТЕЛЬНОСТИ В НАРОДНОЙ ПОЭЗИИ

## РЕЗЮМЕ

Религиозная принадлежность является одним из необходимых базовых элементов национального менталитета каждого народа. Религиозное мировоззрение со времени отделения от мифологии оказало заметное влияние на формирование национального мышления.

В статье рассмотрена одна из основных проблем национальной философии, т.е. отношение человек-окружающая среда. В исследовании особое внимание обращено на роль исламских концепций об отношении человек- окружающий внешний мир, о месте человека в этом мире, о смысле человеческой жизни.

Наша священная книга Коран богата мудрыми мыслями о происхождении универсума и человека, природе, об обществе, имеющими концептуальные значения. Моральные принципы исламской этики выполняют регулирующие функции в отношениях человека к природе и обществу. Выдающийся ашуги регулярно обращались к Кораническим айатам для усиления глубины мыслей в своих стихотворениях.

Цель: Поиск истоков отношения человеком- окружающий мир в народной поэзии и исследование теоретико-прикладного значения религиозных мировоззрений среди этих истоков имеет важное научно-философское значение.

Методология: Методологические основы исследования составляет религиозное мировоззрение и методы диалектики. Основные знания наших ашугов сформированы на основе религиозных мировоззрений. В силу этого религиозные знания позволяют определить научно-философское значение отношения человек-действительность.Законы диалектики используются как критерии для оценки научного значения в религиозных мировоззрениях.

Научная новизна: Отношение человек-действительность в народной поэзии исследовано с позиции религиозного мировоззрения.

Fakhraddin Guliyev

# ON HUMAN AND REALITY RELATIONS IN FOLK POETRY

## SUMMARY

Religious affiliation is one of the essential basic elements of the national mentality of every nation. Since the separation from mythology, the religious world outlook has had a noticeable influence on the formation of national thinking.

The article deals with one of the main problems of national philosophy, i.e. human-environment relationship. The study pays special attention to the role of Islamic concepts about the relationship between man and the outside world, about a person's place in this world, about the meaning of human life.

Our holy book the Quran is rich in wise thoughts that have conceptual meanings about the origin of the universe and man, nature, and society. The moral principles of Islamic ethics perform regulatory functions in the relationship of man with nature and society. Outstanding ashugs regularly turned to the Quranic verses to enhance the depth of thoughts in their poems.

**Purpose:** The search for the origins of the relationship between man and the world around him in folk poetry, the study of the theoretical and applied significance of religious worldviews among these sources has an important scientific and philosophical significance.

**Methodology:** The methodological basis of the research is the religious world outlook and methods of dialectics. The basic knowledge of our ashugs is formed on the basis of religious world outlooks. Because of this, religious knowledge makes it possible to determine the scientific and philosophical significance of the relationship between man and reality. The laws of dialectics are used as criteria for assessing the scientific significance in religious world outlooks.

**Scientific novelty:** The relationship between man and reality in Folk poetry is studied from the position of a religious world outlook.kl

# MAARİFÇİLİK İDEOLOGİYASININ FORMALAŞMASINDA AVROPA DƏYƏRLƏRİNİN ROLU

*(Mirzə Fətəli Axundzadə və Şeyx Cəmaləddin Əfqaninin fəlsəfi görüşləri əsasında)*

**Sabir BEHBUDOV,**
*AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun doktorantı*

**AÇAR SÖZLƏR:** *M.F.Axundzadə, Ş.C.Əfqani, fəlsəfə, maarifçilik, mədəni proseslər, dini-mədəni dəyərlər, cəmiyyət, milli özünüdərk.*
**КЛЮЧЕВЫЕ СЛОВА:** *М.Ф.Ахундзаде, Ш.Дж.Афгани, философия, просвещение, культурные процессы, религиозные и культурные ценности, общество, национальное самосознание.*
**KEY WORDS:** *M.F.Akhundzade, Sh.J.Afgani, philosophy, enlightenment, cultural processes, religious and cultural values, society, national self-identity*

Azərbaycan maarifçilərinin fəlsəfi anlayışları (azadlıq, sivilizasiya və s.) Avropa maarifçilik fəlsəfəsinin təsiri altında formalaşmışdır. Maarifçilər ictimai həyatın bütün sferalarının dəyişməsi ilə fərdləri və cəmiyyəti təkmilləşdirməyin mümkünlüyünə ümid bəsləyirdilər. Elm və təhsil vasitəsilə cəmiyyətin formalaşdırılması maarifçiliyin əsas fəaliyyət strategiyasını müəyyənləşdirdi və bütöv bir dövrün tərəqqi ideyasının təməlini təşkil etdi. Mirzə Fətəlinin metaforik təfəkkürü bu geriliyi, ətaləti "Con Stüart Milli azadlıq haqqında" adlı məqaləsində dəyirman atlarına bənzədirdi: "Bu gün bizim kürəmizdə Hindistan brəhmənlərinin və Musa dininin peyğəmbərləri və Çin dövləti qanunlarına bağlı olanlar haman dəyirman atları kimidirlər ki, dinlərin və qanunların meydana çıxdığı tarixdən bu günə qədər onların halında heç bir dəyişiklik üz verməmişdir. Bəlkə, demək olar ki, onlar daima geri gedəcəklər; çünki insan növünün tərəqqisi ağıl ilədir, bu biçarələrin ağlı üçün isə hərəkət yolu bağlanmışdır" [1, s.355].

Maarifçilik ideyaları kontekstində azadlıq ideyasını (fiziki azadlıq, mənəvi azadlıq, söz azadlığı) əsas ali dəyər kimi qəbul etmək olar. Akademik F.Qasımzadə də azadlıq ideyasını M.F.Axundzadə fəlsəfəsində bu yöndən mənalandırır. "M.F.Axundovun yaradıcılığında maarifçilik, xalqın tərəqqisi ilə bağlı olan məsələlər, xalq hakimiyyəti, demokratik azadlıqlar ideyası mühüm yer tutur. O, öz dövrünün qabaqcıl ictimai-siyasi baxışlarına malik olan mütəfəkkir, xalqın azadlıq hərəkatı və ictimai tərəqqisi ilə bilavasitə bağlı olan görkəmli maarifçi və Yaxın Şərq ölkələrinin ilk inqilabçı-demokratıdır" [2, s.303]. Bu mənada M.F.Axundzadənin maarifçilik fəlsəfəsini "azadlıq fəlsəfəsi" kimi səciyyələndirmək olar. Məhz maarifçi mütəfəkkirin özünün düşüncə və ifadə azadlığı ədəbiyyatımızın yeni ədəbi və fəlsəfi janrlar və formalarla

(dram, fəlsəfi məktub, povest) zənginləşməsini şərtləndirdi. Həqiqətən, "bir çox mədəniyyətlərdə müxtəlif sənət növlərinin yaranmasını və inkişafını ifadə azadlığının dərəcəsi ilə ölçmək olar" [3, s.108].

Əlbəttə, Mirzə Fətəlinin "azadlıq" anlayışı ilə bağlı düşüncələri daha böyük önəm daşıyır. Onun təbliğ etdiyi və uğrunda mücadilə apardığı azadlıq mədəniyyətdə yeni dillərin, xüsusilə yeni sənət dillərinin yaranmasını labüdləşdirirdi. Onda ənənəvi, kanonik ədəbi dillərə qarşı müxalif mövqeyin yaranması da bu səbəbdəndir. Füzulini "nazimi-ustad" sayması da, hardasa, bu düşüncənin ifadəsi idi.

Amma digər görkəmli maarifçimiz A.Bakıxanov insan azadlığının mahiyyətini etik dəyərlər kontekstində anlayırdı. O deyirdi ki, azadlıq və özbaşınalıq, dərəbəylik anlayışlarını fərqləndirmək mümkündür. "A.A.Bakıxanov insan azadlığının, azad fəaliyyətin müəyyən ictimai-siyasi, əxlaqi qaydalarla tənzimlənməsini məqsədəuyğun sayırdı" [4, s.32].

Yeri gəlmişkən, Mirzə Fətəlinin aksioloji dünyagörüşünün və ya ideya sisteminin təkamülünü və qaynaqlarını müəyyənləşdirmək üçün kitabxanasına müraciət etmək kifayətdir. Mütəfəkkirin rus dilində oxuduğu kitablar arasında G.T.Boklun "İngiltərədə sivilizasiya tarixi", İ.Vaşinqtonun "Xristofor Kolumbun həyatı və səyahətlər tarixi", C.Lebokun "Sivilizasiyanın başlanğıcı və insanın ibtidai durumu", C.S.Millin "Siyasi ekonomiyanın əsasları", K.F.Neymaninin "Amerika Birləşmiş Ştatlarının tarixi" və s. qeyd etmək olar.

Azərbaycan coğrafi, mədəni baxımdan Avropanın, Rusiyanın maarifçilik çevrəsindən xeyli kənarda idi. Hətta İrana Avropanın maarifçilik dalğası Mirzə Fətəlinin əsərləri ilə çatmışdır. Bu tarixi missiyanı da Mirzə Fətəli boynuna götürməli olmuşdu: "M.F.Axundov XIX əsrin ikinci yarısında İran maarifçilərinin məfkurəvi atası olmuş, onunla birlikdə mütləqiyyət və cəhalət əleyhinə mübarizə etmiş, konstitusiyalı monarxiya ilə nəticələnən 1905-1911-ci illər İran məşrutə inqilabının ideoloji zəminini hazırlayanlardan olmuşdur" [5, s.241].

Xüsusən, "Kəmalüddövlə məktubları" çoxəsrlik dini-sxolastika ənənəsinin dərin nüfuza malik olduğu İranda təsiri partlayışa səbəb olmuşdur. Əlyazmanın üzünü köçürüb surətini çoxaldırdılar. Böyük mütəfəkkir məktublarının birində bunu etiraf edir: "Tehranın arif adamları içərisində Kəmalüddövlə təsvirəgəlməz bir həyəcan yaratmışdır. Tehran ariflərinin hamısı onun surətini görmüşlər" [6, s.191-192].

Mirzə Fətəlidə filosofluq özünüdərk forması kimi çıxış edirdi. Mədəniyyət, tarixlə bağlı refleksiyasını fəlsəfə modusunda gerçəkləşdirməyə çalışırdı. Mirzə Fətəli fəlsəfəyə gerçək ədəbi-mədəni prosesin bir hissəsi, alim, ruhani, hökmdar düşüncəsinin vacib elementi kimi baxırdı. O, fəlsəfəni mədəniyyətin üst qatına şamil edirdi. Məktublarında oğlu Rəşidin də Qərb filosofları ilə maraqlandığını, sevincini paylaşırdı: "Rəşid Boklun, Renanın əsərlərini oxumuş, fəlsəfəni məndən az bilmir. Fizikanı və təbiətşünaslığı məndən yaxşı anlayır" [7, s.253].

Böyük mütəfəkkir Avropa fəlsəfə kursunun anlayışlarını (sivilizasiya, patriot, filosof və s.) cəsarətlə dilimizə gətirir, bu anlayışların mənasını izah edirdi. Məsələn, "patriot" sözünün lüğəvi mənasını Şərq (müsəlman) oxucusuna belə açıqlayırdı: "Patriot" – ibarətdir o kimsədən ki, vətən təəssübü üçün  və millətin məhəbbəti üçün can və malına müzayiqə etməyə və öz

vətəninin və millətinin mənfəəti və azadiyyəti üçün sai və cəfakeş ola. Bu halət və xasiyyət həmişə qeyrətmənd şəxslərdə büruz edər. O cümlədən, bizim peyğəmbərdir ki, öz vətəni Ərəbistanın və bilxüsus Məkkənin ki, öz əşirəsi Qureyş onda sakin idi, səadəti üçün ümuri-əziməyə və şaqqəyə iqdam etdi" [7, s.75].

Mirzə Fətəli Axundzadə, xüsusən "Kəmalüddövlə məktubları"nda əsərin janrına, məzmun və ideyasına uyğun olaraq fəlsəfi (eləcə də hüquqi, ictimai-siyasi) terminlərdən geniş istifadə edir. Digər tərəfdən, "M.F.Axundzadənin elmi-siyasi dövriyyəyə gətirdiyi terminlər də onun demokratik cəmiyyət haqqındakı düşüncələrini kifayət qədər əks etdirə bilir" [8, s.136].

Qərb fəlsəfəsini yaxşı bilənlərdən biri də İslam maarifçiliyinin, "dindar maarifçiliyin" ən böyük nümayəndəsi olan C.Əfqanidir. İslam dünyasında islahatlar deyəndə "dindar maarifçilər" (Y.Qarayev) klassik İslamın və Quranın mənasız şərhlərdən, riyakar ruhanilərin yozumlarından təmizlənməsini nəzərdə tuturdu. Ümumiyyətlə, həqiqi İslama inanan maarifçi yazıçılar üçün isə məqsəd dini və Quranı müasirləşdirmək deyil, bəlkə, əksinə, cəmiyyəti müasirləşdirmək üçün dinin və Quranın cəmiyyətdə təsir gücündən istifadə etmək idi" [9, s.642-643].

C.Əfqani İslam dünyasında islahatlar aparmaq üçün "yasaq edilmiş fəlsəfənin və elmi metodların" öyrənilməsinin vacibliyini qəbul edirdi. "Bəşəriyyət durduqca məzhəb ilə vicdan azadlığı, din ilə fəlsəfə arasındakı mübarizə bitməyəcəkdir. Bu kəskin mübarizədə vicdan azadlığının qalib gələ bilməyəcəyini ehtiyat edirəm. Çünki böyük həqiqət xalqın xoşuna gəlmir və həqiqət haqqındakı biliklər yalnız bir qisim seçilmiş zəkalar tərəfindən anlaşılır. Çünki elm nə qədər faydalı olursa olsun, insanlığı tamamilə təmin etməməkdədir. İnsanlıq ideala sığınır, filosof və alimlər görmədikləri və şərh etmədikləri uzaq və qaranlıq yerlərdə faydalı olmağı sevir" [10, s.215].

Şeyx Cəmaləddin Əfqani də belə qənaətdə idi ki, məktəblərdə fəlsəfə elminin tədrisi olmadan ölkənin tərəqqisi mümkünsüzdür: "Osmanlı dövləti, eləcə də Misir 60 ildir ki, elmlərin təlimi üçün məktəblər açmışdır və hələ də ondan bir xeyir görməmişdir" [4, s.29].

C.Əfqani fəlsəfi dünyagörüşünün formalaşmasında din tərbiyəsinin rolunu və əhəmiyyətini xüsusi vurğulayırdı: "İnsanın ilk tərbiyəsi onun dini tərbiyəsidir, fəlsəfi dünyagörüşü sonra yaranır" [11, s.33]. Bununla bərabər, C.Əfqani dinlə fəlsəfəni bir-birindən ayırırdı, onların bir araya gəlməsini mümkünsüz hesab edirdi: "Dinlər hansı adı daşıyırlarsa daşısınlar, hamısı bir-birinə bənzəyir. Dinlə fəlsəfə arasında heç bir anlaşma və barışma mümkün deyildir. Din insana inam və inanc təlqin edir".

Mütəfəkkirin İslam ölkələrində din və fəlsəfənin anlaşmaması ilə bağlı fikirlərinə Azərbaycan tədqiqatçısı F.Ələkbərov bəraət qazandırır: "Doğrudan da, fəlsəfənin, elmin aciz olduğu yerdə sxolastik dini təfəkkür önə keçir və bir çox halda cəmiyyət üçün xoşagəlməz durumun yaranmasına səbəb olur. Buna ən bariz nümunə də son əsrlərdə müsəlman xalqlarının düşdüyü gerilikçi vəziyyət, elmi və texnoloji cəhətdən geri qalması və Qərb dəyərlərindən asılı olmasıdır. Əfqani dinin sxolastik-mistik anlamdan daha çox fəlsəfi yükünün artmasında haqlı idi" [12, s.109].

Halbuki orta əsrlərdə Şərq ənənəsində fəlsəfə və mistik təlimlərin "ortaq kontekstdə"

çıxış etməsi mümkün olmuşdur, fəlsəfi dünyagörüşü və sufi təcrübəsi iç-içə olmuşdur. “Fəlsəfə və mistisizm həm müstəqil şəkildə, həm də birlikdə düşünüldüyündə uzun və mürəkkəb bir tarixə sahibdir. Fəlsəfə etimoloji olaraq “hikmət sevgisi deməkdir və əksəriyyət tərəfindən Antik Yunanıstandan başladığı qəbul olunur”. Buradakı mənası ilə fəlsəfə insan əqlinin həyatın müxtəlif vəziyyətləri üzərinə nəzər etməsi və ya düşünməsi kimi başa düşülə bilər” [13, s.88]. Böyük mütəfəkkir həm də etiraf etməli olurdu ki, Avropada Xristianlıq fəlsəfəni bir müddət kölgədə qoysa da, sonralar özlərində güc tapıb fəlsəfənin nüfuzunu qaldıra bilmişlər və bu da onların inkişafına rəvac vermişdir.

C.Əfqani Avropanın təbliğ və bütün dünyaya təlqin etdiyi azadlıq ideyasının İslamda mövcud olduğunu qeyd edirdi: “Quranın həqiqi ruhu azadlıqdır və həm də müasir fikirlərə uyğun gəlir. İndiki nizam-intizamsızlığın İslam qanunlarına qətiyyən dəxli yoxdur. Bunlar nadan və cahil təfsirçilərin İslama etdikləri əlavələrdir. Tarixi təkamül və inkişaf onların bu səhvini islah edəcək. Deməli, bir müsəlman ziyalısı və alimi Avropa demokratik məfkurəsinə tamam aşina olsa, o, Quranın təlimlərinə əsaslanaraq xalqı müasir mütərəqqi demokratik məfkurələrlə tanış edə bilər” [10, s.206]. Sitatdan da göründüyü kimi, C.Əfqani Avropa demokratik prinsipləri ilə Quran təliminin dialoqunu mümkün hesab edirdi.

Azərbaycan maarifçiliyinin cəmiyyətə ismarladığı əsas dəyərlərdən biri azadlıq ideyasıdır. Bu dəyər sisteminin əsas müsbət cəhəti ondadır ki, yalnız azadlıq olan yerdə insanlara cəmiyyəti geriyə atan stereotiplərin, mənasız dini ehkamların saxtalığını və gərəksizliyini göstərmək, sübut etmək olur.

M.F.Axundzadə maarifçiliyinin əsas xidmətlərindən biri də ağıl və azadlıq anlayışlarının bir-birinə sıx bağlılığının əsaslandırılması, fikir və söz azadlığı ilə bağlı ilk ehtiraslı düşüncələrin müsəlman cəmiyyətində bəyan edilməsidir.

Artıq XVII əsrdən başlayaraq, Avropa cəmiyyəti və mütəfəkkirlər fikir və söz azadlığını tərəqqinin əsas hərəkətverici qüvvəsi hesab edirdilər. “İnsanın hərəkətlərinə ... alçaldıcı nəzarəti rədd edən Milton *(XVII əsr böyük ingilis şairi Con Milton – S.B.)* böyük əminliklə bildirirdi ki, əgər insanlara istənilən problemi azad surətdə müzakirə və tədqiq etmək imkanı verilərsə, həqiqət istənilən halda özünə yol tapacaqdır” [14, s.26].

M.F.Axundzadənin adını çəkib müraciət etdiyi XIX əsr ingilis mütəfəkkiri Con Stüart Mill “Azadlıq haqqında” məqaləsində fikir azadlığı məsələsinə böyük önəm verirdi: “Təfəkkür azadlığı təkcə dahi başların yetişdirilməsi üçün zəruri deyil... O, qadir olduqları ən yüksək əqli inkişaf səviyyəsinə çata bilmələri üçün adi insanlara daha çox lazımdır. Ümumi mənəvi və əqli köləlik mühitində də fövqəladə zəkalar olub və yenə də yarana bilər, lakin belə mühitdə heç vaxt intellektual cəhətdən fəal xalq olmayıb və olmayacaq” [14, s.112]. Doğrudan da, XIX əsrin feodal-partriarxal Azərbaycanından Mirzə Fətəli kimi fövqəladə zəkanın çıxması, cəhalət və xurafat qaranlığında boğulan bir xalqı “intellektual cəhətdən fəallığa” çağırması qeyri-adi hadisə idi.

Con Stüart Millin irəli sürdüyü mülahizələrlə razılaşan M.F.Axundzadə “Con Stüart Mill azadlıq haqqında” məqaləsində əminliklə bildirir: “İngilis filosofu Con Stüart Mill azadlığı

izah etmək məqsədi ilə yazdığı kitabda göstərir ki: canlılar aləmində insan daima tərəqqi tələb edən bir növdür və fikir azadlığı olmadan tərəqqi mümkün ola bilməz. Tərəqqinin nəticəsini zəmanəmizdə sivilizasyon adlandırırlar" [15, s.354].

Mütəfəkkir dərk edirdi ki, azadlıq prinsipinin gerçəkləşməsi çoxsaylı "bütlərlə", cəhalətlə və dini xurafatla mübarizə nəticəsində mümkündür. Dini-mədəni gerilik ağlın əsas düşmənidir, onu aradan götürmədən əqli azadlıq mümkünsüzdür. Azərbaycan maarifçiliyində söz və fikir azadlığı ideyası, liberal dəyərlər haqqında mülahizələr Qərb maarifçilərinin (xüsusən fransız və ingilis) və filosoflarının təsiri altında formalaşmışdır. Avropa maarifçilərinə (R.Dekart, C.Lokk) görə, azadlıq ağlın immanent xarakteristikasıdır. Yalnız cəhalət zülmətindən, xurafat buxovlarından qurtulmuş ağıl insanı və dünyanı dərketmə işində öz sonsuz imkanlarını gerçəkləşdirə bilər.

Mirzə Fətəli qəti əmin idi ki, insanların fiziki azadlığını despot başçılar, ruhani azadlığını isə dindarlar təhdid etmişlər. Əgər bir cəmiyyətdə fikir və söz azadlığı bərqərar olmasa, o, əxlaqsızlıq (rəzalət, qeyrətsizlik və alçaqlıq) şəraitində yaşamağa məhkumdur. Onun bu qənaətləri yalnız Qərb filosoflarının təsiri altında yarana bilməzdi, həm də bütün şüurlu həyatının və məntiqi düşüncələrinin nəticəsi idi.

M.F.Axundzadə hesab edirdi ki, fikir azadlığı olmadan cəmiyyətin tərəqqisi, onu idarə etmək mümkünsüzdür. O, cəmiyyətin tərəqqiyə qovuşmasının fikir və söz azadlığından keçdiyini bəyan edirdi. Fikir və ifadə azadlığı olmadan Şərq insanının mövhumat-xurafat bataqlığından çıxması mürəkkəb məsələdir. Məhz fikir azadlığı düşüncənin dəyişməsinə və mədəniyyətin inkişafına səbəb olur. Cəmiyyətin ictimai-siyasi, mədəni sferalarında inkişaf təmayülləri "düşüncə və ifadə azadlığının gerçəkləşməsi ilə hərəkətə gəlir və onların nəticəsində yeni-yeni məzmunlara, formalara çıxılır" [3, s.109]. Böyük mütəfəkkir azad düşüncənin mahiyyətini belə anladır: "Əgər cəmiyyət öz fərdlərinə fikir azadlığı verməzsə və onları ata-babanın və övliyanın qərar verdikləri şeylərlə kifayət etməyə və bunlardan kənara çıxmamağa və ağıllarını mədəniyyət işlərində işlətməməyə məcbur edərsə, bu surətdə fərdlər yer əkən, məhsul toplayan və hər bir işi düşünmədən və fikir etmədən görən avtomat olarlar və ya onlar dəyirman atlarına bənzərlər ki, hər gün müəyyən dairədə dolanarlar və öz vaxtında da arpa-saman yeyib su içər və yatarlar, sonra yenə oyanıb haman dünənki dolanışını dünyanın axırına qədər təkrar edərlər" [1, s.355].

Onun fikrincə, başər övladının tərəqqisi və nicatı yalnız fikir, ağıl azadlığı ilə mümkündür. "Bəşəriyyətin xoşbəxtlik və səadəti o vaxt mümkün olacaqdır ki, istər Asiyada, istərsə də Avropada insan əqli əbədi zindandan tamamilə xilas edilib, əməl və fikirlərində rəvayət deyil, yalnız insan əqli sənəd və sübut hesab edilsin" [1, s.295].

# ƏDƏBİYYAT


1. Axundzadə M.F. Əsərləri, 3 cilddə, I c. Bakı: Elm, 1987, 320 s.
2. Qasımzadə F. M.F.Axundovun həyat və yaradıcılığı. Bakı: Azərnəşr, 1962.
3. Mehdizadə O.N. Mədəniyyət və insan haqları (kulturoloji analiz). Fəlsəfə dok. dis. Bakı: 2010.
4. Orucov Ə. XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycanın ictimai-siyasi və fəlsəfi fikir tarixində milli özünüdərk problemi. Fəlsəfə elm. nam. dis. Bakı: 2007.
5. Məmmədzadə H. Mirzə Fətəli Axundov və Şərq. Bakı: Elm, 1971, 368 s.
6. Axundov M.F. Seçilmiş fəlsəfi əsərləri. Bakı: Azərnəşr, 1982.
7. Axundzadə M.F. Əsərləri, 3 cilddə, II c. Bakı: Elm, 1988, 388 s.
8. Şamıoğlu (Musayev) Ş. Mirzə Fətəli Axundzadə (dövrü, elmi biblioqrafiyası və müasirləşmə konsepsiyası). Bakı: "Elm və təhsil", 2016, 184 s.
9. Qarayev Y. Realizm: sənət və həqiqət // Qarayev Y. Seçilmiş əsərləri, 5 cilddə, III cild. Bakı: Elm, 2015, s.5-370.
10. Qurbanov Ş. Cəmaləddin Əfqani və türk dünyası. Bakı: Azərnəşr, 1996, 220 s.
11. Əfqani C. Milli vəhdət fəlsəfəsi və dil birliyinin həqiqi mahiyyəti və türk dünyası. Bakı: Azərnəşr, 1998.
12. Ələkbərli F. Cəmaləddin Əfqaninin dünyagörüşü // "Dövlət və din", 2018, №3(56), s. 106-114.
13. Kats S. Fəlsəfə və mistisizm arasındakı münasibət. Tərcümə: İlkin Əfəndiyev // "Quyu" jurnalı, birinci sayı, s.88-93.
14. Demokratiya: Gediləsi uzun bir yol (demokratiya və antidemokratiya antologiası, e.ə. 430 – b.e. 1998). Tərtib edən H.Hacızadə. Bakı: "Əbilov, Zeynalov və oğulları", 2001, 445 s.
15. Axundzadə M.F. Əsərləri, 3 cilddə, I c. Bakı: Elm, 1987, 320 s.

Сабир Бехбудов

# РОЛЬ ЕВРОПЕЙСКИХ ЦЕННОСТЕЙ В ФОРМИРОВАНИИ ПРОСВЕТИТЕЛЬСКОЙ ИДЕОЛОГИИ

***(На основе философских взглядов Мирзы Фатали Ахундзаде и Шейха Джамаладдина Афгани)***

## РЕЗЮМЕ

В статье рассматривается роль европейских ценностей в формировании идеологии просвещения на основе философских взглядов Мирзы Фатали Ахундзаде и Шейха Джамаладдина Афгани.

Подавляющее большинство просветителей принимали исламские ценности как основу национальной системы ценностей. Просветители в первую очередь интересовались вопросами религии и убеждений в связи с общественной моралью. По их мнению, именно единство религии и языка определяет целостность общества, защищает его от вредного вмешательства и сохраняет национальную идентичность.

М.Ф.Ахундзаде считал, что мы должны учиться у Европы свободе мысли как опыту идей. Это также возможно благодаря развитию науки и философии. Людей порабощают ложные религиозные идеи. Мыслитель продемонстрировал живой пример свободы мысли и слова на высоком уровне в своих полемиках. Его взгляды на свободную прессу и критику совпадают.

Sabir Behbudov

# THE ROLE OF EUROPEAN VALUES IN THE FORMATION OF ENLIGHTENMENT IDEOLOGY

***(Based on the philosophical views of Mirza Fatali Akhundzade and Sheikh Jamaladdin Afgani)***

## SUMMARY

The article considers the role of European values in shaping the ideology of enlightenment on the basis of philosophical views of Mirza Fatali Akhundzadeh and Sheikh Jamaladdin Afgani.

The overwhelming majority of thinkers adopted Islamic values as the basis of the national value system. Enlighteners were primarily interested in religion and beliefs in light of public morality. In their opinion, it is the unity of religion and language that determines the integrity of society, protects it from harmful interference and preserves national identity.

M.F.Akhundzadeh believed that we should learn from Europe freedom of thought as an experience of ideas. It is also possible due to the development of science and philosophy. People are enslaved by false religious ideas. The thinker considered a living example of freedom of thought and speech at a high level in his polemics. His views on a free press and criticism coincide.

# HACI MOLLA MƏHƏMMƏD NAXÇIVANİNİN “KƏŞKÜLÜN-NUR” ƏSƏRİNDƏ MÜXTƏLİF FƏLSƏFİ NƏSİHƏTLƏR

***Səbuhi İBRAHİMOV,***
*AMEA-nın Naxçıvan Bölməsinin Əlyazmalar Fondu,*
*Əlyazmaların kataloqlaşdırılması şöbəsinin müdiri,*
*fəlsəfə üzrə fəlsəfə doktoru, dosent,*
*s.ibrahimov71@mail.ru*

***AÇAR SÖZLƏR:*** *Hacı Molla Məhəmməd Naxçıvani, “Kəşkülün-nur”, əsər, fəlsəfə, nəsihətnamə, kitab, elm.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Хаджи Молла Мохаммад Нахчывани, «Кашкулун-нур», труд, философия, советы, книга, наука.*
***KEY WORDS:*** *Haji Molla Muhammad Nakhchivani, «Kashkulun-nur», work, philosophy, advice, book, science.*

**Giriş**

Məqalədə Hacı Molla Məhəmməd Naxçıvaninin “Kəşkülün-nur” əsərində keçən müxtəlif fəlsəfi nəsihətlər barədə məlumat verilmiş və sözügedən kitabın digər mövzu istiqamətləri müəyyənləşdirilmişdir. Orta əsrlərdə yazıb yaratmış bəzi klassik şair və yazıçıların əsərlərində bu adda müxtəlif dəyərli məlumatların olması danılmaz bir həqiqətdir. Bu baxımdan, yanaşdığımız əsər həmin faktları bir daha ortaya qoyur. Müəllif əsərdə mövzunun filoloji təhlilini vermiş, həmçinin müxtəlif fəlsəfi aspektləri dəyərləndirmişdir.

Aparılan təhlillər zamanı məlum olmuşdur ki, müəllifin adıçəkilən “Kəşkülün-nur” əsəri indiyə qədər araşdırılmamış və elmi tədqiqata cəlb edilməmişdir. Hesab edirik ki, Hacı Molla Məhəmməd Naxçıvaninin beş qiymətli kitabından biri olan bu əsərinin öyrənilməsi müasir cəmiyyətimizdə çox böyük marağa səbəb olar və bu baxımdan, onun araşdırılması, təhlil edilməsi, elmi tədqiqinin aparılması olduqca əhəmiyyətlidir.

**1. Azərbaycanda nəsihətnamələrin tarixi**

Azərbaycanın görkəmli alimi və mütəfəkkiri Nəsirəddin Tusi deyirdi: “Elm sahibi şəfqətli və nəsihət verən olmalıdır” [1, s.14]. Elə bu baxımdan, müasir cəmiyyətimiz üçün zəruri hesab edilən nəsihətlər və ibrətamiz kəlamların tarixi ta qədimlərə gedib çıxsa da, əsasən orta əsrlərdən başlayaraq ədəbi səhnəmizdə formalaşmağa başlamışdır. Belə ki, orta əsr nümayəndəsi Əbu Bəkr ibn Xosrov əl-Ustad özünün “Munisnamə” əsərinin II fəslində İmam Əli əleyhissalamın

oğlu İmam Hüseynə həsr etdiyi "Oğluma nəsihət" şeirini vermişdir. Bu şeir bütün Şərqdə ən məşhur "Oğluma nəsihət" şeirlər silsiləsindəndir. Bu səpkidə şeirlər bizim ədəbiyyatda VII əsrdə Əbül Abbas əl-Əmədan başlamış Nizami ilə davam etmiş, Seyid Əzim Şirvaniyədək gəlib çatmışdır. Həzrət Əlinin oğlu Hüseynə yazdığı şeir olduqca ibrətamizdir. Təsadüfi deyil ki, belə şeirlərin təsiri ilə tərbiyə almış İmam Hüseyn əleyhissalam sonralar İslam dünyasında dinin saflığı naminə özü və ən yaxın adamları ilə canlarını şəhid etmiş, müqəddəs məqama çatmışlar.

Qəlbin genişliyi yaxşı əlamətdir,
O müsəlmanların könlünü bəzədir.
Öz işimizdə düzlüyü qorumalıyıq,
İnsanı ucaldar təmizlik, saflıq.
Xeyirxah məqsədlərə nə qədər tez qayıtsan,
Qiyamət günündə bağışlanan olarsan [2, s.31].

Azərbaycanın görkəmli şairi və ictimai-siyasi xadimi Şah İsmayıl Xətainin çoxcəhətli poeziyasında da epik əsərlər mühüm yer tutur. Onun "Nəsihətnamə" məsnəvisi və "Dəhnamə" poeması epik şeirin qiymətli nümunələrindəndir. "Nəsihətnamə", adından da göründüyü kimi, nəsihətamiz, fəlsəfi poemadır. Burada ardıcıl nəql edilən hadisə yoxdur. "Nəsihətnamə" sufizmin panteist müddəalarını şərh edən fəlsəfi əsər olmaqla bərabər, insan haqqında qabaqcıl humanist düşüncələri də əks etdirir [3].

Nəsihətnamələr Azərbaycanın XVIII-XIX əsrlərdə yaşayıb yaratmış görkəmli maarifpərvər nümayəndəsi Abbasqulu ağa Bakıxanovun yaradıcılığından da yan keçməmişdir. Onun "Təhzibül-əxlaq"dan sonra ikinci pedaqoji əsəri "Kitabi-nəsihət" və ya "Nəsihətnamə"dir. "Kitabi-nəsihət"də 102 nəsihət vardır. Əsər müəllifin kiçik müqəddiməsindən sonra dini nəsihətlərlə başlanır. Dini nəsihətlərdən sonra dövlət başçısına, ata-anaya, böyüklərə itaət və ehtiramın vacibliyinə dair, daha sonra isə həyat və məişət məsələləri ilə əlaqədar olan əxlaqi nəsihətlər verilir. Uşaqların əxlaqını yaxşılaşdıran və onlarda nəcib xasiyyətlərin yaranmasını təmin edən belə nəsihətlər bu gün də öz əhəmiyyətini saxlamaqdadır. A.Bakıxanov bu əsərdə öz həyat təcrübəsini sistemləşdirmişdir. Gələcək nəsillərin A.Bakıxanovun nəsihətamiz fikirləri üzərində düşünməsinə, fikirlərini müstəqil ifadə etməsinə nail olmaq onların tərbiyəsinə müsbət təsir göstərər. Nümunə kimi onlardan bəzilərini nəzərdən keçirək:

– Hər kəs vəzifədə, elmdə və yaşda səndən böyüksə, ona hörmət elə, ta ki, səndən kiçiklər də sənə hörmət etsinlər.

– Elə adamlarla otur-dur ki, böyüklər onları yaxşı hesab edirlər. Hərzə danışan adamlardan kənar gəz ki, sən də onlar kimi olmayasan.

– Yalan danışmaqdan çəkin. Çünki hər kəs sənin bu xasiyyətini bilərsə, doğru sözünə də inanmaz.

– Elm və kamalı əldə etməyi hər şeydən daha əziz tut. Çünki hər şeyi onların vasitəsilə əldə edirlər [4].

**2. H.M.Naxçıvani yaradıcılığında nəsihət müxtəlifliliyi**

Şərq və Azərbaycan ədəbiyyatında didaktik səciyyə daşıyan nəsihətnamə əsərlər həm nəzmlə, həm də nəsrlə yazılıb. Nəsihətnamə yazan sənətkar xalq təfəkküründən gələn mənəvi-etik normaları ibrətamiz şəkildə oxucuya çatdırır.

Belə nəsihətlərdən bir neçəsi də Hacı Molla Məhəmməd Naxçıvaninin "Kəşkülün-nur" əlyazma əsərində verilmişdir. Naxçıvani əsərin həcminin çox olmasını nəzərə alaraq bəzi ərəb sözlərinin ixtisarına və onların yalnız Azərbaycan dilində yazılaraq verilməsi qənaətinə gəlmişdir.

O, əsərdə cənabi Seyyid əs-Sacidin (İmam Zeynəlabidin) əleyhissalamın "Kənzül-Vaizin" kitabında rəvayət olunmuş "Müəzzə ba lüğəti şafiə"sini nəql edərək yazır: "Mən kifayət eylədim bir neçə söz və ya cümlələrdən ibarət tərkibi ərəbiyyələrini yazmaqdan və tərcümə türkiyə tuli (uzun) olmağı səbəbinə ki, Əli ibn Hüseyn əleyhissalam buyurur" [5, s.271-272]. Daha sonra əlavə edir:

"Ey insanlar! Həqiqətən, sizin ən istəkliniz Allah-Təalaya, sizin əməli yaxşı olanınızdır.

Həqiqətən, sizin ən aliliyiniz və böyüklüyünüz Allah yanında o kəsdir ki, meyil və rəğbəti Allaha böyükdür.

Sizin Allah əzabından nicat tapanınız o kəsdir ki, şiddətilən Allahdan ən çox qorxan olmuş ola.

Həqiqətən, sizin Allaha ən yaxın olanınız o kəsdir ki, xülqi-vəsieraxdır (gözəl əxlaq sahibidir, gözəl xasiyyətlidir).

Həqiqətən, sizin Allaha razı olan istəyiniz, Allaha o kəsdir ki, əyalına vüsət verən olsun.

Həqiqətən, sizin Allah yanında əziz olmaq istəyiniz, sizin təqvalı olmağınızdır" [5, s.271-272].

Müəllif əsərdə sxolastik fikirlərini qeyd etməklə sanki yeni fəlsəfi ideyalar ortaya qoymuşdur. H.M.Naxçıvani Şərq təfəkkürünün elmi-fəlsəfi müxtəlifliyini zənginləşdirən əsaslı iddialar irəli sürmüşdür. Belə ki, o, əsərdə öz fəlsəfi dünyagörüşünü ifadə edərək mövzunun ardıcıllığını belə qeyd etmişdir: "Sonra Seyyid əs-Sacidin əleyhissalam oğlu İmam Məhəmməd Baqir əleyhissalama buyurdu: - Xeyir ehsan eylə hər o kəsə ki, səndən xeyir ehsan xahiş edə. Hər gah o şəxs müstəhəqq xeyiri-ehsandır. Bəs "Təhqiqi-məhəllin"də vaqiə olub ki, əgər qeyri-müstəhəqqidi bəs sən layiqsən ehsana. Yəni, sən müstəhəqqi səzavarsan ki, qeyri-müstəhəqqi olana da ehsan edəsən. Hər gah bir şəxs səni sağ tərəfində təb (acıxlama, isitmə) edə, sonra çönüb sol tərəfindən gəlib səndən üzrxahlıq edə. Qəbul eylə"[1] [5, s.271-272]. Bu da səbrə işarədir ki, hərəkət vüsala meyllidir və məhəbbət üçün vacibdir. "Arifin hərəkəti həlak olmaqdır, məhəbbətin sükunu həlak olmaqdır" [6, s.28].

Müəllif əsərdə insanlığın fəlsəfi mahiyyətini dəyərləndirərək nəsihət xarakterli sözləri ardıcıl olaraq belə qeyd edir: "O böyük və ən ali olan Allahın həqqi (haqqı) sənə odur ki, ibadət edəsən Ona! Şərik qərar verməyəsən Ona heç bir şeyi! Eylə ki, bu ibadəti tərkişəriki ixlasilən

---

1 Türkcə tərcümə uzun olduğundan, mən ərəb dilindəki bir neçə söz və ya cümlələrdən ibarət tərkibləri yazmaqla kifayətləndim

elədin. Qərar edib səndən ötrü özünə ki, sənin dünya və axirət əmuratıva (ömrüvə) kifayət versin"[2] [5, s.272].

Sonra müəllif əxlaq normalarını təhlil edərək insan əzasının və nəfsinin nəyə qadir olduğunu, hansı mahiyyətə malik olduğunu və onların hansı funksiya daşıdığını göstərir:

"Sənin öz nəfsivin həqqi özüvə odur ki, zahir və batinini Allahın ibadətində məsruf (sərf etmə) edəsən.

Sənin dilinin həqqi sənə odur ki, kəzəbdən (yalandan) saxlayıb, xeyir kəlmələrə adət verəsən və bifayda artıq kəlmələrə hərəkət verməyəsən.

Qulağın həqqi odur ki, qiybətdən və sair qulaq asmağı halal olmayan zadlardan hifz edəsən.

Gözün həqqi odur ki, yumasan cəmi baxmağı halal olmayan zadlardan və ibrət tutasan baxmaqilən.

Əllərin həqqi odur ki, açıb və uzatmayasan o zadlara tərəf ki, halal deyil sənə.

Ayaqların həqqi odur ki, məşy (hərəkət) etməyəsən onlarilən o zadlara tərəf ki, halal deyil. Çünki sən o qədəmlərivilən duracaqsan pole-siratda (sırat körpüsündə). Məbada ləğziş (sürüşmə) tapıb səni cəhənnəmə sala.

Qarının həqqi odur ki, onu haram və şübhənak məkulat (yeməli şeylərə) və məşrubata (içməli şeylərə) tərəf etməsin və əlavə tox olmaq qədərindən ziyadə (artıq) dolduymayasan"[3] [5, s.272].

Müəllif kitabda verilən nəsihətlərin əsasını təşkil edən, islami dəyərlər baxımından qiymətli hesab olunan və bu dinin sütunu sayılan bəzi məqamlara da aydınlıq gətirmişdir. Belə ki, Naxçıvani bu məqamların hansı elmi-fəlsəfi mahiyyət daşıdığı barədə yazmışdır: "Namazın həqqi odur ki, bilib və anlayasan ki, nazil olubsan Allaha və durubsan Allahın hüzurunda. Eylə ki, bunu bildin durasan bir əbdu-zəlililən (zəlil qul kimi) durmağıtək ki, həqarətilən, xofilən, ümidilən, təzərröilən (itaətkarlıqla), sükunilən, vüqarilən və rəğbətilən ağasının hüzurunda durar. Qəlbivi mütəvəcceh (istiqamət) edəsən öz məbuduva və əmələ gətirəsən qəvanine-şəriyə (şəriət qanunlarını) və adabi-müqərrərəsilən (qərarlaşdırılmış tərzdə).

Həccin həqqi odur ki, arif olasan buna ki, sən qonaq nazil olursan öz Pərvərdigarıva və fərar edirsən öz günahlarında Allah tərəfinə. Ondadır sənin tövbəvin qəbul olmağı və mənasik (həcc ziyarəti mərasimi) həccin əmələ gəlməsi. O qanunilən ki, sənə vacib edib.

Orucun həqqi budur ki, anlayasan bunu ki, oruc bir pərdədir və hicabdır sənilən cəhənnəmin arasında. O hicabı və pərdəni vurub Xudavəndi-Aləm sənin diliva, gözüvə, qarnıva və fərəcivə bu səbəbə ki, səni məstur (örtülü, gizli) etsin cəhənnəmdən. Bəs hərgah orucu tutmayasan Allahın pərdəsini yırtıbsan özündən.

---

2 Ey insanlar! Həqiqətən, sizin Allah-Təala qatında ən istəkli olanınız, əməli yaxşı olanınızdır. Həqiqətən, sizin Allah yanında aliliyiniz və böyüklüyünüz Allaha meyil və rəğbətinizin böyük olmasındadır. Sizin Allah əzabından nicat tapanınız Allahdan ən çox qorxanınızdır. Həqiqətən, sizin Allaha ən yaxın olanınız o kəsdir ki, gözəl əxlaq sahibidir, gözəl xasiyyətlidir. Həqiqətən, Allah o kəsdən razı olar ki, ailəsinin rifahını təmin etmiş olsun. Həqiqətən, Allahın nəzərində əziz olmaq istəyən, gərək təqvalı olsun

3 Səndən xeyir ehsan xahiş edən hər kəsə xeyir ehsan elə. Əgər həmin şəxs xeyir ehsana möhtacdırsa, haqqı çatırsa. "Təhqiqi-məhəllin"də keçir ki, əgər həmin şəxs xeyir ehsana möhtac deyilsə, haqqı çatmırsa, onda ehsana sən layiqsən. Yəni haqqı çatmayana, ehtiyacı olmayana da ehsan etməyin sənə yaraşan, layiq olan hərəkətdir. Əgər kimsə səni sağ tərəfindən acılayıb, sonra qayıdıb sol tərəfindən üzr istəsə, qəbul elə

Sədəqənin həqqi odur ki, anlayasan sədəqə sənin zəxirəndi (axirət ehtiyatındı) Allahın yanında və amanatındı ki, Allaha tapşırırsan. O sədəqə ki, pünhani edib Allaha tapşırasan möhkəmrax və nəfəliraxdı (mənfəətli, faydalı) aşkarda edib tapşırmaqdan. Gərək biləsən ki, sədəqə dəf edər səndən dünyada bəlaları və naxoşluqları. Dəf edər səndən axirətdə cəhənnəmin odunu"[4] [5, s.272-273].

Həmçinin H.M.Naxçıvani nəsihətlərin müxtəlifliyini nəzərə alaraq arzu və istək baxımından müqəddəs kəlamları belə qeyd etmişdir: "Həvaxahişin (arzulamaq, həvəs etmək, istək etmə) həqqi odur ki, xahişlərində məqsudin Allah rizası ola. Nə məxluqu iradə edəsən xahişlərində. Allahın rəhmətinə yetişməyi və nicat tapmağı o gündə ki, Allaha mülaqat edəsən (qovuşasan)"[5] [5, s.273].

Müəllif sultanlığın və elm təlim edənin mərtəbəsinə isə bu cür diqqət çəkmişdir: "Sultanlığın həqqi odur biləsən ki, qərar edib səni ondan ötrü azmayiş (sınaq). Səni verib onun təhte-təsəllüt ixtiyarına (çətin, məsuliyyətli və qorxulu yük altında səltənət sahibi). Bu mərtəbeyi-səltənəti (sultanlıq mərtəbəsini) Allah əta edib ona. Sən məqruzsan (borclusan) ki, onun səxti-tənbihələrində (tənbeh etməsinin altında, çətin cəzalandırmasında) ona mötəriz (etiraz edən) olmayasan. Əgər mötəriz olsan özüvü öz əllərin ilə həlakətə salarsan və səbəb olarsan o təbihələrə ki, sultan tərəfindən sənə olunar"[6] [5, s.273].

"Sənə elm təlim edənin həqqi odur ki, o müəllimə təzim edəsən və onun məclisində mərasime-tövqir (mərasim vaxtını) əmələ gətirəsən və mütəvəcce olub yaxşı qulaq verəsən. Sövtüvü ona ucaltmayasan və onun hüzurunda sailə cavab verməyib ona rücu (qayıtma) edəsən. O hazır olan məclisdə əhadise-əxbar (hədislər söyləmə) bəyan etməyəsən. Yanında bir kəsin qeybətini etməyib və ona irad etməyəsən. Əgər bir xilafı ondan vaqiə olsa, o eyiblərini örtüb və təriflərini zahir edəsən. Onun düşmənləri ilə mücalisət (bir-biri ilə oturub durma, söhbət etmək) etməyəsən və dostlarını düşmən tutmayasan. Eylə ki, belə eylədin, sənin üçün şəhadət eylər Allahın mələkləri ki, onu iradə edib elm əxz edibsən Allahdan ötrü, nəinki məxluqdan ötrü"[7] [5, s.273]. Bu cür nəsihətlərə N.Tusinin əsərlərində də rastlamaq mümkündür: "Elm öyrənən tələbə dərs zamanı zərurət olmadan müəllimə yaxın oturmamalıdır. Onunla müəllim arasında bir kaman məsafəsi olmalıdır – bu məsafə hörmət əlamətidir" [1, s.10].

---

4 O böyük və ən ali olan Allahın sənin üzərindəki haqqı odur ki, Ona ibadət edəsən! Heç bir şeyi Ona şərik qoşmayasan!..

5 Nəfsinin sənin üzərindəki haqqı odur ki, zahir və batinini Allaha ibadətə sərf edəsən. Dilinin sənin üzərindəki haqqı odur ki, onu yalan danışmaqdan qoruyub, xeyir kəlmələrə adət etdirəsən və faydasız, artıq kəlmələrə yer verməyəsən. Qulağının sənin üzərindəki haqqı odur ki, onu qeybətdən və sair qulaq asmağı halal olmayan şeylərdən hifz edəsən. Gözünün sənin üzərindəki haqqı odur ki, baxmağı halal olmayan bütün şeylərə gözünü yumasan... Əllərinin sənin üzərindəki haqqı odur ki, sənə halal olmayan şeylərə əl açıb uzatmayasan. Ayaqlarının sənin üzərindəki haqqı odur ki, onlarla sənə halal olmayan şeylərə tərəf hərəkət etməyəsən. Çünki sən o qədəmlərinlə sirat körpüsündə duracaqsan. Məbada sürüşüb səni cəhənnəmə salalar..Qarnının sənin üzərindəki haqqı odur ki, haram və şübhəli yeyəcək və içəcəklərə meyl etməyəsən və qədərindən artıq qarnını doldurmayasan

6 Namazın haqqı odur ki, Allahın hüzurunda nazil olduğunu, durduğunu anlayasan. Zəlil qul ağasının hüzurunda duran kimi, sən də qorxu və ümidlə, itaətkarlıq və sükunətdə, vüqar və rəğbətlə durasan. Qəlbini öz məbuduna yönəldərək ədəbi-ərkanla, qaydalarına uyğun şəriət qanunlarını yerinə yetirəsən. Həccin haqqı odur ki, öz Pərvərdigarının qonağı olduğunu biləsən və öz günahlarından Allaha pənah aparasan. O zaman sənin tövbən qəbul olunar və həcc ziyarəti mərasimini yerinə yetirmiş olarsan... Orucun haqqı odur ki, orucun sənlə cəhənnəm arasında bir pərdə, hicab olduğunu anlayasan. Yaradan o pərdəni sənin dilinə, gözünə, qarnına, fərəcinə ondan ötrü vurub ki, səni cəhənnəmdən gizləsin. Əgər oruc tutmasan, deməli, Allahın pərdəsini özündən götürübsən. Sədəqənin haqqı odur ki, sədəqənin sənin Allah yanında axirət ehtiyatın olduğunu, Allaha əmanət tapşırdığını anlayasan. Gizlində verib, Allaha tapşırdığın sədəqə daha möhkəm, daha mənfəətli, faydalıdır. Axirətdə səndən cəhənnəmin odunu dəf edər

7 Arzu və istəklərinin, xahişlərinin haqqı odur ki, xahişlərində məqsədin Allahın rizasını qazanmaq olsun. Xahişlərində məxluqu arzulamayasan. Allaha qovuşduğun gün Onun rizasını qazanmağı və nicat tapmağı arzu edəsən

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

Əlyazma müəllifi sonra ailə-məişət məsələlərinə toxunaraq deyilən nəsihətləri belə vurğulayır: "Amma övrətin (qadın, arvad) həqqi budur ki, elmin ola buna ki, qərar edib Allah-Təala övrəti sənin üçün munis (ünsiyyət edən, əlaqə saxlayan) və sakin olacaq. Övrət bir nemətdir Allah-Təaladan sənə. Bəs ikram və ehtiram edəsən ona və mülayimilən müdarə edəsən. Əgərçe sənin həqqin ona vacibraxdır. Həqiqətən, sənin üçün lazım olan odur ki, ona rəhm edəsən. Ondan ötrü ki, sənin əsirindi və təam və libas verəsən. Əgər bir xilaf ədəb iş görsə, əfv edəsən"[8] [5, s.273].

Sonra müəllif nəsihətlərində nökərin, qulam və kənizin həqqi olan məqamlara toxunaraq və insanlıq prinsiplərini əsas tutaraq yazır: "Nökərin, qulam və kənizin həqqi budur ki, alim olasan buna ki, o sənin Pərvərdigarıvın məxluqudur və onun ata və anası, sənin ata və anandır. Yəni Adəm və Həvva. Sən ona maliki-ağa olubsan, nəinki sən onu xəlq edibsən. Ya bəzi əzasını xəlq edibsən. Nəinki sən onun raziqisən (raziq – ruzi verən), bəlkə sənin və onun raziqi Allah-Təaladır. Onu sənə zirdəst (əlaltı) edib. Səni əmin qərar edib ona və onu sənə əmanət tapşırıb. Hifz edir o zadları ki, səndən ona yetişə xeyirdən. Bəs ehsan eylə ona, belə ki, ehsan edib Allah sənə. Hər gah naxoş tutursan onu. Bəs təbdil (başqa şəklə salma, dəyişdirmə) etgilən və incitmə Allahın məxluqunu"[9] [5, s.273].

Əsərdə diqqəti cəlb edən əsas məqamlardan biri də ata-anaya qarşı münasibətin yer almasıdır. İbrətamiz nəsihətlərlə zəngin olan bu göstəricilər övlad-valideyn, valideyn-övlad münasibətlərinin tənzimlənməsini və mehribançılığını təzəhhür etdirir. Ananın haqqının qaytarılmasını qeyri-mümkün hesab edən müəllif bu qənaətdədir ki, bu yalnız Uca Allahın yardımı, köməyi və tövfiqiylə mümkün olar. Müəllif ana haqqının çətinliklərinin qaytarılmasını əsərdə nəsihətlərin ardı olaraq belə qeyd edir: "Anavın həqqi; Bəs gərək biləsən ki, səni gətirib bir yerə, yəni qarnına ki, heç kəs, heç kəsi o yerdə götürüb saxlamaz. Əta edib sənə öz qəlbinin meyvəsini, belə meyvə ki, heç kəs, heç kəsə verməz. Saxlayıb səni cəme cəvarehi-əzası ilə (cariyə əzası ilə) bak (qorxu, xof) etməyib. Özü ac qalıb, sənə yedirdib. Susuz olub, səni sirab edib. Üryan qalıb, səni geyindirib. Özü gün qabağında qalıb, səni kölgə yerdə saxlayıb. Yuxudan bidar (oyanıb) olub səndən ötrü. Səni soyuxdan və istidən mühafiz edib tainki sən ona himayət və məhəbbət edəsən. Bəs həqiqətən sən anavın şükrünə taqət gətirmərsən məgər Allahın mədədiylə və tövfiqiylə (Allahın yardımı ilə, Tanrının köməyi ilə)"[10] [5, s.273-274].

H.M.Naxçıvani müxtəlif fəlsəfi fikirləri tamamlamaqla atanın haqqını belə qeyd edir: "Atavın həqqi budur ki, alim (elmli, bilici) olasan buna ki, o sənin əslindi və əgər o olmayaydı sən olmazdın. Bəs hər vaxt ki, gördün öz nəfsində bir zadı ki, səni təəccübə gətirdi, bəs bilginən

8 Sultanlığın haqqı odur ki, sənin ona sınaq üçün verildiyini biləsən. Onu çətin, məsuliyyətli və qorxulu yük altında səltənət sahibi edibdir. Bu sultanlıq mərtəbəsini ona Allah əta edibdir. Sən onun cəzalandırmasına etiraz etməyəsən. Əgər etiraz etsən, öz əllərinlə özünü həlak edərsən...

9 Sənə elm öyrədənin sənin üzərindəki haqqı odur ki, həmin müəllimə təzim edəsən, onun məclisində iştirak edəsən, üzünü ona tutub, diqqətlə qulaq asasan. Səsini ona ucaltmayasan, onun hüzurunda sual verənə cavab verməyib, müəllliminə qayıdasan. O olan məclisdə hədislər bəyan etməyəsən. Yanında kiminsə qeybətini etməyəsən və ona irad bildirməyəsən. Əgər bir səhvi olsa, eyiblərini örtüb, tərif edəsən. Onun düşmənləri ilə oturub durmayasan, dostlarını düşmən tutmayasan...

10 Xanımının sənin üzərindəki haqqı budur ki, biləsən: Allah-Təala sənin onunla ünsiyyət qurmağın üçün qərar verib. Xanımın Allah-Təaladan sənə bir nemətdir. Ona hörmət və ehtiram bəsləyəsən, mülayim davranasan. Sənin onun üzərindəki haqqın daha vacibdir. Həqiqətən, sənin üçün lazım olan odur ki, ona rəhm edəsən. Çünki o, sənin əsirindi, ona təam və libas verəsən. Əgər səhv bir iş görsə, əfv edəsən.

ki, atan əsl (soy, nəsəb, nəsil) nemətdi. O təəccüb etdiyin əmr üçün ki, özündə onu mülahizə edirsən. Həmd və şükür eylə Allaha bu nemətin qədərinə. Bir qüvvət yoxdur məgər Allahilən"[11] [5, s.274].

Övlad həqqini isə müəllif belə yazır: "Övladın həqqi budur ki, alim olasan buna ki, o səndəndi və sənə mənsubdu dünyada onun xeyiri və şəri. Sən sual olunacaqsan o işdən ki, övladıvı ona vadar edirsən. Hüsnü-ədəbdən, Pərvərdigara və şəriətə dəlalət etməkdən və ianət (kömək etmək) etməkdən ibadəti-Pərvərdigari-Aləmə. Bəs iş gör övlad xüsusində bir qərarilən ki, sən savab verilmiş olacaqsan əgər ki, xeyir əmələ və ehsana dəlalət edəsən. Ruməaqib (əzab verilmiş) olacaqsan əgər ki, bəd əmələ və xilafə vadar edəsən"[12] [5, s.274].

H.M.Naxçıvani həmçinin nəsihətlərin davamı olaraq qardaş haqqında yazır: "Sənin sülbi və bətni qardaşıvın həqqi budur ki, elmin ola buna ki, o sənin əlindir və qüvvətindir. Bəs onu Allahın məsiyyətinə (günah) səbəb eyləmə və nə məxluqa zülm eyləməgə. Bunlardan qeyri zadlarda ona mədəd eylə və nəsihət eylə. Bəs əgər itaət eylədi ( ال ا و اهیف ) fiha və illa (onlardan savayı) Allah-Təala əkrəmdir sənə ondan"[13] [5, s.274].

**Nəticə**

Araşdırmaların məntiqi nəticəsi olaraq belə qənaətə gəlmək olar ki, Hacı Molla Məhəmməd Naxçıvani bu nəsihətləri "Kəşkülün-nur" kitabında verməklə öz dövrünün ictimai mühitini saflaşdırmaqla yanaşı, milli-mənəvi dəyərlərin qorunmasına da töhfə vermişdir. Əsərdəki maariflәndirici aspektlər müəllifin elmi-fəlsəfi dünyagörüşünün başlıca göstəricisidir. Zəngin bilik və bacarığa malik olan H.M.Naxçıvani digər əsərləri ilə yanaşı, bu əsərdə də ibrətamiz nəsihətlərə yer ayırmış və ədəbi-bədii yaradıcılığını sübuta yetirmişdir.

Güman edirik ki, tədqiqata cəlb edilən bu əsər bugünkü gənc nəslin maariflənməsinə böyük töhfə olmaqla yanaşı, gələcək nəslin saf və sağlam yetişməsində də rol oynayacaqdır.

---

11 Nökərin, qulam və kənizin haqqı budur ki, biləsən: o sənin Pərvərdigarının məxluqudur və onun ata və anası sənin də ata və anandır. Yəni Adəm və Həvvadır. Sən sadəcə onun ağasısan, onu xəlq etməyibsən. Ya da hər hansısa əzasını xəlq etməyibsən. Sən onun ruzi verəni deyilsən, sənin və onun ruzi verəni Allah-Təaladır. Onu sənə əlaltı edib. Səni ona əmin qərar verib və onu sənə əmanət tapşırıb... Allahın sənə ehsan etdiyindən sən də ona ehsan elə. Onu naxoş tutma. Allahın məxluqunu incitmə.

12 Ananın sənin üzərindəki haqqı odur ki, biləsən: səni elə bir yerə (yəni qarnına) gətirib ki, heç kəs heç kəsi o yerdə götürüb saxlamaz. Sənə öz qəlbinin meyvəsini ata edib, elə bir meyvə ki, heç kəs heç kəsə verməz. Qorxmayıb, xof etməyib, saxlayıb səni... Özü ac qalıb, səni yedirdib. Susuz olub, səni suyla doydurub. Paltarsız qalıb, səni geyindirib. Özü gün qabağında qalıb, səni kölgə yerdə saxlayıb. Səndən ötrü yuxusuz qalıb. Səni soyuqdan və istidən qoruyub, o vaxta kimi ki, sən onu məhəbbət və sevgi ilə himayə edəsən...

13 Atanın sənin üzərindəki haqqı budur ki, biləsən: o, sənin əslindi və əgər o olmasaydı, sən də olmazdın...

# ƏDƏBİYYAT


1. Xacə Nəsirəddin Tusi. Adabül-mütəəllimin (Tələbəlik mədəniyyəti). Ərəb dilindən tərcümə edən və ön sözün müəllifi: Kamandar Şərifli. Bakı: Nurlan, 2002, 20 s.
2. Əbu Bəkr ibn Xosrov əl-Ustad. Munisnamə (tərcümə edən: f.ü.f.d. İbrahimov S.). Bakı: AzTV, 2008, 143 s.
3. https://edebiyyat.ucoz.com/index/0-54
4. https://az.wikipedia.org/wiki/%C5%9Eah_%C4%B0smay%C4%B1l_X%C9%99tai
5. نخجوانی حاج ملا محمّد, كشكول النور, 1312 ه.ق. 560 ص
Xacə Nəsirəddin Tusi. Övsafül-əşraf (Şərafət sahiblərinin vəsfi). Fars dilindən tərcümə edən: Rauf Şeyxzamanlı. Bakı: Nurlan, 2002, 34 s.
6. Xacə Nəsirəddin Tusi. Si fəsl (Otuz fəsil). Fars dilindən tərcümə edən: Kamal Abdullayev. Bakı: Nurlan, 2002, 30 s.

Сабухи Ибрагимов

# РАЗЛИЧНЫЕ ФИЛОСОФСКИЕ СОВЕТЫ В ПРОИЗВЕДЕНИИ ХАДЖИ МОЛЛА МОХАММАДА НАХЧЫВАНИ «КАШКУЛУН-НУР»

## РЕЗЮМЕ

В статье отражены различные философские советы в произведении Хаджи Моллы Мохаммада Нахчывани «Кашкулун-нур» и определены другие темы книги. Таким образом, неоспоримый факт, что произведения некоторых известных классических поэтов и писателей Средневековья содержат различную ценную информацию под этим именем. С этой точки зрения наша работа еще раз выявляет эти факторы. В работе автор не только дал филологический анализ темы, но и дал оценку различным философским аспектам.

В ходе анализа выяснилось, что авторская работа «Кашкулун-нур» не изучена и не участвует в научных исследованиях. Мы считаем, что изучение этой работы, которая является одной из пяти ценных книг Хаджи Моллы Мохаммада Нахчывани, будет представлять большой интерес для нашего современного общества, и в этой связи ее исследование, анализ и научные исследования очень важны.

Sabuhı Ibrahımov

# VARIOUS PHILOSOPHICAL ADVICES IN THE WORK OF HAJI MOLLA MOHAMMAD NAKHCHIVANI "KASHKULUN-NUR"


## SUMMARY

The article reflects various philosophical advices in Haji Molla Mohammad Nakhchivani's work "Kashkulun-nur" and identifies other themes of the book. Thus, it is an undeniable fact that the works of some well-known classical poets and writers of the Middle Ages contain various valuable information under this name. From this point of view, our work reveals these factors once again. In the work, the author not only gave a philological analysis of the topic, but also evaluated various philosophical aspects.

During the analysis, it became clear that the author's work "Kashkulun-nur" has not been studied and is not involved in scientific research. We believe that the study of this work, which is one of the five valuable books of Haji Molla Mohammad Nakhchivani, will be of great interest to our modern society, and in this regard, its research, analysis and scientific research is very important.

# XIX ƏSRDƏ UDİLƏRİN ETNOKONFESSİONAL VƏZİYYƏTİ

***Məhəbbət PAŞAYEVA,***
*Azərbaycan Dövlət İqtisad Universiteti*
*Humanitar fənlər kafedrasının professoru,*
*Multikulturalizm Tədqiqat Mərkəzinin rəhbəri,*
*tarix elmləri doktoru,*
*pashayeva.m@gmail.com*

***AÇAR SÖZLƏR:*** *udilər, alban, Xristianlıq, Alban kilsəsi, etnik kimlik.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Удины, албанцы, христианство, Албанская церковь этническая идентичность.*
***KEY WORDS***: *Udins, Albanians, Christianity, Albanian Church, ethnic identity.*

**Giriş**

Udilər qədim Azərbaycan dövləti Qafqaz Albaniyasında məskunlaşmış 26 tayfadan biri və bu tayfalar arasında albanlardan sonra ən böyük tayfa olmuşlar. Kalankatuklu udilərin albanların mifik əcdadı sayılan Aranın nəslindən olduğunu qeyd edir [1, I, 5]. Etnik tərkibinə görə rəngarəng olan Azərbaycanda hələ Qafqaz Albaniyası (e.ə.IV- e.VIII) dövründə qarqar, hun, uti, kaspi, qel, hər, qat kimi bir çox tayfalar Alban Tayfa İttifaqında birləşmişdilər.

Udilər haqqında hələ qədim akkad, şumer, urartu, daha sonrakı dövrlərdə isə antik mənbələrdə və orta əsr müəlliflərinin əsərlərində məlumat verilir [2, s.193]. Tədqiqatlar udilərin hələ e.ə. XXIII-XXI əsrlərdə şumer, akkad mənbələrindən məlum olan qədim Azərbaycan tayfaları kutilərin nəslindən olub, tarixi zaman içərisində Cənubi Azərbaycandan şimal-şərq istiqamətində hərəkət edərək Qafqazın cənub və cənub-şərq bölgələrində məskunlaşdığını, uti/udi adı ilə Qafqaz Albaniyasının aparıcı tayfalarından birinə çevrildiyini söyləməyə əsas verir [3, s.110; 4, s.64-65, 103].

I–VIII əsrlərdə uti/udi/udin etnik adı qədim müəlliflərin əsərlərində Kürün sağ sahilində yerləşən Uti/Utik adlı alban toponimində öz əksini tapmışdır. Antik dövrdə Uti / Utik adı ilə bilinən bu vilayət müasir Gəncə, Şəmkir, Tovuz ərazilərini əhatə edirdi [5, s.7, 111; 1, I, 5, 6, 15, 18 / II, 13]. Mənbələr udilərin antik dövrdə Kürdən şimala Əlcikin və Türyançay hövzəsindən başlayaraq Bərdə rayonu da daxil olmaqla Tərtər çayı hövzəsinə qədər uzanan ərazilərdə məskunlaşdığını təsdiqləyir [5, s.111]. Bütövlükdə udi alban tayfalarının məskunlaşma arealı Göyçə gölü və Araz çayları arası, Kür və Tərtər çaylarının aşağı hissələri, müasir Gəncə, Şəmkir və Tovuz ərazilərini, həmçinin Şəki, Qəbələ, Oğuz bölgələrini əhatə etmişdir.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

**Alban Apostol kilsəsi udilərin mənəvi mədəniyyətinin tərkib hissə kimi**

Alban etnomədəni irsinin formalaşmasında, xüsusilə də alban xristian ənənələrinin qorunmasında özünəməxsus yeri olan udi tayfaları Alban Apostol Kilsəsi tarixində də xüsusi iz qoymuş etnoslardandır. Alban Kilsəsinin bütün mövcudluğu dövründə Xristianlıq udilərin mənəvi ideologiyasının tərkib hissəsi olmuşdur.

Qafqaz Albaniyasında xristian icmaları hələ eranın ilk əsrində meydana gəlmişdi. Eranın I əsrində udilərin sıx məskun olduğu Uti\Utik əyalətində apostol Faddeyin tələbəsi Müqəddəs Yelisey Yerusəlim patriarxı Yakubdan xeyir-dua alaraq Xristianlıq təlimini yaymışdı.

İmperator I Konstantinin 313-cü ildə Xristianlığı Roma imperiyasının rəsmi dini olaraq tanımasından dərhal sonra Alban çarı Urnayrın dəvətilə ölkəyə gələn Maarifçi Qriqori alban zadəganlarını xaç suyuna salaraq Qarabağda udilərin əsas ibadət yerlərindən biri olan Amaras məbədinin əsasını qoydu [6; 7, s.3]. Bununla da IV əsrdə Albaniyada Xristianlıq dövlət dini elan edildi. Alban kilsəsində əsası apostollar dövründən qoyulduğu üçün alban ruhanilərinə kilsə rəhbəri olaraq katolikos/patriarxın xeyir-dua vermək hüququna malik kilsə iyerarxiyası formalaşdı [1, I, гл. 6].

VII əsrin sonlarında Azərbaycan ərazilərinin ərəb xilafətinin təsir dairəsinə keçməsi və Qafqaz Albaniyasının süqutu ilə alban etnosunun böyük bir hissəsi İslamı qəbul edərək konfessional və linqvistik baxımdan assimilyasiyaya uğradı. Tədricən bu etnosun müsəlman hissəsi üçün alban etnik adı unudulmağa başladı. Belə ki, İslam ənənələrində milli mənsubiyyətdən daha çox dini mənsubiyyət önə çıxdığı üçün alban etnik adı müsəlman albanlar içərisində əriyib itməkdə idi.

Buna baxmayaraq, albanların bir qismi, o cümlədən udilər ərəb qoşunlarının gedib çatmadığı Qarabağ kimi dağlıq bölgələrdə öz xristian dinini, dilini, etnik identikliyini, maddi və mənəvi mədəniyyətini, həmçinin alban katolikosluğu başda olmaqla Alban Apostol Avtokefal Kilsəsini mühafizə edə bilmişdilər. Məhz həmin təbəqə VIII-XIX əsrlər boyu-1836-cı ilədək Alban Apostol Kilsəsinin tərkib hissəsini təşkil etmiş, VIII-XI əsrlərdə Şəki, Oğuz, Qəbələ, Qarabağ bölgələrində alban çarlıqlarının yenidən dirçəldilməsinə nail olmuşdular.

Xristian albanların son nəsilləri olaraq udilər XIX əsrədək öz tarixi torpaqlarında - Göyçə gölü və Araz çayları arası, Kür və Tərtər çaylarının aşağı hissələri, müasir Gəncə, Şəmkir və Tovuz əraziləri, həmçinin Şəki, Qəbələ, Oğuz bölgələrində yaşamaqda idilər. Onlar öz etnik kimliklərini, udi alban adını və tarixi yaddaşlarını, Alban Apostol Avtokefal Kilsəsini də yaşatmaqda idilər. Bu baxımdan udilər Azərbaycanın alban xristian irsinin yadigarlarıdır.

V-VIII əsrlərdə Alban Apostol kilsəsinin 12 yepiskopluğundan üçü Amaras, Bərdə, Girdman yepiskopluqları udilərin məskunlaşdığı Uti/Utik vilayətində yerləşirdi. Müxtəlif dövrlərdə Çola, Kiş, Bərdə, Gəncə, Həmşivəng kimi ərazilərdə iqamətgahı olmuş Alban katolikosluğu XIII əsrdən etibarən Qarabağda alban Xaçın hakimliyinin ərazilərində yerləşən Gəncəsər monastırında iqamət etdiyi üçün Qanzasar (Gəncəsər) katolikosluğu adlanmağa başlamışdır [7, s.541, 146, 555]. XX əsrin əvvəllərində rus müəllifi Veliçko da XIX əsrədək Alban patriarxlığının mərkəzinin Şuşa yaxınlığındakı Qanzasar monastırında yerləşdiyini yazırdı [8, s.40].

**Azərbaycanın mənəvi irsi -xristian albanların son nəsilləri udilər**

Xristian albanların son nəsilləri olaraq udilər XIX əsrədək tarixi torpaqlarında yaşamaqda idilər və etnik kimliklərini, tarixi yaddaşlarını, Alban Apostol Avtokefal kilsəsini yaşatmaqda idilər. Özlərinin alban tayfalarından olduqlarını heç bir zaman unutmayan udilər hələ XVIII əsrin əvvəllərində Qarabağın alban məlikləri olaraq I Pyotra ünvanladıqları məktubda özlərini udi tayfasından olan albanlar adlandırırdılar [9, д.4, л.27]. Məhz həmin alban udilər 1836-cı ilədək Alban Apostol kilsəsinə ibadət edənlərin əsas tərkib hissəsini təşkil etmişdir.

Türkmənçay müqaviləsindən (1828) sonra Rusiya İmperiyasının Qafqazda möhkəmlənmək məqsədilə İrandan və Türkiyədən erməniləri Azərbaycanın İrəvan, Zəngəzur, xüsusilə də Qarabağ ərazilərinə köçürməsilə xristian albanlar faciəli bir tale ilə üz-üzə qaldılar. İmperiyanın Azərbaycan xanlıqlarına kütləvi köçürdüyü ermənilər bu torpaqlarda tarixi cəhətdən də kök salmaq üçün Qafqazda əsrlərdən bəri mövcud olmuş Alban xristian irsini mənimsəmək yolunu seçdilər. Bu yolda onlara ən böyük maneə Alban Kilsəsi və xristian alban etnosu-udilər idi.

Türkmənçay müqaviləsindən sonra Eçmiədzin Qriqoryan Kilsəsinin Rusiya İmperiyasının himayəsinə keçməsilə [8, s.41] Alban Kilsəsinin ləğvi üçün məkrli siyasət başladıldı. Nəticədə IV əsrdən bəri fəaliyyətini davam etdirməyə müvəffəq olmuş Alban Avtokefal Apostol Kilsəsi 1836-ci ildən Erməni Qriqoryan Kilsəsinin idarəçiliyinə verildi. Rusiya imperatoru I Nikolayın Senata göndərdiyi Erməni Qriqoryan Kilsəsinin idarə edilməsi barədə 11 mart 1836-ci il tarixli fərmanı əsasında Alban Qanzasar katolikosluğu ləğv edildi, onun yeparxiyaları Eçmiədzinə tabe edildi [10, s.194-209]. Alban Kilsəsinin ləğvindən sonra ermənilər tərəfindən alban etno-mədəni mirasının zəbt edilməsi prosesi başlandı. 1909-1910-cu illərdə isə Rus Sinodundan köhnə arxiv sənədlərinin məhv edilməsinə icazə almağı bacaran Eçmiədzin Kilsəsi Alban Kilsəsinə aid olan bütün avadanlıq və arxiv sənədlərini tamamilə aradan qaldırdı. Erməni Qriqoryan kilsəsi çar hökumətinin dəstəyi ilə alban mədəni irsini ələ keçirərək əsrlərlə yaradılmış zəngin alban tarixi-ədəbi ənənələrini saxtalaşdırmağa başladı.

**1836-cı ildə Alban kilsəsinin ləğvinin udilərin etnik durumuna təsiri**

Alban kilsəsinin ləğvi həm alban xristian mədəniyyətinin, həm də son alban nəsillərinin etnik durumuna faciəvi təsir göstərdi. Qeyd etmək lazımdır ki, ərəb istilalarından sonra Albaniya dövləti süqut etsə də, Alban kilsəsinin fəaliyyəti məhdudlaşdırılsa da, Azərbaycanda tarixən mövcud olan tolerant ənənələr sayəsində ölkədəki alban kilsələri müsəlman mühitində XIX əsrə, yəni Rusiyanın Qafqazı ilhaq etməsi ilə ermənilərin Qafqaza köçürülməsinə qədər fəaliyyətini davam etdirməkdə idi. I Nikolayın 11 mart 1836-cı ildəki məlum Fərmanından sonra isə əsrlərdən bəri alban xristian ənənələrini yaşatmağı bacarmış son albanların - udilərin etnik kimliyi və dini mənsubiyyəti amansızcasına məhv edilməyə başlandı.

Alban Kilsəsinin ləğvi ilə alban-udilər avtomatik olaraq Qriqoryan kilsəsinə, siyahıyaalma sənədlərində isə ermənilərə aid edildilər. Belə ideoloji assimilyasiya nəticəsində udilərin bir hissəsi məcburi qriqoryanlaşdırılmağa və erməniləşdirilməyə məhkum edildi. Qeyd etmək lazımdır ki, albanların müsəlmanlaşması prosesi əsrlər boyu, tədricən və

könüllü davam etdiyi halda, onların qriqoryanlaşdırılması (erməniləşdirilməsi) prosesi zor gücünə aparılmaqda idi. Bu proses bütün XIX əsr boyu çox ağrılı şəkildə davam etmişdir. Artıq XX əsrin əvvəllərində udilərin etnik mənsubiyyəti onların dini mənsubiyyəti ilə müəyyən edilirdi. XX əsrin əvvəllərində rus müəllifi V.L.Veliçko yazırdı ki, Qarabağda XIX əsrin əvvəllərinədək müstəqil Alban Qanzasar katolikosluğu mövcud olub. İndi isə həmin Alban kilsəsinin tərkib hissəsi olmuş xristian əhali artıq erməni sayılır. Qarabağın alban əhalisi-xristian qarabağlılar erməni-qriqoryan məzhəbini qəbul etdiyi üçün yanlış olaraq erməni adlandırılırlar [8, s.34, 78].

XX əsrin əvvəllərində udilərin etnokonfessional vəziyyəti o qədər dramatik hal almışdı ki, onlar Erməni kilsəsinin təzyiqi altında zorla erməniləşməyə məruz qalmamaq üçün Xristianlığın digər qollarını, hətta başqa dini belə qəbul etməyə hazır idilər. Bununla bağlı Rus Sinodunda erməni adlandırılmaması üçün qriqoryanlıqdan imtina edərək lüteranlığı qəbul etməyə icazə istəyən Qarabağ udisi haqda sənəd var [11].

Udilərin böyük bir qismi də tamamilə Xristianlıqdan imtina edərək İslam dinini qəbul etmişdi. XIX əsrin ortalarında Azərbaycanda olmuş və udilərin mənşəyi ilə maraqlanan fransız müəllifi Aleksandr Düma udilərin bir qisminin İslam dininə ibadət etdiyini yazırdı [12, s.264]. XIX əsrdə Tərtər rayonunun Seysulan kəndində Azərbaycan dilində danışan müsəlman udilər qeydə alınmışdı [13, s.38; 14, s.44].

**Udilərin doğma Qarabağ torpaqlarından didərgin salınması**

Etnik identikliyini, inancını, dilini qorumaq üçün udilərin bir qismi də XIX əsrdə erməni köçlərinin kütləvi hal aldığı doğma torpaqlarından – Qafqaz Albaniyası dövründən yaşadıqları tarixi ərazilərindən, xüsusilə də Qarabağ bölgəsindən didərgin düşdülər. XIX əsr alban müəllifi Makar Barxudaryans yazırdı ki, onlar müqəddəs yerləri və kilsələri dağıdıldıqdan sonra doğma yerlərini tərk etmək məcburiyyətində qaldılar [13, s.38]. XIX əsrin sonlarından Qarabağ udilərinin böyük bir hissəsi ənənəvi qışlaq yerləri olan Yelizavetpol quberniyasının Nuxa qəzasının Zaqatala dairəsinə –indiki Oğuz və Qəbələ, Şəki ərazilərinə köç etdilər. Bu proses udilərin həmin dövrə aid statistikasında da özünü büruzə verir. 1895-ci ildə Vartaşen (Oğuz) və Nicdə 5084 nəfər udi yaşadığı qeyd olunduğu halda [15, s.6], 1908-ci ildə Nicdə udilərin sayı 7657 nəfərə çatmışdı [16, s.164]. 1910-cu ildə isə Nuxa qəzasında udilərin sayı 10 min olmuşdu [17, s.549]. XIX əsrdə udilər Nuxa qəzasının Nic, Vartaşen (Oğuz), Vardanlı, Mirzəbəyli, Sultan-Nuxa, Courlu, Malıx, Yenikənd, həmçinin Qazax qəzasının Girzan, Tərtərin Seysulan kəndlərində də məskunlaşmışlar [18, s.213]. Hazırda Şəki-Zaqatala bölgəsində Oxud, Udulu, Calud, Bunud, həmçinin Şamaxı bölgəsində Udulu kimi bir sıra etnotoponimlərdə də udi etnoniminin izlərini görmək mümkündür. Qazax qəzasının Bozalqanlı bölgəsindəki Kirzan kəndi də XX əsrin 30-cu illərinə qədər udi kəndi kimi qeydə alınmışdır [19, s.286-295]. Sovet etnoqrafı S.Bruk Kirzan kəndinin tarixi Uti vilayəti ərazisində yerləşdiyini, assimilyasiyadan qaçan udilərin sığınacaq tapıb yaşaya və udi dilini qoruya bildiyi çox az qalmış yerlərdən biri olduğunu yazırdı [20]. Lakin XIX əsrin ortalarına kimi bu udi

kəndində 700-dən çox ev olmasına baxmayaraq [21, s.4], imperiyanın apardığı məkrli dini siyasət nəticəsində artıq XIX əsrin sonuna doğru - 1873-cü ildə burada udi kimi qeydə alınmış 198 nəfərdən ibarət 29 ev, 1885-ci ildə isə 132 udidən ibarət 26 ev qalmışdı [21, s.44; 14, s.44]. 1908-ci ildə Kirzan kəndində cəmi 106 adam qalmışdı və kənddəki udi nəsillərinin bir hissəsi tamamilə erməniləşmişdi. Buna baxmayaraq, XX əsrin əvvəllərində kənddə hələ də çoxlarının öz qədim əcdadlarının udi tayfasından olmalarını və udi dilini xatırladığı qeyd olunurdu [17, s.289; 14, s.44].

Göründüyü kimi, çarizmin Qafqazda apardığı milli müstəmləkə siyasəti nəticəsində udilərin etnik kimliyi dolaşıq vəziyyətə salınmışdı. Bu siyasətin nəticəsi olaraq artıq XIX əsrin 80-ci illərində udilərin mənşəyi barədə bir-birini təkzib edən fikirlər ortaya çıxırdı. Bir tərəfdən Nuxa qəzasının ən köklü əhalisinin erməni-udilər olduğu barədə fikirlər söylənir, digər tərəfdən də Nic və Vartaşendə yaşayan udilərin dilinə başqa heç yerdə təsadüf olunmadığı yazılırdı [22, s.19]. Vartaşen udilərindən 750 nəfər pravoslav, digərləri, həmçinin Nic udiləri qriqoryan məzhəbində qeydə alınmışdı [23, s.5]. Hətta Qutqaşın (indiki Qəbələ) mahalının Sultan-Nuxa kəndinin nə erməni, nə də udi dilini bilən, Azərbaycan dilində danışan qriqoryan məzhəbli xristian əhalisi də erməni kimi qeydə alınmışdı [24]. Zaqatala dairəsində, həmçinin Vartaşendə (Oğuz) pravoslavlığı qəbul edən udilərin bir hissəsi isə Rusiya imperiyasının siyahıya alma sənədlərində gürcü olaraq qeyd edilmişdi [24].

XIX əsrin ortalarında Azərbaycanda olmuş və udilərin mənşəyi ilə maraqlanmış A.Düma da (ata) "Qafqaz səfəri" əsərində yazırdı ki, "Onların haradan gəldikləri bəlli deyil və heç kimin anlamadığı və heç bir dilə bənzəməyən bir dildə danışırlar. Özləri də bu qeyri-müəyyənlikdə itib batırlar" [12, s.264].

**Udilərin etnik identikliyini qorumaq uğrunda mübarizəsi**

1836-cı ildən etibarən kilsələrindən məhrum edilən udilər qriqoryanlaşdırma-erməniləşmə prosesinə qarşı çıxaraq Erməni kilsəsinə getməkdən imtina etdilər və özlərini heç bir kilsəyə aid etmədilər. Eçmiədzin kilsəsi onlara Alban kilsəsinə, o cümlədən Oğuz və Qəbələ bölgəsində udilərin Kala Gerges adı ilə ziyarət etdiyi Müqəddəs Yelisey alban kilsəsinə getməyi qadağan etmişdi. 1853-cü ildə onlar üçün xüsusi olaraq erməni kilsəsi tikilməsinə baxmayaraq, udilər kilsədən tamamilə imtina etdilər. Onlar bir dəfə də olsun erməni kilsəsinə girmədilər və Müqəddəs Yelisey kilsəsinə getmədikləri zamandan etibarən öz alban xristian inancını, etnik mənsubiyyətini qoruya bilmək üçün evlərində ibadətlərini davam etdirdilər. 1867-ci ilə aid bir mənbədə Nic, Mirzəbəyli, Courlu kəndlərindəki udilərin yeni kilsə qaydalarından, yəni qriqoryan kilsəsinin qaydalarından tamamilə xəbərsiz olduğu, kilsəyə yığışan udilərin burada ibadət əvəzinə kilsəsinin içindəki ocaq yerinin ətrafına toplaşdığı qeyd olunurdu [7]. XIX əsrdən etibarən öz etnik identikliyini qoruyub saxlamaq və alban xristian ənənələrini davam etdirmək üçün Nic kəndinin sakinləri dini ibadətlərini gizli şəkildə, xüsusi evlərdə icra etmişlər.

Hazırda udilər kompakt şəkildə yalnız Nic və Oğuzda yaşayırlar. Xüsusilə Nic udiləri öz alban köklərini yaddan çıxarmamış, dini və etnik ənənələrini yaşadaraq müasir dövrədək

mövcudluğunu davam etdirmişlər. Nic kəndində apardığımız etnoqrafik çöl tədqiqatları nəticəsində məlum olmuşdur ki, Nic udiləri xristian ənənələrini qədim alban inancları-bütpərəst ayinlərlə zənginləşdirməklə iki əsr boyu öz xristian ibadətlərini özünəməxsus şəkildə dini və məişət ənənələrində davam etdirmiş, Alban Kilsəsinə etiqadlarına sadiq qalmağa çalışmışlar. Bununla da öz dilini, dinini, etnik kimliyini və etnik adını günümüzədək qoruya bilmişlər.

**Nəticə**

Müasir dövrdə Azərbaycan Respublikasında dini fəaliyyət sahəsində aparılan uğurlu siyasət nəticəsində udi etnosunun itirilmiş hüquqları tam bərpa edilmişdir. Bu gün udi etnosunun və onun timsalında Azərbaycan xalqının mənəvi mirası olan alban xristian irsinin qorunub saxlanması üçün alban abidələrinin bir qismi bərpa edilərək xristian albanların son nəsilləri olan udilərin istifadəsinə verilmişdir. Azərbaycan Dövləti tərəfindən bu gün xristian albanların son nümayəndələri olan udilərin alban kilsələrində öz ibadətlərini etməsi üçün bütün imkanlar yaradılmışdır. Udi icmasının kompakt yaşadığı Nic kəndində iki alban məbədi - Cotari və Müqəddəs Məryəm ana kilsəsi Heydər Əliyev Fondu tərəfindən təmir olunaraq udilərin ziyarəti üçün açılmışdır.

Bu gün tarixi ədalət zəfər çalmışdır. Azərbaycan dövlətinin Qarabağ torpaqlarını azad etməsi nəticəsində udilər artıq Qarabağın alban məbədlərində öz ayinlərini icra etmək imkanı qazanmışlar. Azərbaycan Prezidenti İlham Əliyevin apardığı qətiyyətli siyasət və Azərbaycan Ordusunun hərbi qüdrəti nəticəsində Qarabağın erməni işğalından azad edilməsindən sonra bölgədəki alban abidələri öz həqiqi sahibinə - Azərbaycan xalqına, eyni zamanda alban xristian ənənələrini günümüzədək qoruyub saxlamış udilərə qaytarılmışdır. Azərbaycan Prezidenti Udi icmasının nümayəndələri ilə görüşündə qeyd etmişdir ki, böyük tarixi mirası olan udi xalqı indi həm Qəbələ rayonu ərazisində, həm də azad edilmiş torpaqlarda – Xudavəng, Ağoğlan kimi tarixi alban monastırlarında ibadət etmək imkanı qazanmışlar [25].

## ƏDƏBİYYAT


1. Каганкатваци М. История агван Мойсея Каганкатваци, писателя X века / Пер. с армян. К.Патканова. СПб.: типография Императорской Академии наук, 1861.
2. Ворошил Г. Удино-азербайджано-русский словарь. Баку: 1974.
3. Дьяконов И.М. История Мидии от древнейших времен до конца IV в. до н.э. М. – Л.: 1956 .
4. Алиев И. История Мидии. Баку: Изд-во Азерб/ ССР, 1960.
5. Алиев К. Античная Кавказская Албания. Баку: 1992.
6. Иеромонах Алексий (Никоноров). История христианства в Кавказской Албании. Баку: 2005.
7. Mamedova Ф. Кавказская Албания и албаны. Баку: 2005.
8. Величко В.Л. Кавказ. Русское дело и междуплеменные вопросы. Баку: 1990.
9. Архив внешней политики России, фонд "Сношения России с Арменией", 1724, дело № 4, л.27.
10. Полное Собрание Законов Российской империи. Собрание второе. Т. XI. Отделение первое. 1836. От № 8739–9493. С-Петербург: 1837.
11. Документ 1908 г., ЦГИА, фонд 821, оп.150, д.477.
12. Aleksandr Düma. Qafqaz. Bakı: "Qafqaz", 2010.
13. Бархударянц М. Арцах. 1895.
14. Эритсова А.Д. Экономический быт государственных крестян Казахского уезда, Элизаветполской губернии. Материалы, т. 2. Тифлис: 1886.
15. Кавказский календар на 1895 г, отд.5. Тифлис: 1894.
16. Кавказский календар на 1915 г. Тифлис: 1914.
17. Кавказский календарь на 1910 г., часть I. Тифлис: 1910.
18. Cavadov Q. Azərbaycanın azsaylı xalqları və milli azlıqları. Bakı: Elm, 2000.
19. Ворошил Г. К трехъязычию удин. Проблемы двуязычия и многоязычия. М.: 1972.
20. Брук С.И. Ареальные исследования в языкознании и этнографии. Институт этнографии имени Н.Н.Миклухо-Маклая Академии наук СССР. Л.: 1978.
21. Материалы для изучения экономического быта государственных крестьян Закавказского края. том 2, вып. 3. Тифлис: 1886.
22. Арасханианц А. Экономический быт государственных крестян Нухинского уезда. Материалы, т.7. Тифлис: 1887.
23. Арутинов А.А. Удины. Материалы для антропологии Кавказа. Москва: 1905.
24. Камералное описание жителей города Нухи и Шекинской провинции за 1824 г.
25. https://report.az/qarabag/prezident-xudaveng-kilsesi-oz-sahiblerine-bizim-udi-qardaslarimiza-qaytarilib/
26. Кавказский календар на 1910 г. Тифлис: 1909.
27. Göyüşov R. Amaras-Ağoğlan. Bakı: 1975.
28. Свод статистических данных о населении Закавказского края (Елизаветпольская губерния), посемейные спискi 1886г. Тифлис: 1893.

Махаббат Пашаева

# ЭТНОКОНФЕССИОНАЛЬНОЕ ПОЛОЖЕНИЕ УДИНОВ В XIX ВЕКЕ

## РЕЗЮМЕ

Удины - одно из 26 племен, представленных в Албанском Племенном Союзе, существовавшем в древнем Азербайджане, Кавказской Албании. В период Кавказской Албании (IV-VIII до н.э.) в Азербайджане многие албанские племена, такие как гаргар, гун, ути, каспи, гель, ер, кат, объединились в Албанский племенной союз. Удины, одни из древних и албанского происхождения племен Кавказа, последние потомки албанцев-христиан, жили на своих исторических землях до XIX века. Они смогли сохранить албанские христианские традиции, язык, этническую идентичность, материальную и духовную культуру, а также Албанскую Апостольскую автокефальную церковь. В статье анализируется история удинов, ареал распространения одного из древних этносов Азербайджана и этноконфессиональная ситуация как результат национальной колониальной политики, проводимой Российской империей на Кавказе в XIX веке, процесс разрушения этнической идентичности удинев после упразднения Албанской церкви в 1836 году.

Mahabbat Pashayeva

# ETHNO-CONFESSIONAL SITUATION OF THE UDINS IN THE XIX CENTURY

## SUMMARY

The Udins are one of the 26 tribes represented in the Albanian Tribal Union that existed in ancient Azerbaijan, Caucasian Albania. During the period of Caucasian Albania (IV-VIII BC) in Azerbaijan, many Albanian tribes, such as *Gargar*, *Hun, Uti, Kaspi, Gel, Er, Kat*, united into the Albanian tribal union. The Udins, one of the ancient and Albanian origin tribes of the Caucasus, the last descendants of the Christian Albanians, lived on their historical lands until the 19th century. They were able to preserve Albanian Christian traditions, language, ethnic identity, material and spiritual culture, as well as the Albanian Apostolic Autocephalous Church.

The article analyzes the history of the Udins, the area of distribution of one of the ancient ethnic groups of Azerbaijan and the ethno-confessional situation as a result of the national colonial policy pursued by the Russian Empire in the Caucasus in the 19th century, the process of destruction of the ethnic identity of the Udi people after the abolition of the Albanian Church in 1836.

# QARABAĞIN İSLAM DİNİ MEMORİAL KOMPLEKSLƏRİ

***Anar AĞALARZADƏ,***
*tarix üzrə fəlsəfə doktoru, dosent,*
*a.aghalarzada@arch.science.az*

***AÇAR SÖZLƏR:*** *Qarabağ, mənbə, din, memorial komplekslər, epiqrafika.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Карабах, источник, религия, мемориальные комплексы, эпиграфика.*
***KEY WORDS:*** *Karabakh, source, religion, memorial-complexes, epigraphic.*

Azərbaycanın orta əsrlər dövrü fəlsəfə tarixinin az öyrənilməsinin elmi problemlərindən biri də İslam dininin ictimai fikir tariximizdəki yeridir. Epiqraf alim M.Nemətova qeyd edir ki, İslam dinindəki təriqət və cərəyanlar, dini və siyasi şəxsiyyətlər, İslamın cəmiyyətdəki sosial-siyasi rolu barəsində yığcam, lakin dəqiq və bəzən də ən orijinal məlumatlar kitabələrdə əksini tapmışdır. Karvan ticarət yolları üzərində inşa edilmiş sosial-dini mərkəzlər həm də bir mədəniyyət ocağı kimi qonşu ölkələrin diqqətini cəlb etmiş, eyni zamanda ayrı-ayrı ölkələr arasındakı mədəni əlaqələrdə mühüm rol oynamışdır. Bu baxımdan Qarabağ ərazisində mövcud olmuş İslam mədəniyyəti abidələri xüsusi əhəmiyyəti ilə seçilir. XX əsrin 60-70-ci illərində professor M.Nemətova tərəfindən tədqiqata cəlb edilmiş bu dini-memorial komplekslərdə böyük İslam alimlərinin, dövrün tanınmış din və ictimai xadimlərinin, memar və xəttatların adları çəkilmişdir.

Avropanın Şərq qapısı olan Anadolunu Çinə qədər birləşdirən Böyük İpək yolu Azərbaycan ərazisindən Araz boyunca Qubadlı, Füzuli, Zəngilan, Cəbrayıl rayonları və Zəngəzur mahalından keçirdi. Bu tarixi bölgədə vaxtilə tikilmiş türbələr, məscidlər, xanəgahlar sosial-mədəni-ideoloji mərkəz olmaqla bərabər, xalqın inam, etiqad yerinə çevrilmiş və əsrlər boyu dövlətçilik tariximizdə iştirak etmişdir. Atabəy Eldənizlər, Elxanilər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər və xanlıqlar dövrünün dini-ideoloji mərkəzləri hesab olunan bu məkanların tarixinin araşdırılması ilə bölgənin bir çox elmi problemlərinin həllinə aydınlıq gətirilmişdir. Qarabağdakı türbə və məscidlər, Şuşa şəhərindəki məscid kompleksləri tarixi məkanlar olmaqla yanaşı, orta əsrlər fikir tariximizin daha dərindən araşdırılması baxımından mükəmməl abidələr hesab olunur.

Zəngilan rayonunun Məmmədbəyli kəndindəki "əl-Hacı Yəhya ibn Məhəmməd" türbəsi İpək yolu üzərində yerləşən abidələrdən biridir. Türbənin çatma tağlı qapısının üzərindəki 1,40x0,80 m ölçülü kitabədə onun 1305-ci ilə aid olduğu göstərilmişdir. İpək yolu üzərində, Həkəri çayı boyunca yerləşən bu cür abidələr həmin dövrlərdə Azərbaycanda xüsusi memarlıq məktəblərinin mövcudluğunu ortaya çıxarmışdır. Tikinti-memarlıq formasına görə Həkəri çayı

hövzəsinin abidələrini XIII-XIV əsrin əvvəllərinə aid etmək olar. Yuxarıda adını qeyd etdiyimiz türbənin üzərindəki altı sətirlik, ərəbdilli, süls elementli nəsx xətti ilə yazılmış kitabədə Quran ayələri həkk olunub. Daha sonra yazılıb: "Allahın rəhməti yaxşı işlər görənlərə yaxındır. Mən bu imarətin sahibi Məhəmməd əl-Hacın oğlu. Uca Allahın rəhmətinə ehtiyacı olan zəif qul, miskin Yəhyayam. Əli Məcdəddinin əlləri ilə mübarək Ramazan ayı yeddi yüz dördüncü il" (hicri 704/miladi 1305/1306). M.Nemətovanın bildirdiyinə görə, "əl-Hacı" bənzətməsi yüksək nüfuz sahibi olan dövlət xadiminə verilirdi. Deməli, türbədə dəfn olunan Yəhyanın atası Məhəmməd dövrünün tanınmış şəxsiyyətlərindən olub və Məmmədbəyli kəndi də adını oradan götürüb. Burada adı çəkilən ustanın da xalq arasında mövqeyi yüksək olub. Belə ki, Həkəri və Araz çayları boyunca tikilmiş karvansaralar, xanəgahlar, körpülər və digər memarlıq strukturlarının əksəriyyətinin inşası memar, usta Əli Məcdəddinin adı ilə bağlıdır.



Cəbrayıl rayonunda, Diridağ yaylasında, xalq arasında "Mazan nənə" adı ilə tanınan pir-türbə orta əsr qəbiristanında yerləşir. Bu qəbiristandakı türbənin ətrafında müxtəlif təsvirli qəbir daşları var. Epiqrafik məlumatlara əsasən, bu qəbirlər XIV-XVI əsrlərə aid edilir. Qəbirlərdən birinin üzərində ərəb dilində yalnız tarixi qalmışdır: "Altı yüz iyirminci il" (hicri 620/miladi 1223-cü il).

Rayonun Şıxlar kəndindəki "Şıxbaba" türbəsinin ətrafında da İslam dininin tanınmış din xadimlərinin, şeyxzadələrin - Şeyx Əbdül Salamın oğlu Şeyx Qiyasəddinin, Şeyx Cəbrayılın oğlu Əbdül Rəhmanın, Əmir Adilin XIV əsrə aid məzar daşları var.

Qubadlı rayonunun Dəmirçilər kəndində tikilmiş səkkiz guşəli iki hündür özülün üstündə qurulmuş türbə də maraq doğurur. Bu türbə ərazidəki türbələr qrupunun əsasən Araz və Həkəri çayları vadisi boyunca yerləşdiyini göstərir. Türbənin daxilindəki ərəbdilli, nəsx xətli kitabədə deyilir: "Allah şahidlik etmiş, Ondan başqa Tanrı yoxdur. Mələklər və insaflı elm sahibləri şahidlik etmişlər ki, Ondan başqa Tanrı yoxdur. Güclüdür, müdrikdir. O Allahın mərtəbəsində din, şübhəsiz ki, İslamdır" (M.Nemətova). Türbənin üzərində inşa edilmə tarixi yazılmasa da, tikinti texnikasına və üslubuna görə memarlar onu XIII-XIV əsrlərə aid edirlər.



Məlum olduğu kimi, Ağdamdakı “İmarət” qəbiristanında bir vaxtlar mövcud olmuş, xan nəslinə məxsus türbələrin bir qisminin kitabələri müharibədən öncə arxiv və muzey fondlarına gətirilmişdir. I Qarabağ müharibəsindən sonra isə qəbiristanda qalan türbələr və məzar daşları erməni vandalları tərəfindən ciddi dağıntılara məruz qalmışdır. Həmin abidələrin çoxu günümüzə kimi qorunmasa da, əlimizdə kifayət qədər faktiki material vardır. Bu gün Azərbaycan Milli Arxivindəki müsəlman dini abidələri fondunda vaxtilə Ağdamdan götürülmüş İbrahimxəlil xan və onun övladlarının məzarlarına aid kitabələrin surəti saxlanılır. Eyni zamanda, AMEA Milli Azərbaycan Tarixi Muzeyində Şuşalı Pənah xana aid məzar daşı, İbrahimxəlil xan Şuşalı və onun övladlarının Ağdamdakı qəbir abidələrinin epitafiyaları, İbrahimxəlil xanın türbəsinin kitabəsi saxlanılır və M.Nemətova tərəfindən oxunub. Qəbirlərdən birində ərəbdilli kitabədə yazılıb: “Bu qəbir rəhmətlik, bağışlanmış İbrahimxəlil Cavanşir Sarıcalınındır. 1154” (hicri 1154/miladi 1711/1712-ci il). II qəbrin kitabəsi belədir: “İbrahimxəlil oğlu Mehdiqulunundur. Yer üzündə nə varsa hamısı fanidir”. III məzar Mehdiqulu xan Cavanşirin qızı Xan qızı Xurşudbanu Natəvana məxsusdur. Onun məzar daşında yazılıb: “O, Allah canlıdır. Ölməzdir. Bu qəbir rəhmətlik, günahları bağışlanmış, alim (ağıllı) Xurşud Banunundur. Xan qızı hörmətli Xurşud xanım dövranın uca ulduzu, yadigarı idi. Candan doydu, ürəyi dağlı getdi. Onun yeri ilahələr cənnətidir. Rəbiül sani 1314. Bütün yaranmışlar ölümü dadacaqdır” (hicri 1314/miladi 1896/1897).

Şuşa şəhərindəki iki məscidin kitabəsində memar Kərbəlayi Səfi xan Qarabağlının adı çəkilib. Onun adına Füzuli rayonu mərkəzində mövcud olmuş məscidin (yəqin ki, tam dağıdılıb - A.A.), Bərdə, Ağdam və bir çox məscidlərdəki kitabələrdə rast gəlinir. Kərbəlayi Səfi xanın adı ilə Odessada “Tatar məscidi” və Aşqabadda “Qarabağlar məscidi” inşa edilmişdi ki, məhz bu abidələr XIX əsrin ikinci yarısına aid olunur.

Laçın rayonunun Cicimli kəndindəki son orta əsr məscidinin üzərindəki düzbucaqlı plana malik kitabədə deyilir: “1205. Molla Fəzlullahın oğlu Molla Əhməd tikdirdi” (1790-1791-ci il miladi).

Füzuli rayonunun Qarğabazar kəndindəki yüksək qaya üzərində XVII əsrə aid “Qiyasəddin məscidi” var. Yerli əhali buranı “Şah Abbas məscidi” adlandırır. 6,25x7,60 metr

ölçülü, düzbucaqlı plana malik olan məscidin tavanı üzərindəki iki sətirlik ərəbdilli, nəsx xətli kitabədə yazılıb: "Ya Allah, Ya Məhəmməd, Ya Əli! Bu məscidi Hacı Qiyasəddin inşa etdirdi. Üzünü Uca Allaha tutmaq üçün. Uca Allahın rəhmətinə ümid edən. 1095" (miladi 1683/1684-cü il). Məscidin sağ tərəfində, yüksək hissədə yazılıb: "Ey qapıları açan!"

Rayonun Horadiz kəndindəki bir məscid üzərində də iki sətirlik kitabə var. Birinci kitabədə "Hacı Molla Abdulla. 1318 hicri" (miladi 1900-cü il), ikinci kitabədə "İlahi! Biz möminləri, inananları hər halda qiyamət günündə bağışla" yazılıb.

Qubadlı rayonunun Dondarlı kəndindəki məscid qapısının üzərindəki süls elementli, ərəb dilli kitabədə isə deyilir: "Onun sahibi Dondarlı Şücaətdir. Allahdan başqa tanrı yoxdur, Məhəmməd Allahın elçisidir".

Cəbrayıl rayonu ərazisindəki "Hacı Qaraman məscidi" də orta əsr ibadət tikilisi kimi tanınır. Məscid qapısı üzərindəki çatma tağlı kitabədə yazılıb: "Məscidlər Allah üçündür, ona görə Allahla birgə kimsəni çağırmayın. Mərhum, bağışlanmış Hacı Qaraman Əhmədin oğlu həqir, fəqir Məhəmməd bina etdirmişdir. Uca Allah! Ya Məhəmməd! Ya Əli! Müvəffəqiyyətli olsun! 1088" (hicri 1088/ miladi 1677/1678-ci il). Həmçinin orada həkk edilib:

"Ölüm elə bir kasadır ki, hamı ondan içməlidir,
Qəbir elə bir qapıdır ki, hamı ondan keçməlidir" (M.Nemətova).

Qarabağ ərazisində vaxtilə müsəlman intibahı dövründə yaradılmış bu tarixi məkanların, abidələrin varlığı orta əsr Azərbaycanının geniş bir coğrafi arealda mövcudluğunu, onun Cənubi Qafqazda mühüm elmi, dini mərkəz rolu oynadığını üzə çıxarır. İşğaldan azad olunmuş ərazilərimizdə, şübhəsiz ki, haqqında bəhs etdiyimiz İslam dövrü abidələrinin böyük əksəriyyətinin salamat qalması ehtimalı çox azdır. Erməni vandalları tərəfindən bu abidələr məhv edilmiş, kitabələri silinmiş və təyinatları dəyişdirililmişdir. Müsbət məqam ondan ibarətdir ki, bu tarixi abidələrin çoxu hələ XX əsrin ortalarında araşdırılmışdır və bu gün çap olunmuş elmi əsərlərdə, arxivlərdə kitabələrin surəti saxlanılmaqdadır. Yaxın gələcəkdə bölgənin yenidənqurma işləri çərçivəsində abidələrin bərpası zamanı onlardan istifadə etməklə həm dövrün tarixini canlandırmaqla mədəni irsimizi qorumuş, həm də gələcək nəsillər üçün yeni bir tarixin başlanğıcını qoymuş olacağıq.

Qarabağın bu abidələri İslam dininin Azərbaycan xalqının mədəniyyətində və tarixində mühüm rolunu ortaya qoymaqla, onun hərtərəfli öyrənilməsinin bu günün vacib məsələlərindən biri olduğunu göstərir.

## ƏDƏBİYYAT


1. Nemətova M.N. Əsrlərin daş yaddaşı. Bakı: İşıq, 1987, 45 s.
2. Nemətova M.N. Azərbaycanda pirlər (sosial-ideoloji, iqtisadi-siyasi mərkəzlər). Bakı: Azərnəşr, 1992, 104 s.
3. Nemət M.N. Azərbaycanda pirlər. Bakı: Elm və təhsil, 2010, 210 s.
4. Неймат М.С. Корпус эпиграфических памятников Азербайджана. Том 3. Баку: Элм, 2001, 213 с.

Анар Агаларзаде

## ИСЛАМСКИЕ РЕЛИГИОЗНО-МЕМОРИАЛЬНЫЕ КОМПЛЕКСЫ КАРАБАХА


### РЕЗЮМЕ

В статье представлена информация об имеющихся на территории Карабаха мусульманских религиозных комплексах, значительная часть которых, за 30 лет армянской оккупации было сильно разрушено.

История мечетей, гробниц и эпиграфических надгробий доказывает, что в средневековье Карабахский регион был одним из важных политических и религиозных центров. Уничтожая эти памятники, армяне пытались скрыть историческую правду о многовековой принадлежности этой территории к региону мусульманской религии и культуры.


Anar Agalarzade

## ISLAMIC RELIGIOUS MEMORIAL COMPLEXES OF KARABAKH


### SUMMARY

The article deals with the Islamic memorial complexes in the territory of Karabakh. During 30 years of the Armenian occupation, the vast majority of these monuments were severely destroyed.

The history of mosques, tombs and epigraphic tombstones here proves that in the medieval ages the Karabakh region was one of the important political and religious centers. Destroying these monuments, the Armenians tried to hide the historical truth about the centuries-old belonging of this territory to the region of Muslim religion and culture.

# QARXUN ORTA ƏSR YAŞAYIŞ YERİNDƏ ARXEOLOJİ QAZINTILAR

***Şamil NƏCƏFOV,***
*tarix üzrə fəlsəfə doktoru, dosent, aparıcı elmi işçi*
*shamil_necefov@mail.ru*
***Əhliman ƏBDÜRƏHMANOV,***
*elmi işçi*
*hacker_147@mail.ru*
***Gülnarə HACIYEVA,***
*kiçik elmi işçi*
*hajiyeva_gulnara@mail.ru*
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu*

***AÇAR SÖZLƏR:*** *Yevlax, Qarxun, orta əsrlər, yaşayış yeri, arxeoloji qazıntılar, keramika.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Евлах, Гархун, средневековье, поселение, археологические раскопки, керамика.*
***KEY WORDS:*** *Yevlakh, Garkhun, Middle Ages, settlement, archaeological excavations, ceramics.*

CQBKG (Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsi) layihəsinin inşası ilə əlaqədar tikinti işlərindən əvvəl və işlərin gedişatı zamanı kəmər dəhlizində arxeoloji çöl tədqiqatları həyata keçirilmişdir. Ümumilikdə 55 sahədə arxeoloji qazıntı aparılmış, Azərbaycanın qədim və orta əsrlər tarixinin mürəkkəb problemlərinin həllinə işıq salan minlərlə maddi mədəniyyət qalıqları aşkarlanmışdır. Qeyd edək ki, 25 arxeoloji abidə yerləşən sahələrin heç biri əvvəl arxeologiya elminə məlum deyildi. Məlum olmayan arxeoloji sahələrdən biri də Qarxun orta əsr yaşayış yeri idi.

CQBKG xəttinin 194.150-ci km-də yerləşən Qarxun yaşayış yeri birinci mərhələdə BP-nin ("British Petroleum") dəvət etdiyi arxeoloq David Maynard tərəfindən qeydə alınmşdır [1, s.7]. Yerüstü tapıntılar əsasında bu sahədə arxeoloji qazıntıların aparılması planlaşdırılmışdır. Sahədə arxeoloji qazıntılar 2015-ci ilin avqustunda aparılmışdır.

Qarxun yaşayış yeri Yevlax rayonunun Yuxarı Qarxun kəndi ərazisində, dəniz səviyyəsindən 17-20 m yüksəklikdə, Bakı-Tiflis magistral yolundan sağda, təxminən 400-450 m aralıda yerləşir. Əkin yerlərinin içərisində yerləşən ərazinin şimal-qərb hissəsindən suvarma üçün irihəcmli su arxı çəkilmişdir. Sahə düzənlik ərazidən ibarət olub, relyef baxımından hamardır. Nisbətən xeyli şimalda maili alçaq təpəliklər mövcuddur [1, s.7]. Bu ərazilər münbit

qaratorpaq olmasa da, əkilməkdədir və torpağın ilk 20-30 sm qatı əkinəyararlıdır. Daha sonra sarı qumlu-gilli torpaq qatı mövcuddur ki, bu da qrunt sularının yığılmasına səbəb olur. Dəniz səviyyəsindən az hündürlükdə olması, ümumiyyətlə, Yevlax bölgəsində arxeoloji qazıntılara bəzən ciddi əngəl törədir. Çünki artıq 1 m dərinlikdən sonra qazıntı xəndəyində qrunt suları görünməyə başlayır və bu arxeoloji qazıntı üçün mühüm problemdir.

Yaşayış yerinin sahəsi yalnız yerüstü tapıntıların yayılma arealı ilə müəyyən edilmişdir.

Yerüstü arxeoloji materiallar əsasında ehtimal edilən bu abidənin boru dəhlizinə düşən hissəsi haqqında zəruri informasiya əldə etmək məqsədi ilə boru xəndəyinin yeri əsas götürülməklə arxeoloji qazıntı işləri aparılmışdır. 120 m uzunluğunda, 4x4 m ölçüdə olmaqla 30 kvadrat seçilmiş və qazıntı işləri 1 m dərinliyədək aparılmışdır. Ümumilikdə, 480 $m^2$ sahə qazılaraq tədqiq edilmişdir [1, s.7]. Qazıntıya başlamazdan əvvəl kvadratlarda səthin quruluşu dəqiqləşdirilmiş, nisbi hündürlüklər müəyyənləşdirilmiş və reper təyin edilmişdir.

Qazıntı işləri zamanı heç bir mədəni təbəqə izlənilməmiş, mədəni təbəqənin əlamətlərini təsdiq edə biləcək arxeoloji material tapılmamışdır. Arxeoloji tapıntılar yalnız yerüstü keramika nümunələrindən ibarətdir. Az sayda keramika ilə təmsil olunan bu qazıntı sahəsi geniş informasiya bazası verməmişdir. Tapıntılar isə ehtimal ki, əkin işləri zamanı kənar sahələrdən buraya düşmüşdür. Qazıntı sahəsindəki yerüstü tapıntılar da daxil olmaqla yaxın ətraflardan tapılan artefaktlar onu göstərir ki, yaşayış yeri ehtimal ki, kənarda böyük sahəni əhatə etmişdir. Lakin qazıntı apardığımız sahə bu yaşayış yerinin ucqar ətrafını əhatə etmişdir [1, s.8].



**Şəkil 1.**



**Şəkil 2.**

Gildən hazırlanan arxeoloji materiallar keramika nümunələri və yaxud saxsı qabların hissələridir (şəkil 1-2). Onların bəziləri təmiz, bəziləri isə qarışıq gil tərkibə malikdirlər. İrihəcmli küpə, küp fraqmentləri qalın, digərləri isə nazik divarlıdır. Dulus çarxında hazırlananlarla yanaşı, əldə kobud formada hazırlanan qab hissələrinə də rast gəlinir. Əsasən boz, açıq-qırmızı rəngdədirlər (şəkil 2).

Keramika nümunələrinin forma və məzmunu həmin tapıntıları orta əsrlər dövrünə (IX-X əsrlər) aid etməyə imkan verir [1, s.9].

Qarxun yaşayış yeri və buradan aşkarlanan artefaktlar bölgənin orta əsrlər dövrü maddi mədəniyyətini öyrənmək baxımından əhəmiyyətlidir. Qazıntı sahəsi də daxil olmaqla əraziyə səpələnmiş keramika nümunələri təxminən yarım hektar sahəni əhatə edir. Kəmər dəhlizində yerüstü materialların daha çox yayıldığı sahə 150 m-dən artıq məsafəni təşkil edir. Abidənin topoqrafiyasının xüsusiyyətləri, eləcə də yerüstü materialların xarakteri yaşayış yerinin mərkəzinin kəmər dəhlizindən şimalda yerləşdiyini müəyyənləşdirməyə əsas verir. Qazıntı aparılan sahə yaşayış yerinin cənub-qərb kənarını əhatə etmişdir.

Yevlax rayonunun arxeoloji abidələrinin bir qrupu yeni tikinti sahələrinin arxeoloji tədqiqi proqramı çərçivəsində, daha dəqiq desək BTC, CQBK və CQBKG neft-qaz boru kəmərlərinin çəkilişi zamanı tədqiq edilmişdir. Boru kəmərləri dəhlizinə düşən Səmədabad, Nemətabad, Nərimankənd, Sabirabad və Yəldili küp qəbirləri nekropolları bu sıradandır. Bölgədə antik dövrə aid küp qəbirlərinin daha çox tapılması burada həmin dövrdə yaşayışın daha intensiv olması və qəbir abidələrinin arealının geniş yayılması ilə izah edilir. Bölgədə antik və orta əsrlərə aid arxeoloji abidələr daha çoxdur və daha yaxşı öyrənilmişdir.

Boru kəmərləri dəhlizində bu tip abidələr az sayda aşkar edilsələr də mövcuddur. Səmədabad yaşayış yeri [2, s.51-52], Faxralı, Daşbulaq, Kərpiclitəpə yaşayış yerləri və s. Qarxun yaşayış yeri ilə müəyyən qədər oxşarlıq təşkil edir. Az sayda tapıntıların olmasına baxmayaraq, Qarxun yaşayış yerinin materialları yuxarıda qeyd etdiyimiz abidələrdən tapılan materiallarla yaxın analogiyalara malikdir. Keramikanın tipik xüsusiyyətləri qeyd olunan abidənin tipini, dövrünü və xüsusiyyətlərini müəyyənləşdirməkdə qismən də olsa rol oynayır.

Məlum olduğu kimi, Qarxun yaşayış yerinin yerləşdiyi Yevlax bölgəsi II-V yüzilliklərdə Qafqaz Albaniyasının mərkəzi ərazilərindən birini təşkil edirdi [3; 4]. Bu fikrimizi irihəcmli antik küp qəbirləri nekropollarının aşkar edilməsi və qazılması ilə təsdiqləyə bilərik. Lakin Azərbaycan arxeologiyasında Qafqaz Albaniyasının şəhər xarabalıqlarının və iri yaşayış yerlərinin, habelə qəbir abidələrinin öyrənilməsinə üstünlük verilmiş, kənd yaşayış yerləri isə tədqiqatlardan kənarda qalmışdır. Xüsusilə qeyd olunan dövrə - orta əsrlərin erkən dövrünə aid yaşayış yerləri çox az öyrənilmişdir. Halbuki antik dövrdə və erkən orta əsrlərdə əhalinin tam böyük əksəriyyəti kəndlərdə yaşayırdı. Albaniyanın kənd məskənlərinin tədqiqi Azərbaycan tarixşünaslığında, şübhəsiz ki, öz aktuallığını saxlayır [3; 5]. Bu mənada Qarxun yaşayış yerində aparılmış arxeoloji qazıntılar elmi dövriyyəyə yeni materialların, erkən orta əsrlər dövrünün kənd tipli yaşayış məskənləri haqqında obyektiv informasiyanın daxil olmasını təmin edir.

# ƏDƏBİYYAT


1. Najafov Sh.N. Brief Sientific Report on excavations of Garkhun Settlement located on 194.150 km of SCPX pipeline route. Baku-Azerbaijan, 2018, 18 p.
2. Nəcəfov Ş.N., Hacıyeva G.N. Səmədabad ilk orta əsr yaşayış yerində arxeoloji qazıntılar // Azərbaycanda arxeoloji və etnoqrafik araşdırmalar. AMEA-nın həqiqi üzvü T.Ə.Bünyadovun anadan olmasının 90 illiyinə həsr olunmuş elmi sessiyanın materialları. Bakı: 2018, s. 51-53.
3. Гошгарлы Г.О. Типология погребальных памятников античного периода на территории Азербайджана. Баку: Елм, 2012, 246 с.
4. Ağalarzadə A.M., Hüseynova M.M. Qafqaz Albaniyasına məxsus Aşağı Ləki nekropolu // Dövlət və Din, № 05 (52), 2017, s. 93-98.
5. Əsədov V.A. Yəldili küp qəbirləri // Azərbaycan arxeologiyası, № 1-4, 2006, s. 120-125.

Шамиль Наджафов, Ахлиман Абдурахманов, Гульнаре Гаджиева

# АРХЕОЛОГИЧЕСКИЕ РАСКОПКИ НА СРЕДНЕВЕКОВОМ ПОСЕЛЕНИИ ГАРХУН

## РЕЗЮМЕ

Во время строительства трубопровода SCPX в коридоре проводились полевые археологические исследования.

Поселение Гархун расположен на территории села Юхары Гархун Евлахского района, на 194.150 км трассы трубопровода SCPX. Поселение находится справа от главной дороги Баку-Тбилиси, примерно в 400-450 м к северу от дороги. Территория находится в пределах посевных площадей. Археологические раскопки на памятнике проводились в августе 2015 года. При раскопках культурных слоев не наблюдалось. Хотя участок длиной 120 метров и шириной 4 метра был раскопан на глубину до 1 метра, не было обнаружено никаких признаков культурного слоя.

Форма и состав керамических образцов позволяют отнести эти находки к средневековью (IX-X вв.).

Поселение Гархун и найденные там артефакты также имеют важное значение для изучения материальной культуры региона средневековья. Образцы глиняной посуды, разбросанные по поселение Гархун, занимают почти полгектара. Топография, а также характер грунтовых материалов дают основание полагать, что центр населенного пункта расположен севернее коридора трубопровода.

Гархун входит в группу населенных пунктов этого периода на коридоре трубопровода (Самедабад, Фахралы, Дашбулаг и Керпиджлитепе). Материал с Гархуна аналогичен материалам этих сайтов.

Shamil Najafov, Ahliman Abdurahmanov, Gulnara Hajiyeva

# ARCHAEOLOGICAL EXCAVATIONS AT THE MEDIEVAL SETTLEMENT OF GARHUN

## SUMMARY

During the construction of the SCPX pipeline prior to the construction works and in the course of these works, archaeological field studies were conducted in the pipeline corridor.

Garkhun settlement located in the territory of Yukhari Garkhun village of the Yevlakh region, on 194.150 km of the SCPX pipeline route. The site is on right of the Baku-Tbilisi main road, approximately 400-450 m north of the road. The territory is located within crop areas. Archaeological excavations on the site were conducted in August, 2015. No cultural layers were observed during excavation works. Although the site 120 metres long and 4 metres wide, was excavated to a depth of 1 metre, nothing was found to prove the signs of cultural layer.

The shape and content of ceramic samples allow these findings to be attributed to the Middle Ages (9-10$^{th}$ centuries.).

Garkhun settlement and the artefacts found there are also important in the study of material culture of the region of the Middle Ages. Samples of pottery scattered over the Garkhun site, cover almost half a hectare. The topography, as well as the nature of ground materials, give reason to believe that centre of the settlement is located to the north of the pipeline corridor.

Garhun belongs to the group of settlements of this period on the pipeline corridor (Samedabad, Fakhrali, Dashbulag and Kerpijlitepe). The material from Garhun is similar to the material on these sites.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

# PALEOMETAL DÖVRÜ ETNİK-MƏDƏNİ PROSESLƏRİN TƏDQİQİNDƏ QƏBİR ABİDƏLƏRİ MƏNBƏ KİMİ

***(Seyidli kurqanının materialları əsasında)***

***Tarix DOSTİYEV,***
*Bakı Dövlət Universiteti,*
*tarix üzrə elmlər doktoru,*
*dostiyev.tarikh@mail.ru*

***AÇAR SÖZLƏR****: Son xalkolit, kurqanaltı dəfn, Leylatəpə mədəniyyəti, Maykop mədəniyyəti, etnik-mədəni proseslər.*

***КЛЮЧЕВЫЕ СЛОВА****: Поздний халколит, подкурганное захоронение, Лейлатепинская культура, Майкопская культура, этнокультурные процессы.*

***KEY WORDS****: Late Chalcolithic, kurgan burial, Leilatepe culture, Maykop culture, ethno-cultural processes.*

Azərbaycan arxeologiyasının ən mürəkkəb, eyni zamanda ən aktual problemlərindən biri ən qədim və qədim dövrlərdə cərəyan etmiş etnik-mədəni proseslərin, tədqiq olunan arxeoloji mədəniyyətlərin və arxeoloji abidələrin etnik mənsubiyyətinin müəyyənləşdirilməsidir. Söz yox ki, paleometal dövrü cəmiyyətlərinin sosial, etnik və mədəni durumunun öyrənilməsində qəbir abidələri mühüm mənbələrdəndir. Qəbirlərin quruluşu, dəfn adəti, qəbir avadanlığı, ehsan qalıqları, qurbangah və s. mədəni-etnik ənənələr və sosial şərait barədə informasiya axınını təmin edən mənbələrdir [1, s.68]. Təbii ki, yazılı qaynaqların olmadığı bir dövrdə əhalinin etnik-mədəni səciyyəsinə dair arxeoloji və paleoantropoloji dəlillər əvəzolunmaz dəyərə malik olmaqla obyektiv fikir yürütməyə imkan verir, tədqiqatçını yanılmalardan qoruyur. Paleometal dövrünün erkən çağının etnik-mədəni proseslərinin ən maraqlı məqamı Ön Asiyadan Azərbaycana miqrasiyanın olmasındadır.

Son xalkolit dövrünə aid Leylatəpə mədəniyyəti abidələrinin tədqiqi Ön Asiyadan miqrasiyanı, yerli əhali ilə miqrantlar arasında etnik əlaqələrin dərinləşməsini və inteqrasiyasını izləməyə imkan verir [2; 3]. Leylatəpə mədəniyyətinin kəşfinin əhəmiyyətindən bəhs edən görkəmli arxeoloq, REA müxbir üzvü Rauf Munçayev bildirir ki, Leylatəpə mədəniyyətinin kəşfi Qafqaz arxeologiyasında sensasiya idi. Bu mədəniyyət e.ə. IV minillikdə Mesopotamiya mədəniyyəti daşıyıcıları olan Yaxın Şərq etnik qruplarının Qafqaza miqrasiyası mədəni-tarixi faktını təsdiqlədi [4, s.15].

Leylatəpə mədəniyyətinin ilk tədqiq edilmiş qəbir abidəsi Bakı Dövlət Universitetinin Müşkür arxeoloji ekspedisiyası tərəfindən 1990-cı ilin çöl tədqiqat mövsümündə tədqiq edilmiş,

Xaçmaz rayonunun Seyidli kəndindən qərbdə, Xəzər dənizi sahilindən təxminən 2 km, Seyid daşları adlandırılan ərazidən 80-100 m aralıda yerləşən kurqan olmuşdur [5, s.9-10]. Kurqan planda düzgün olmayan dairə formasında olub, diametri 30-32 m, hündürlüyü 2 metrdən artıq idi (şəkil 1). Onun torpaq örtüyünün mərkəzində aşağıya doğru qıf formasında daralan, diametri 2,4 m, dərinliyi 1 m olan çökəklik vardı.




*Şəkil 1. Seyidli kurqanının planı*

Kurqanın torpaq örtüyünün tədqiqi onun konstruktiv quruluşunu, qatlarını müəyyənləşdirməyə imkan verdi. Məlum oldu ki, qəbir kamerasının üzərinə əvvəlcə daxilində sarı gilli qatlar olan, 1 m qalınlıqda şabalıdı rəngli torpaq tökülmüşdür. Onun üzərində isə qalınlığı 1 metrə çatan, eni 4,5 m olan çınqıl (xırda çaydaşı) qatından ibarət dairəvi zolaq yerləşirdi. Dairənin daxili isə tünd şabalıdı rəngli torpaqla doldurulmuşdu. Çınqıl qatından cənubda eni 1,2 m, qalınlığı 40 sm olan çaydaşı topası qeydə alındı. Daşlar üst-üstə 10 sıra düzülmüşdü. Daşların orta uzunluğu 15-16 sm, eni 10-12 sm, qalınlığı 6-8 sm idi. Çınqıldan dairəvi zolaq salınarkən o axmış, nəticədə kurqan örtüyünün ətəklərində 10-15 sm qalınlıqda çınqıl təbəqə əmələ gəlmişdir.

Kurqanın örtüyü qazılarkən örtüyün cənub tərəfində çınqıl təbəqədə Orta Tunc dövrünə aid sallama qəbir aşkarlanmışdır.

Kurqanın qəbir kamerası mərkəzdə yerləşmişdi. O, planda düzbucaqlıya yaxın formada olub, uzunluğu şərq-qərb istiqamətində 4,3 m, eni şimal-cənub istiqamətində 2,7 m idi. Cənub-şərq küncündə uzunluğu 40 sm, eni 80 sm olan çıxıntı vardı. Kamera 1 m dərinlikdə iki hissəyə ayrılırdı. 2,7 m x 1,3 m qərb tərəf qəbir quyusu olaraq 2,5 m dərinliyədək davam edirdi. Onun dibində bir neçə saxsı qab qırığı və skeletin izləri olan ağ çürüntü qatı qeydə alındı. Qəbir quyusunun cənub-qərb küncündə, 2,3 m dərinlikdə oturmuş insanı xatırladan iri çay daşı qoyulmuşdu.

Qəbir kamerasının şərq tərəfi bir növ səki formasında saxlanılmış, burada dərinlik 1 m təşkil edirdi. Onun üzərində saxsı qabların fraqmentləri nizamsız səpələnmişdi. Onlar

texnoloji xüsusiyyətlərinə görə iki qrupa ayrılır: kobud və zərif saxsı qablar. Kobud saxsı qab fraqmentlərinin gilinin tərkibinə qarışıqlar qatılıb və bu qablar keyfiyyətsiz bişirilmişdir. Onların saxsısı iki qatlı və məsaməlidir. Üst tərəfdən qonur, içəridən çəhrayıdır.

Zərif saxsı qab fraqmentləri Leylatəpə mədəniyyəti üçün səciyyəvi olan keramika nümunələrindən ibarət olub, küpə və kiçik tutumlu kuzə tipli qablara məxsus qırıqlardan ibarətdir. Küpənin dairəvi ağzı, gen, qıf formasında boğazı, şar şəkilli gövdəsi olmuşdur. Gilinin tərkibi təmiz, saxsısı sıx, rəngi çəhrayıdır. Kuzə tipli qablar forma etibarilə eyni tipli olub, dairəvi ağzı, qıf formasında yuxarıya genişlənən boğazı, şar şəkilli gövdəsi olmuşdur. Gilinin tərkibi təmiz, saxsısı sıx, rəngi çəhrayıdır. Üzərinə açıq sarı anqob çəkilib (şəkil 2). Oxşar küpə və kuzələr Leylatəpə mədəniyyətinə mənsub yaşayış yerləri və qəbir abidələrinin arxeoloji qazıntılarından yaxşı məlumdur [6].



*Şəkil 2. Seyidli kurqanından aşkarlanmış saxsı qab nümunələri*

Qəbir kamerasında avadanlığın qırıqlar halında, nizamsız səpələnməsi, kurqanın örtüyünün üzərində, mərkəzdə çökəkliyin olması kurqanın hələ qədimdə qarət olunduğunu düşünməyə əsas verir.

Kurqanın mədəni-xronoloji mənsubiyyətinin müəyyənləşdirilməsində biz ilk vaxtlar çətinliklərlə üzləşdik. Belə ki, Qafqaz məkanında oxşar dəfn abidəsi və qəbir avadanlığı nəzərimizi Maykop mədəniyyətinə, bu mədəniyyətə mənsub qəbir abidələrinə yönəltdi. Kurqanaltı dəfn, qəbir kamerasının bölmələrə ayrılması, qəbir avadanlığı - keramikanın oxşarlığı Maykop mədəniyyəti ilə əlaqələrin ehtimalını şərtləndirirdi. Bu səbəbdən kurqanın e.ə. III minilliyə aid olduğunu ehtimal edirdik [7, s.27]. Belə bir nəticə keçən əsrin 90-cı illərində Leylatəpə və Maykop mədəniyyətlərinin öyrənilmə səviyyəsi ilə bağlı idi. Belə ki, keçən əsrin 90-cı illərinin əvvəllərində Maykop mədəniyyətinin xronoloji çərçivəsini müəyyənləşdirmək üçün yetərincə radio-karbon analizlər aparılmamışdı, A.A.İyessenin müəyyənləşdirdiyi e.ə. 2500-2000-ci illər əksər tədqiqatçılar tərəfindən qəbul edilirdi [8, s.168-169]. Bununla belə, hələ o zaman Maykop mədəniyyətinin mənşəyinin İkiçayarası ilə bağlılığına dair fikirlər irəli

sürülmüşdü [9, s.329]. Keçən əsrin sonlarında Maykop mədəniyyəti arxeoloji materiallarının İkiçayarası və Anadolunun xalkolit abidələrinin materialları ilə müqayisəli təhlili Maykop mədəniyyətinin erkən çağının e.ə. IV minilliyin sonu-III minilliyin əvvəllərinə aid olması haqqında mülahizələrin meydana çıxmasını şərtləndirmişdi [8, s.170].

Ötən əsrin 80-ci illərin ortalarından özündən əvvəlki Eneolit mədəniyyətləri ilə genetik bağı olmayan, İkiçayarasından miqrasiya nəticəsində Azərbaycanda baş verən etnik-mədəni prosesləri əks etdirən son Eneolit dövrünə aid Leylatəpə mədəniyyətinə mənsub yaşayış yerləri məlum olduğu halda [2, s.7-8] qəbir abidələri aşkarlanmamışdı. 1991-ci ildə İdeal Nərimanov Leylatəpə mədəniyyətini səciyyələndirərkən aşağıdakı başlıca əlamətləri diqqətə çatdırırdı: “Çoxotaqlı yaşayış və təsərrüfat binaları, texnoloji və texniki cəhətdən yüksək səviyyəli müxtəlif tipli saxsı qab-qacaq, dulus çarxından istifadə, tipoloji xüsusiyyətlərinə görə fərqlənən daş alətlər, sümük alətlərin məişətdə və təsərrüfatda istifadə edilməməsi, yerli metallurgiyanın Qafqazda qədimliyini əks etdirən faktiki dəlillər, erkən toxuculuq alətləri, Mesopotamiya abidələrində tam oxşarlıq tapan və oradan etnik qrupların Azərbaycana köçməsindən xəbər verən çoxsaylı maddi mədəniyyət nümunələri...” [2, s.8].

Keçən əsrin son onilliklərində Leylatəpə mədəniyyətinə mənsub qəbir abidələri yetərincə tədqiq olunmamışdı və Seyidli kurqanı arxeoloji qazıntıya cəlb olunan ilk qəbir abidəsi idi. İkiçayarasının eneolit mədəniyyətləri üçün kurqanaltı dəfn adəti səciyyəvi deyil. Ümumiyyətlə, kurqanaltı dəfn adəti təsərrüfatda maldarlığa üstünlük verilən tayfalar üçün səciyyəvidir. Bu vəziyyət diqqətin Maykop mədəniyyətinə yönəlməsinə öz təsirini göstərmiş oldu.

XXI əsrin ilk onilliyində Azərbaycanda Leylatəpə mədəniyyəti ilə bağlı yeni abidələrin, o cümlədən müxtəlif tip qəbir abidələrinin aşkarlanması və geniş tədqiqi, eləcə də çoxsaylı radiokarbon analizlərin aparılması e.ə. V-IV minilliklərdə Mesopotamiya və Anadolu ilə Qafqaz arasında cərəyan edən mürəkkəb etno-mədəni proseslərə aydınlıq gətirməyə imkan verdi [3; 10; 11].

Xüsusilə, Soyuqbulaq kurqanlarının tədqiqi, Leylatəpə mədəniyyətinin abidələri xəritəsinin Azərbaycan ərazisində genişlənməsi, Leylatəpə mədəniyyəti tədqiqatçılarının Seyidli kurqanının yeni elmi araşdırmalar işığında təhlili Seyidli kurqanının mədəni-xronoloji mənsubiyyətini dəqiqləşdirmək üçün əsas oldu [11, s.7].

Beləliklə, son arxeoloji tədqiqatların işığında tam əminliklə Seyidli kurqanını e.ə. IV minilliyin birinci yarısına, Leylatəpə mədəniyyətinə aid edə bilərik. Leylatəpə mədəniyyəti isə e.ə. IV minilliyin birinci yarısında cərəyan edən etnik-mədəni prosesləri, Ön Asiyadan Qafqaza miqrasiyanı əks etdirən parlaq bir mədəniyyətdir. Həmin kurqan qazıntısı həm də Ön Asiyadan Şimala Qafqaza miqrasiya xətlərinin müəyyənləşdirilməsi nöqteyi-nəzərdən böyük elmi əhəmiyyət kəsb edir. Mütəxəssislərin fikrincə, e.ə. IV minilliyin ilk qərinəsində İkiçayarasında şəhər həyat tərzinin və dövlət qurumlarının bərqərar olması demoqrafik partlayış, İkiçayarasından miqrasiyalarla müşayiət olunurdu [12; 13]. R.M.Munçayev bildirir ki, Şimali Qafqazdakı parlaq Maykop mədəniyyətinin mənşəyi məsələsi ilə məşğul olaraq bu mədəniyyətin Ön Asiya ilə bağlılığına əmin idim. Amma əvvəllər səhv olaraq miqrasiyanın Qara

dəniz vasitəsilə baş verdiyini düşünürdüm. Leylatəpə mədəniyyəti abidələrinin aşkarlanması miqrasiyanın İran, Azərbaycan, daha sonra Xəzərsahili Dağıstan və Çeçenistan vasitəsi ilə baş verdiyini ehtimal etməyə əsas verir [14, s.129]. Bəzi tədqiqatçılar, hətta Leylatəpə, Maykop arxeoloji mədəniyyətlərini ilk Qədim Şərq sivilizasiyalarının ucqarları, onun tərkib hissəsi hesab edir [15, s.281]. Leylatəpə mədəniyyətinin tədqiqatçısı professor Nəcəf Müseyibli müqayisəli təhlil əsasında belə qənaətə gəlir ki, "Şimala hərəkət edən Ön Asiya tayfalarının bir qrupu Cənubi Qafqazda müəyyən fasilədən sonra öz hərəkətlərinə davam edərək transformasiyalara məruz qalmış Xalkolit ənənələri ilə Şimali Qafqazda məskunlaşmışlar və orada meydana çıxan Xalkolit səciyyəli Maykop mədəniyyəti də bu ənənələr əsasında formalaşmışdır" [3, s.243]. N.Ə.Müseyiblinin Leylatəpə-Maykop mədəni birliyi ideyasını [16] qəbul edən A.D.Rezepkin əlavə edir ki, Maykop-Novosvobodnen mədəni birliyi genetik baxımdan fərqli mənşəyə malik olduğu halda, Leylatəpə-Maykop mədəni birliyi Şərqi Anadolu xalkoliti ilə bağlanan ümumi köklərə malikdir [17, s.200-202]. Bunu da qeyd etməyi lazım bilir ki, Maykop mədəniyyəti üzrə aparıcı mütəxəssislər Leylatəpə-Maykop mədəni birliyi ideyasını qəbul etdikləri halda, bəzi tədqiqatçılar Meşoko, Maykop mədəniyyətini yerli, adıgey-abxaz mənşəli olmasını sübut etməyə cəhd göstərirlər [18].

Yuxarıda qeyd olunanları yekunlaşdıraraq belə qənaətə gəlmək olar ki, Azərbaycan, onun Xəzəryanı bölgəsi Yaxın Şərq sivilizasiyalarının nailiyyətlərinin Şərqi Avropaya ötürülməsində körpü rolunu oynamışdır və Müşkür ekspedisiyasının tədqiq etdiyi Seyidli kurqanı həmin etnik-mədəni prosesləri sənədləşdirən arxeoloji abidələrdən biridir.

## ƏDƏBİYYAT


1. Masson B.M. Исторические реконструкции в археологии. Фрунзе: Илим, 1990, 96 с.
2. Nərimanov İ.H. Leylatəpə mədəniyyətinin Azərbaycanın qədim tarixində əhəmiyyəti // Azərbaycanın maddi mədəniyyət tarixinə dair 1990-cı ildə aparılmış çöl tədqiqatlarının yekunlarına həsr olunmuş elmi konfransın məruzələrinin tezisləri. Bakı: 1991, s.7-8.
3. Müseyibli N.Ə. Leylatəpə mədəniyyəti. Bakı: "Elm və təhsil", 2020, 576 s.
4. Мунчаев Р.М. К 90-летию Идеала Гамид оглы Нариманова – выдающегося ученого археолога и кавказоведа // Проблемы археологии Кавказа и Передней Азии. Баку: 2017, с.7-18.
5. Dostiyev T.M., Orucov A.Ş., Rəsulova M.M. Seyidli kəndi yaxınlığında kurqan // Azərbaycanın maddi mədəniyyət tarixinə dair 1990-cı ildə aparılmış çöl tədqiqatlarının yekunlarına həsr olunmuş elmi konfransın məruzələrinin tezisləri. Bakı: 1991, s.9-10.
6. Ağalarzadə A.M. Leylatəpə arxeoloji mədəniyyətinin keramikası. Bakı: 2019, 224 s.
7. Dostiyev T.M. Müşkür ekspedisiyasının 1990-cı il arxeoloji tədqiqatlarının hesabatı. Bakı: 1990, 34 s.

8. Мунчаев Р.М. Майкопская культура // Археология. Эпоха бронзы Кавказа и Средней Азии. Ранняя и средняя бронза Кавказа. Москва: Наука, 1994, с.158-225.
9. Мунчаев Р.М. Кавказ на заре бронзового века. Москва: Наука, 1975, 415 с.
10. Barbara Helwing. Azerbaijan in the Chalcolithic: A View from the Southwest // Azerbaijan - Land between East and West. Transfer of knowledge and technology during the “First Globalization” of the VIIth-IVth millennium BC. International Symposium Baku, April 1-3 2009, p.63-66.
11. Müseyibli N.Ə. Leylatəpə mədəniyyətinin qəbir abidələri və dəfn adətləri. Bakı: “Nafta-Press”, 2014, 140 s.
12. Амиров Ш.Н. Месопотамско-кавказские связи IV-III тыс. до н.э. в свете климатических флуктуации // Краткие сообщения Института археологии РАН. Москва: 2014, вып. 233, с.3-17.
13. Амиров Ш.Н. Дагестан: культурный процесс эпохи раннего и среднего голоцена в свете климатических колебаний // Кавказ в системе культурных связей Евразии в древности и средневековье. XXX «Крупновские чтения» по археологии Северного Кавказа». Материалы Международной научной конференции. Карачаевск: 2018, с.29-32.
14. Патриарх Кавказской археологии // Azərbaycan arxeologiyası, 2008, № 1-2, s.126-132.
15. Трифонов В.А. Западные пределы распространения майкопской культуры // Известия Самарского научного центра РАН, 2014, №3, с.276-284.
16. Мусеибли Н. К вопросу о переднеазиатско-кавказской культурно-исторической общности позднего халколита // Материалы международной научной конференции: Археология и этнография Азербайджана в период независимости. Баку: Изд-во «Университет Хазар», 2013, с.57-60.
17. Резепкин А.Д. Майкопская и Лейлатепинская культуры: черты общего и различного // Проблемы археологии Кавказа и Передней Азии. Баку: 2017, с.200-210.
18. Кагазежев Ж.В. Древние культуры северного Кавказа: проблемы происхождения и этногенетических взаимосвязей // Известия Кабардино-Балкарского научного центра РАН, 2019, № 6 (92), с.194-202.

Тарих Достиев

# ПОГРЕБАЛЬНЫЕ ПАМЯТНИКИ КАК ИСТОЧНИК ДЛЯ ИЗУЧЕНИЯ ЭТНОКУЛЬТУРНЫХ ПРОЦЕССОВ ЭПОХУ ПАЛЕОМЕТАЛЛА

*(по материалам кургана Сеидли)*

## РЕЗЮМЕ

Важнейшими источниками для изучения этнокультурных процессов эпоху палеометалла являются археологические и антропологические материалы. Установлено, что погребальные памятники содержат богатый информационный поток, как культурного, так и антропологического характера. В статье по материалам кургана Сеидли, рассматриваются этнокультурные процессы периода позднего халколита. При изучении этого кургана получены данные о зарождение подкурганного обряда захоронения, миграции племен Ближнего Востока на Азербайджан, а затем из Азербайджана на Северный Кавказ.

Tarikh Dostiev

# FUNERAL MONUMENTS AS A SOURCE FOR STUDYING ETHNO-CULTURAL PROCESSES OF THE PALEOMETAL PERIOD

*(based on the materials of Seidli mound)*

## SUMMARY

To study the ethno-cultural processes in the Paleometal Period the most important sources are archaeological and anthropological materials. It has been proved that burial sites contain both cultural and anthropological information flow. In an article ethno-cultural processes are studied based on the materials of the Seidli mound that belongs to the Late Chalcolithic period. During the study of this mound, data were obtained on the origin of the burial rite under the mound, the migration of the tribes of the Middle East to Azerbaijan, and then from Azerbaijan to the North Caucasus.

# QUBANIN ƏN QƏDİM MƏSCİDLƏRİ - ƏBU MÜSLİM MƏSCİDLƏRİNİN TARİXİNƏ DAİR MÜLAHİZƏLƏR

***Tərxan PAŞAZADƏ,***
*tədqiqatçı,*
*cekli829@gmail.com*

***AÇAR SÖZLƏR:*** *Əbu Müslim məscidi, Xınalıq, Qrız, Cek, İslam.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *Мечеть Абу Муслим, Хыналыг, Гриз, Джек, Ислам.*
***KEY WORDS:*** *Abu Muslim Mosque, Khinalig, Gryz, Jek, Islam.*

**Giriş**

Azərbaycan Respublikasının Quba rayonu füsunkar təbiətə, etnik-dini baxımdan rəngarəngliyə malik olmaqla yanaşı, tarixi abidələri ilə də zəngindir. Belə tarixi abidələr sırasında dini məkanların özünəməxsus yeri vardır. Tarix boyu müxtəlif dinlərin təəssübkeşləri Quba torpağında tolerantlıq ənənələrini formalaşdırmış, onu qoruyub, saxlamışlar. Bu yerlərin İslam dininə bağlılığından xəbər verən ən qədim məkanlar isə Əbu Müslim məscidləri**dir**. Bu məscidlər dövrümüzə qədər tam şəkildə gəlib çatmasalar da, Qubanın ən qədim məscidlərindən sayılır, o cümlədən eyni dövrdə tikilmiş Şamaxıdakı Cümə məscidi [1, s.22] ilə birlikdə Azərbaycan Respublikasının ərazisindəki ən qədim məscidlər sırasındadırlar. Bütün bunlar ölkəmizin uzun əsrlərdən bəri İslam sivilizasiyasının əsas mərkəzlərindən biri olduğunu göstərməklə yanaşı, İslam dininin yayılmasında və müsəlman intibahının bərqərar olmasında xüsusi çəkisi olduğunu sübut edir.

Hazırda Quba rayonunun üç kəndində – Cek, Qrız və Xınalıq kəndlərində Əbu Müslim adlı məscidlər var. Müxtəlif mənbələrdə onların adı "Əbu Müslüm", "Aba Müslim / Müslüm", "Abu Müslim / Müslüm" və başqa formalarda çəkilir. Bu məscidlərin inşa olunma dövrü VIII əsrə – İslam dünyasındakı Əbu Müslimlərdən ən məşhurunun hakimiyyət illərinə və yaxud bir qədər sonraya təsadüf edir. Heç şübhəsiz, bu məscidlərin tikilməsinin başlıca səbəbi İslam dinini yerli əhali arasında yaymaq olub. Ümumilikdə isə bu məscidlərin ilk tikilmə tarixinin Əbu Müslim əl-Xorasaninin bu ərazilərə ilk gəldiyi – 740-cı illər olduğunu qəbul etmək olar.

**Əbu Müslim kimdir?**

Bəzi mənbələrdə 700, bəzi mənbələrdə isə 718-ci ildə tarixi Xorasan bölgəsinin Bəlx (indiki Əfqanıstan ərazisinin şimalında yerləşir) və ya Mərv şəhərində (indiki Türkmənistan ərazisində yerləşir) anadan olduğu qeyd edilən Əbu Müslimin Əməvilər xilafətinin xəlifəsi əl-Validin qardaşı olduğu bildirilir. Abbasilər xilafətinin banisi Abbasın da məşhur sərkərdəsi olmuş Əbu Müslim əl-Xorasani VIII əsrdə Şirvanı və Dağıstanı işğal edərək İslamı yaymış,

Azərbaycanın hakimi olmuşdur. Ehtimal olunur ki, Qafqaz xalqlarının bəzilərinin İslamı qəbul etməsi məhz onun adı ilə bağlıdır. Çox güman, ceklilər, qrızlılar və xınalıqlılar, həmçinin digər Şahdağ xalqları – buduqlular, əliklilər, haputlular və yergüclülər də məhz Əbu Müslimin zamanında İslam dinini qəbul etmişlər. Əbu Müslimin bu məscidləri tikdirməsinin əsas səbəbi də yerli əhali arasında İslam dinini yaymaq olmuşdur. Əbu Müslimin rəhbərlik etdiyi qüvvələr Əməviləri devirib, hakimiyyətə Abbasiləri gətirmişdilər. Lakin Abbasilər Əbu Müslimin xalq kütlələri arasında olan nüfuzundan qorxaraq, onu hakimiyyətin devrilməsində təqsirləndirmiş, 755-ci ilin fevral ayında xəlifə əl-Mənsurun əmri ilə edam etmişlər. Əbu Müslimin öldürülməsi Xilafətin bütün ərazisində, o cümlədən Azərbaycanda da Abbasilərə qarşı üsyanlara səbəb olmuşdur... Vurğulamaq lazımdır ki, bəzi mənbələrdə Əbu Müslim əl-Xorasaninin həm də Xürrəmilər hərəkatının görkəmli rəhbəri Babəkin babası olduğu qeyd edilir. Belə ki, əd-Dinəvəriyə görə, Babəkin soyu Əbu Müslimin qızı Fatimənin oğlu Mutahhara gedib çıxır [2, s.367]. Mənbələrdə söylənilənlərə əsasən belə bir nəticəyə gəlmək olar ki, Babək və tərəfdarları öz ideya və görüşləri baxımından Əbu Müslim üsyanının davamçıları idilər. Əbu Müslimin ideyalarının kökündə isə Zərdüştilik elementləri var idi. Qeyd edək ki, başda İren Məlikova olmaqla bir sıra Qərb tarixçiləri Əbu Müslimin türk soylu olduğunu bildirmişlər [3, s.26]. Belə ki, İren Məlikova onun türk-oğuz soyuna mənsub olduğuna dair mülahizələr irəli sürmüşdür [4, s.28].

Məqalənin girişində *"İslam dünyasındakı Əbu Müslimlərdən ən məşhuru"* ifadəsini işlətmişdik və onun kimliyi barədə qısaca, ümumiləşdirmiş məlumat vermişdik. Çünki Əbu Müslim məscidlərinin tikilməsini şahdağlıların əksəriyyəti bilavasitə Əbu Müslim əl-Xorasani ilə əlaqələndirir. Həmçinin bu barədə olan mənbələrin əksəriyyətində də müvafiq məlumatlara rast gəlinir.

Lakin bəzi mənbələrdə iddia olunur ki, müvafiq məscidlər Əbu Müslim əl-Xorasaninin adı ilə bağlı deyil. Hətta həmin məscidlərin VIII əsrdə deyil, daha əvvəl – VII əsrdə tikilməsi barədə məlumatlar var. Qeyd edilir ki, bölgə xalqı tərəfindən şeyx hesab edilən Əbu Müslim Xorasandan deyil, başqa Əbu Müslimdir və onun həyatı, şəxsiyyəti haqqında demək olar ki, ətraflı məlumat dövrümüzə gəlib çatmamışdır. Ancaq həmin mənbələrdən o da anlaşılır ki, ilk dəfə İslam dinini Qafqazda yaymağa çalışaraq, bu işdə müvəffəqiyyətli olan şəxs məhz Əbu Müslim adlı müsəlman olmuşdur. Həmçinin onun döyüşçü deyil, İslam dinini yayan mürşid olduğu vurğulanır. Bəzi mənbələrə görə isə Əbu Müslim İslam dinini yaymaq üçün ordunun tərkibində buralara gəlmiş Şeyx Yusif adlı bir mürşidin oğludur [5, s.36-37; 6, s.28].

Başqa bir rəvayətə görə isə Əbu Müslim Şahdağ platosunda yerləşən yaşayış məskənlərinə Qazi-Qumuqdan (indiki Rusiya Federasiyası Dağıstan Respublikasının Lak rayonu ərazisində yerləşən Qumuq kəndi) gəlmiş; missiyasını bitirdikdən sonra isə çeçenlərin məmləkətinə getmiş və orada şəhid olmuşdur; türbəsi də Dağıstanın Xunzax rayonu ərazisində yerləşən eyniadlı – Xunzax kəndindədir. Maraqlıdır ki, o, hələ sağ ikən özü üçün məzar daşı hazırlatmışdır və inanılır ki, həmin məzar daşı hazırda Qumuq kəndində olan böyük məsciddədir. Bu səbəbdən də qumuqlular iddia edirlər ki, Əbu Müslim məhz Qumuq kəndində dəfn edilib [7, s.80].

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin Qoruqları idarəetmə Mərkəzinin saytında olan “Xınalıq” Dövlət Tarix-Memarlıq və Etnoqrafiya Qoruğu haqqındakı məlumatda başqa bir Əbu Müslimdən, daha doğrusu, Abu Müslümdən bəhs olunur. Belə ki, həmin məlumata görə VIII əsrdə xınalıqlılar Dərbənd hakiminin qardaşı Abu Müslüm vasitəsilə İslam dinini qəbul ediblər. Xınalıqda ən qədim məscid də elə Abu Müslümün tapşırığına əsasən tikilib [8].

Əbu Müslim məscidlərinin tarixən tikildiyi ərazidə müşahidə apardıqda, onların necə möhtəşəm memarlıq abidələri olduğunu görmək mümkündür. Maraqlıdır ki, arxitektura cəhətdən, həm də tərtibat elementlərinə görə bu inanc yerləri ənənəvi məscidlərdən fərqlidir və özlərində islamaqədərki qədim inancların da elementlərini daşıyırlar. Bu məscidlərin hər üçü bir-birinin bənzəri olaraq, eyni arxitektur quruluşa malik olub, hamısı kəndlərin əsasən ən hündür yerində və günçıxan tərəfdə tikilib. Məlumdur ki, Qafqaz Albaniyası dövründə albanlar da qədim Ay və Günəş məbədlərini yüksəkliklərdə, dağın təpəsində inşa edirdilər [9].

Müvafiq kəndlərdə ən erkən islami ibadət yeri sayılan bu məscidlərin ərazisində geniş və ardıcıl surətdə elmi-arxeoloji və memarlıq tədqiqatlarının aparılması əhəmiyyətli olardı. Əgər onlar tədqiq edilərsə, Azərbaycanda İslam memarlığının, eyni zamanda milli memarlığımızın bir sıra nüansları üzə çıxarıla bilər. Tarixin sınaqlarından dəfələrlə üzüağ çıxmış bu məscidlər, təəssüf ki, Sovet hakimiyyəti dövründə təyinatı üzrə istifadə olunmamış, ya dağıdılmış, ya da baxımsız vəziyyətə düşmüşlər.

**Cek kəndindəki Əbu Müslim məscidi**

Cek kəndindəki eyniadlı məscid Sovet hakimiyyəti illərində dağıdılaraq daşından məktəb binası, ağaclarından isə taxıl anbarı tikilmişdir [10, s.37]. Məscidin dağıdılma tarixi bizə tam bəlli deyil. Ancaq Cek kəndində məktəb binasının 1928-ci ildə tikildiyi bizə məlum olduğu üçün çox güman, məscid də ya həmin il, ya da bir qədər əvvəl dağıdılmışdır. Lakin elə Sovet hakimiyyətinin son illərində – daha dəqiq desək, 1988-ci ildə kənd ağsaqqallarından biri Şıxəli Muradovun təşəbbüsü və kənd sakinlərinin köməkliyi ilə məscid qismən bərpa edilmişdir [11]. Təəssüf ki, maddi çətinliklər üzündən onun inşası hələ də lazımı səviyyədə tamamlanmamışdır [12]. Hazırda məscidin istifadəyə yararlı olan sahəsi çox kiçik – cəmi 16 kvadratmetr, mövcud tutumu isə 16 nəfərlik  [13, s.15] olsa da, buralara gələn yerli və xarici turistlər məscidi ziyarət edir, müsəlman qonaqlar burada namaz qılaraq ibadət edirlər. Bir sıra mülahizələrə əsasən, İslamdan əvvəl bu məscidin ərazisində ceklilərin sitayiş etdikləri qədim dinlərə aid başqa məbəd olub. Onun tikilmə tarixinin bizim eradan əvvəlki dövrlərə aid olduğu ehtimal edilir. İslamdan əvvəl onun müxtəlif vaxtlarda həm atəşpərəstlərin, həm də Aya sitayiş edənlərin məbədi olması barədə də iddialar var. Sıldırım qayaların üzərində inşa edilmiş bu tikilinin üzərində olan ornamentlərdə Qafqaz Albaniyası xalqlarının hələ Xristianlıqdan öncə tapındıqları Ay və Günəş kultuna aid sakral işarələrə rast gəlinir. Bizə o da məlumdur ki, ceklilər qədimdə Qoq adlı tanrıya sitayiş ediblər. Bəlkə də Əbu Müslim məscidinin tikildiyi yerdə qədim zamanlarda Tanrı Qoqa sitayiş edənlərin məbədi olub...

**Qrız kəndindəki Əbu Müslim məscidi**

Qrız kəndindəki eyniadlı məscidin mövcud vəziyyəti isə daha ağırdır. Ciddi dağıntılara məruz qalaraq məhv olmaq təhlükəsi ilə üzləşən Əbu Müslim məscidi hazırda istifadəyə tamamilə yararsız vəziyyətdədir [14]. Məscidin qalıqları arasında divarları, mehrabı, kitabələri, üzərində yazılar və müxtəlif formalı naxışlar olan qədim tarixə malik bəzi ağac sütunlar dövrümüzə qədər dağınıq formada da olsa, gəlib çatmışdır. Bir versiyaya görə, ağac sütunların üzərindəki simvolların anlamı "Xilafətin doğurduğu günəş" mənasındadır. Təəssüf ki, zaman keçdikcə məscidin qalıqlarının da məhvolma prosesi sürətlənməkdədir.

**Xınalıq kəndindəki Əbu Müslim məscidi**

Xınalıq kəndindəki eyniadlı məscid isə digər iki məscidlə – Cek və Qrız kəndlərindəki Əbu Müslim məscidləri ilə müqayisədə daha şanslı hesab edilə bilər. Belə ki, kənd sakinləri SSRİ dövründə qış fəsli üçün yığdıqları azuqələrini bu məsciddə topalayıb saxlayaraq, ondan anbar kimi istifadə etmiş, nəticədə də onun dağıdılmasının qarşısını almışlar. Sovet hakimiyyətinin son illərində isə yerli əhali tərəfindən məscid əvvəlki halına gətirilmiş, təyinatı üzrə istifadə edilmişdir. 2012-2013-cü illərdə Azərbaycan dövləti tərəfindən bərpa-konservasiya işləri həyata keçirilərək, məscid əsaslı şəkildə təmir olunmuşdur. Əbu Müslim məscidi hazırda kəndin əsas cümə məscididir [15]. Xınalıq kəndinin ən yüksək yerində yerləşən bu məscidin hazırda istifadəyə yararlı olan sahəsi 340 kvadratmetr, tutumu isə 340 nəfərlikdir. Kənd camaatı orada cümə namazlarını qılır; həmçinin kəndə gələn yerli və xarici müsəlman turistlər bu məscidi ziyarət edərək, burada yerli sakinlərlə birlikdə namaz qılırlar. Lakin məsciddə yalnız kişilər ibadət edə bilirlər və qadınların namaz qılması üçün orada ayrıca yer yoxdur [16].

Qeyd edim ki, Xınalıqdakı Əbu Müslim məscidi çox maraqlı formada tikilib. Məscidin girişində, sağ tərəfdə 2 metr yüksəklikdə yerləşən iki müxtəlif daş üzərində Avropanın və Şərqi Asiyanın qədim yazı növü olan "runa" yazıları həkk olunub. Məscidin içərisində iki böyük sütun yerləşir. Məscidin ağac sütunları oyma üsulu ilə müxtəlif formalı nəbati motivlər və göl təsvirləri ilə bəzədilib [17]. Alimlərin fikrincə, bu sütunların tarixi məscidin tarixindən də qədimdir. Sütunlardakı yazıların hətta İslamdan əvvəlki dövrə aid olduğu, təqribən III-VIII əsrlər arasında yazıldığı ehtimal olunur [15]. Bu yazıların tərcüməsi bizə tam bəlli olmasa da, bəzi versiyalara görə, təxminən "günəşin doğması" və yaxud "yeni tarixin başlanması" mənasını daşıyır. Bəzi xınalıqlıların dediklərinə görə, Əbu Müslim məscidi bu kənddə tikilməmişdən əvvəl həmin yerdə dünyanın ən qədim etiqadlarından biri olan Zərdüştilik məbədi olub ki, onun da tarixi eradan əvvələ aid edilir. Bu məscidin içərisindəki tacşəkilli qədim taxta sütunların üzərində olan günəş rəmzlərinin təsvirləri də buranın vaxtilə Günəş məbədi olması fikrini gücləndirir [9].

**Qanunvericilik bazası**

Bu məscidlərin heç biri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 nömrəli Qərarı ilə təsdiq edilmiş tarix və mədəniyyət abidələrinin siyahılarında göstərilməmişdir. Azərbaycan Respublikasının qanunvericilik bazasında yalnız iki sənəddə -

“Azərbaycan Respublikasının Quba rayonunun Xınalıq kəndinin tarixi ərazisinin Azərbaycan Respublikasının “Xınalıq” Dövlət tarix-memarlıq və etnoqrafiya qoruğu və Ağstafa rayonunun ərazisində Keşikçidağ silsiləsinin bir hissəsini əhatə edən mağaralar kompleksinin Azərbaycan Respublikasının “Keşikçidağ” Dövlət tarix-mədəniyyət qoruğu elan edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 19 dekabr 2007-ci il tarixli 2563 nömrəli Sərəncamında və Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2013-cü il tarixli 195 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı”nda Xınalıqdakı Əbu Müslim məscidinin adı çəkilir.

**Nəticə**

Əbu Müslim məscidlərindən hansının daha əvvəl tikildiyi bizə bəlli olmasa da, onlardan sonra bu kəndlərdə müxtəlif vaxtlarda başqa məscidlər də inşa edilmişdir. Əsasən evə bənzəyən və minarələri olmayan həmin məscidlər memarlıq quruluşuna görə Əbu Müslim məscidlərindən fərqlənir. Digər bir cəhət isə Əbu Müslim məscidlərinin tikildiyi ərazilərin qədim zamanlardan inanc yeri olmasıdır. Lakin orada İslamdan əvvəl mövcud olmuş ibadətgahlar haqqında bizə heç bir dəqiq məlumat gəlib çatmamışdır. Ona görə də bu istiqamətlərdə araşdırmaların aparılması düşünürük ki, səmərəli nəticələr verə bilər.

# ƏDƏBİYYAT


**1.** Tərxan Paşazadə. Azərbaycanda dini turizm. Bakı: 2018.

**2.** Əd-Dinəvəri. Əl-əxbəru-t-Tival. Beyrut: "Əl-Kitab".

**3.** Irène Mélikoff. Abu Muslim, le "Portre-Hache" du Khorassan dans la tradition épique Turco-Iraienne. Paris: Librairie D'amerigue et D'obient, 1962.

**4.** Həyat Şamıyeva. "Xürrəmilərin dini inanc və ayinləri, qadına münasibət" // "Tarix və onun problemləri", № 4, 2009, səh. 26-32. / arxiv linki: https://archive.is/WQHX5

**5.** Mehmet Rıhtım, "IX-XIX. Asırlar Azerbaycan Kültür Tarihinde Tasavvufi Hareketler" // Avrasya etüdleri, № 35, 2009-1 səh. 33-60. / arxiv linki: https://archive.is/5uI7Z

**6.** Cafer Barlas. "Kafkasya Özgürlük Mücadelesi". İstanbul: İnsan Yayınları, 1999.

**7.** Tərxan Paşazadə, "Qubanın ən qədim Əbu Muslim məscidləri" // "İlahiyyat" elmi-publisistik jurnalı, № 3, dekabr 2020, səh. 80-81.

**8.** Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin Qoruqları İdarəetmə Mərkəzinin saytında olan "Xınalıq" Dövlət Tarix-Memarlıq və Etnoqrafiya Qoruğu haqqında məlumat / arxiv linki: https://archive.is/9wTm8

**9.** "Şahdağ xalqları", multikulturalizm.gov.az, 06.09.2019 / arxiv linki: https://archive.is/i9G3G

**10.** Tərxan Paşazadə, "Azərbaycanın milli etnik nümayəndələri – ceklilər" // "Azərbaycan Müəllimlər İnstitutunun Xəbərləri", № 1, Bakı, "Müəllim" nəşriyyatı, 2009, səh. 37.

**11.** Ağalar İdrisoğlu, "Cek kəndinin ağsaqqalı-Şixəli kişi" // "Azad Azərbaycan" qəzeti, Bakı, 3 iyul 2005, № 98 (856), səh. 7.

**12.** Əlhəddin Cekli və Tərxan Paşazadə, "Biz CAN deyirik! Yəni Ceklilər Azərbaycan Naminə!" // "Kamal" jurnalı, № 3 (7), iyun 2010, səh. 44-48.

**13.** Tərxan Paşazadə, "Əbu Müslim məscidi" // "Cəmiyyət və Din" qəzeti, 8-14 avqust 2013, № 29 (215), səh. 9, 15.

**14.** Tərxan Paşazadə, "Quba əhalisi məhz onun vaxtında İslam dinini qəbul etmişdi" // "168 saat" qəzeti, 29 avqust – 5 sentyabr 2019, № 22 (698), səh. 5.

**16.** Fuad Hüseynzadə. "Nuhdan qalan dilin daşıyıcıları" // "Paritet" qəzeti, 26 noyabr 2010 / arxiv linki: https://archive.is/71f1m

**17.** Leyla Abdullayeva. "Xilafət sərkərdəsinin Azərbaycanda "parlatdığı günəş" və ya yeni tarixin başlanğıcı" // 23.04.2019 / arxiv linki: https://archive.is/btJAT

**18.** "Xınalıq" məqaləsi, Azərbaycan Sovet Ensiklopediyası, X cild. Bakı: 1987, səh. 89.

Тархан Пашазаде

# СТАРЕЙШИЕ МЕЧЕТИ ГУБЫ - СООБРАЖЕНИЯ ОБ ИСТОРИИ МЕЧЕТЕЙ АБУ-МУСЛИМА

## РЕЗЮМЕ

В этнически и религиозно разнообразном Губинском районе, свидетельствующих о приверженности исламу как одними из старейших мест следует особо отметить мечети Абу-Муслима. Помимо того, что мечети Абу Муслима - это не только самые старые мечети в Губе, но и одна из старейших мечетей на территории Азербайджанской Республики.

В настоящее время мечети имени Абу Муслима расположены в трех селах Губинского района - Джек, Грыз и Хыналыг. Считается, что эти мечети были построены известным полководцем в исламском мире Абу Муслимом аль-Хорасани в первой половине VIII века. Говорят, что в то время этот полководец был правителем Азербайджана.

В этой статье вы ознакомитесь о личности Абу Муслима, а также сможете получить информацию об одноименных мечетях в селах Джек, Грыз и Хыналыг.

Tarkhan Pashazade

# ANCIENT MOSQUES OF GUBA REGION - REMARKS ON THE HISTORY OF ABU MUSLIM MOSQUES

## SUMMARY

The Abu Muslim Mosque is one of the oldest sacred places in the ethnically and religiously diverse Guba region that testifies to the commitment to the Religion of Islam. Abu Muslim mosques are not only the oldest mosques in Guba, but also one of the oldest mosques in the territory of the Republic of Azerbaijan.

At present, there are mosques named after Abu Muslim in three villages of Guba region - Jek, Gryz and Khinalig. Their construction dates back to the first half of the VIII century, the years of the reign of the most famous of the Abu Muslims in the Islamic world, or a little later.

In this article, you will learn about the identity of Abu Muslim, as well as information on the mosques of the same name in the villages of Jek, Gryz and Khinalig.

# MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ

1. Jurnalda digər nəşrlərə təqdim edilməmiş yeni tədqiqatların nəticələri olan yığcam və mükəmməl redaktə olunmuş elmi məqalələr dərc edilir.

2. Məqalənin mətni jurnalın redaksiyasına A4 formatda, “14” ölçülü hərflərlə, yuxarıdan və aşağıdan 2 sm, soldan 3 sm, sağdan 1 sm məsafə ilə, 1,5 intervalla, Azərbaycan və rus dilində Times New Roman şriftində 1 nüsxədə çap edilərək elektron variantda jurnalın məsul katibinə təqdim edilir.

3. Məqalədə müəllifin işlədiyi müəssisə və həmin müəssisənin ünvanı, müəllifin elektron poçt ünvanı göstərilməlidir.

4. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq müəllifin gəldiyi elmi nəticə, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, s. aydın şəkildə verilməlidir.

5. Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməli və [1] və ya [1, s.119] kimi işarələnməlidir. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad edilərsə, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

6. Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Eyni məqalələrə, simpozium, konfrans və digər nüfuzlu elmi tədbirlərin tezislərinə istinad edərkən məqalənin, məruzənin və ya tezisin adı göstərilməlidir. İstinad olunan mənbənin biblioqrafik təsviri verilərkən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının “Dissertasiyaların tərtibi qaydaları” barədə qüvvədə olan təlimatının “İstifadə edilmiş ədəbiyyat” bölməsinin 10.2-10.4.6 tələbləri əsas götürülməlidir.

7. Məqalənin sonundakı ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və digər etibarlı mənbələrinə üstünlük verilməlidir.

8. Məqalənin yazıldığı dildən əlavə digər 2 dildə xülasə verilməlidir. Məqalələrin həcminin 8-10 səhifə, xülasələrin isə 5-8 sətir olması tövsiyə edilir.

9. Məqalənin müxtəlif dillərdəki xülasələri bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun gəlməlidir. Müəllifin və ya müəlliflərin gəldiyi elmi nəticə, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və s. xülasədə yığcam şəkildə öz əksini tapmalıdır. Xülasələr elmi və qrammatik baxımdan ciddi redaktə olunmalıdır. Hər bir xülasədə məqalənin adı, müəllif və ya müəlliflərin tam adı göstərilməlidir.

10. Hər bir məqalədə UOT indekslər və ya PACS tipli kodlar və açar sözlər göstərilməlidir. Açar sözlər üç dildə (məqalənin və xülasələrin yazıldığı dillərdə) verilməlidir.

11. Məqalənin keyfiyyətinə, göstərilən faktların doğruluğuna və digər məlumatlara görə müəllif cavabdehlik daşıyır.

12. Dini mövzuda yazılmış elmi-kütləvi məqalələrin nəşrə hazırlanmasına aid beynəlxalq təcrübəyə əsaslanaraq müqəddəs və görkəmli din xadimlərinin adı çəkilərkən xüsusi xitab formasından istifadə olunması məqsədəuyğun hesab edilir.